**Mövzu 1. Azərbaycanda məktəbəqədər tərbiyə və təhsilin inkişafı tarixindən**

**Plan :**

1. Məktəbəqədər tərbiyə və təhsil haqında klassik mütəfəkkirlərin pedaqoji fikirləri
2. Azərbaycanda məktəbəqədər müəssisələrin inkişafı tarixindən
3. məktəbəqədər müəssisələrdə uşaqların inkişafı, tərbiyəsi və təhsili işinə verilən tələblər
4. Müstəqillik illərində uşaqların inkişafı, tərbiyəsi və təhsilinə dair

Ədəbiyyat


1. Həsənov A.M. Məktəbəqədər pedaqogika, Bakı-2000.
2. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı-1969.
3. Ismayılova M., İsmayılova C. Uşaq bağçalarının böyük qrupunda keçirilən didaktik oyunlar, Bakı-1995.
4. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri, Bakı-1961.
5. Məktəbəqədər pedaqogika tarixi (M.Şabayevanın redaktəsi ilə), Bakı-1967.
6. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika tarixi, Bakı-2004.
7. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən, Bakı-2007.


1. Azərbaycanda təhsil kateqoriyasının mahiyyətini açan fikirlər 1996-cı ildən söylənməyə başlanmışdır. Təlimin mahiyyətinə dair eyni müəllifin eyni əsərində ziddiyyətli fikirlərə də rast gəlmək olur. Məsələn, 2000-ci ildə çap olunmuş “Pedaqoqika” (İ.P.Podlasıy. Pedaqoqika, M., 2000) adlı əsərin 26-cı səhifəsində oxuyuruq: “Təhsil-təlimin nəticəsidir”, 295-ci səhifədə isə yazılır: “Təhsil-təlim prosesində mənimsənilən biliklərin, bacarıq və vərdişlərin, təfəkkür tərzlərinin sistemidir”.

Pedaqoji ədəbiyyatın ötəri təhlilindən belə bir nəticə çıxır ki, məktəbəqədər və

digər təhsil kateqoriyasının mahiyyətini və məzmununu açan tərif onun bir sıra

xüsusiyyətlərini: sosial-iqtisadi həyatın tərkib hissəsi olduğunu; müvafiq tədris

müəssisələrində (o cümlədən məktəbəqədər müəssisədə) həyata keçirildiyini; müəyyən biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmuundan ibarət olduğunu; tərbiyə və inkişaf imkanlarına malik olduğunu; təlimlə bağlılığını, bir halda təlimin şərti, digər halda nəticəsi olduğunu özündə birləşdirməlidir.

Əvvəla, təhsilin məktəbəqədər və ya digər növünü sosial-iqtisadi həyatdan

təcrid edilmiş şəkildə nəzərdən keçirmək düzgün deyil. Çünki təhsil sosial-iqtisadi həyatın ehtiyacları ilə şərtlənir və onun sonrakı inkişafına səbəb olur. Buna görə də o, sosial-iqtisadi həyatın tərkib hissəsi kimi cərəyan edir.

Ikincisi, təhsil, onun növləri (məktəbəqədər təhsil də daxil olmaqla) və

formaları müəyyən tədris və ya məktəbəqədər müəssisələrdə həyata keçirilir.

Üçüncüsü, tədris müəssisələrinin növündən və ya tipindən asılı olaraq təhsilin

məzmunu başqa-başqa olur. Məsələn, məktəbəqədər müəssisələrdə öyrədilən bilik, bacarıq və vərdişlər sistemi, ümumtəhsil məktəblərində öyrədilən bilik, bacarıq və vərdişlər sistemi peşə məktəbindəkindən, peşə məktəbindəki bilik, bacarıq və vərdişlər sistemi orta ixtisas məktəbdəkindən, ali məktəbdəkindən və s. fərqlənir. Həmin biliklər, bacarıq və vərdişlər elə sistemləşdirilir ki, gənc nəslə tərbiyəvi təsir göstərsin və onların qabiliyyətlərini inkişaf etdirsin.

Dördüncüsü, tədris planında, tədris proqramları və dərsliklərdə nəzərə alınan

biliklərin, bacarıq və vərdişlərin məcmuu tədris müəssisəsində tədrisin zəruri şərtidir.

Təlim bu əsasda mümkün olur. Gənc nəsil həmin biliklər, bacarıq və vərdişlər

sisteminə yiyələndikdə təhsil təlimin nəticəsinə çevrilir. Bu mənada təlimə təhsilin həyata keçirilməsi prosesi kimi də baxmaq olur.

Nəhayət, təhsil məqsədyönlü, planlı və mütəşəkkil səciyyə daşıyır. Bütün bu zəruri xüsusiyyətləri nəzərə alan pedaqogikada təhsil kateqoriyasının mahiyyəti belə başa düşülür: “Təhsil sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, müvafiq tədris müəssisəsində (və ya məktəbəqədər müəssisədə) müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil, öyrənilən, tərbiyə və psixoloji inkişaf imkanlarına malik olan, təlimin bir halda zəruri şərti, digər halda gedişi, üçüncü halda isə nəticəsi kimi özünü göstərən sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmuudur”

Məktəbəqədər tərbiyənin elementləri ibtidai icma quruluşu dövrünə təsadüf edir. İbtidai icma cəmiyyətində həyata hazırlamaq üçün əmək və ovçuluğu əks etdirən bəsit oyunlardan istifadə ediblər. Belə oyuncaqlarla oyun zamanı uşaqlar yaşlıları təqlid ediblər. Mənəvi tərbiyənin güclü vasitələrindən biri folklor (nağıllar, atalar sözləri, zərb məsəllər və s.) nümunələri əsasında olubdur.

Platon (eramızdan əvvəl 427-347-ci illər) mühüm pedaqoji anlayışları,

xüsusilə dini tərbiyə, ictimai quruluşun təlim-tərbiyə ilə əlaqəsi və s. anlayışları

müəyyən edib. O, erkən yaşlı uşaqların vətəndaş kimi mövcud quruluş ilə bağlı olduğunu əsaslandırmışdır. Platon uşaq tərbiyəsində oyuna yüksək əhəmiyyət vermişdir.

Aristotel (e.ə.384-322) şəxsiyyətin hərtərəfli inkişafı anlayışı yaratmış və

buraya fiziki, əqli və əxlaq tərbiyəsini daxil edirdi. Təbiətəmüvafiqlik tərbiyəsinə yüksək əhəmiyyət verməklə, məktəbəqədər tərbiyəni şəxsiyyətin inkişafında mühüm mərhələ hesab edirdi. O, 5 yaşdan sonra uşağı nağıl və oyunla məktəbə hazırlamağı mümkün hesab etmişdir.

Məktəbəqədər yaşlı uşaqlar üçün əsərlər yazmış romalı pedaqoq Mark Fabi Kvintilian (42-118) “Orator tərbiyəsi haqqında” əsəri uşaqların məktəbəqədər dövründə tərbiyəsində mühüm rol oynamışdır. Bu əsər bir çox problemi, o cümlədən, məktəbəqədər tərbiyəni əhatə edir. O, uşaq tərbiyəsində ictimai mühitə yüksək əhəmiyyət vermişdir. Kvintilian uşağı məktəbəqədər dövründə sistemli şəkildə tərbiyə etməyi lazım bilir.

Intibah dövründə (XIV-XVI əsrlər) uşaq təbiətin vergisi kimi qiymətləndirilir.

O, xoşbəxt yaşamalı, fiziki cəhətdən sağlam olmalı, oyun və əqli fəaliyyəti gücləndirən tədbirlərdə iştirak etməlidir – deyir. Bu tərbiyə sistemi hakim sinfin uşaqlarına aid edilə bilərdi, yoxsul uşaqlar isə məktəbdən, təlim-tərbiyədən kənarda qalırdı.

Utopik sosialistlərdən Tomas Morun (1478-1535) "Utopiya" və Tomazo

Kampanellonun (1568-1639) "Günəş əsəri" əsərlərində istismardan azad, yoxsulluq

və zülmdən uzaq bir cəmiyyət təsvir olunurdu. T.Mor və T.Kampanellonun təsvir etdiyi cəmiyyətdə bütün uşaqlar məktəbə gedir, məktəbəqədər yaşlı uşaqlar tərbiyəyə cəlb olunur və azad tərbiyə alırlar. Onların təsvir etdiyi və cəmiyyətdə uşaqların fiziki tərbiyəsinə də geniş yer verilir, dini tərbiyə oyun prosesində, əyanilik şəraitində həyata keçirilir.

2. Ilkin olaraq qeyd edilməlidir ki, Azərbaycanda məktəbəqədər tərbiyə müəssisəsi ilk dəfə 1907-ci ildə Bakının Bayıl qəsəbəsində Alisa İvanovna Radçenko adlı bir qadın tərəfindən təşkil edilmişdir. "Dəcəllər məktəbi" adlanan bu uşaq bağçası ilə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrinin əsası qoyulmuşdur. XX əsrin ilk onilliklərində respublikamızın ərazisində yeni-yeni uşaq bağçaları təşkil edilmişdir. O cümlədən, növbəti bağça 1914-cü ildə Sumarokova Zinaida Alekseyevna adlı bir qadın tərəfindən açılmışdır. Sayca 3-cü bağça yenə də həmin illərdə Baranova tərəfindən, dördüncü Bakı şəhər xalq məktəbləri müdiriyyətinin qadın gimnaziyası nəzdində açılmış uşaq bağçası , beşinci isə Kələntərova tərəfindən açılan uşaq bağçası olmuşdur

1918-1920-ci illərdə uşaq bağçalarının sayında artım az-çox müşahidə edilir.

Bu illərdə Gəncə Gimnaziyasının direktoru olmuş, Azərbaycanın ilk maarif naziri **Nəsib bəy Yusifbəylinin** nəslindən olan Şükufə xanım Gəncədə ilk dəfə uşaq bağçası açmışdır .

Uşaq bağçalarının inkişafına Nəriman Nərimanov xüsusi kömək göstərirdi.

1918-ci ildə Xalq Maarif Komissarlığında işləyən N.N.Kolesnikova yazırdı ki,

tərbiyəçilər hazırlayan kursların təşkilində, tərbiyə ocaqlarının avadanlıqla təchiz

olunmasında N.Nərimanov bizə çox kömək edirdi. Onun vasitəsilə bir bina, lazımi avadanlıq və ərzaq malları alırdıq. Yoldaş Nərimanov bizim işimizə diqqətlə yanaşırdı. O, bizim uşaq ocaqlarımızı tanıyırdı, tez-tez bu və ya digər uşaq ocağına gəlirdi. Uşaqlar, tərbiyəçilər və eləcə də valideynlərlə söhbət aparırdı .

Məktəb işimizin islahatı, məktəb şəbəkəsinin genişləndirilməsi, məktəbəqədər

tərbiyə və məktəbdənkənar təhsil müəssisələrinin yaradılması o vaxtlar Xalq Maarif Komissarlığının əsas vəzifələrindən olmuşdur. Bütün bunların nəticəsidir ki, 1920-ci ilə kimi məktəbəqədər tərbiyə müəssisələrinin sayı xeyli artmışdı. Bununla belə o zamanlar respublikada pedaqoji kadr hazırlanması problemi meydana çıxmışdı. Bu problemin aradan qaldırılmasında yenə də N.Nərimanov yaxından kömək etmişdi. 1920-ci ilin may ayının 24-də N.Nərimanovun Azərbaycan İnqilab Komitəsi adından Xalq Maarif Komissarlığına göndərdiyi 54 №-li telefonoqramda deyilirdi: “Təklif edirəm ki, bir həftə müddətində şəhərin müsəlman məhəllələrində uşaq bağçaları təşkil edilsin. Bu məqsədlə də şəhərin bütün müəllim və müəllimələrini səfərbərliyə almaq lazımdır. Bu telefonoqramdan sonra respublikada, xüsusilə Bakının müsəlmanlar yaşayan rayonlarında yeni-yeni uşaq bağçaları və körpələr evi təşkil edilmiş və bu məqsədlə şəhərin ən yaxşı müəllim və tərbiyəçiləri bu işə cəlb edilmişdi.

920-ci il iyun ayının 28-nə kimi təkcə Bakıda “Yuva”, “Svetlyaçok”,

“Xutorok”, “Sünbül”, Suraxanı rayonunda “Krasnoye solnışko”, “Aydınlıq”,

“Krasnıy uqolok”, “Kolokolçik” adlı uşaq bağçaları təşkil edilmişdi. 1920-ci ildən sonra (Az-da Sovet hakimiyyəti) məktəbəqədər tərbiyə müəssisələrinin sayı nəinki şəhərlərdə, həm də kənd yerlərində də artmağa başladı. 1921-1922-ci illərdə respublikada 4 mindən çox uşağı əhatə edən 76 məktəbəqədər tərbiyə müəssisəsi təşkil edilmişdir.

Nadejda Kolesnikovanın rəhbərliyi ilə komissarlıq məktəbləri yenidən təşkil

etdi, xalq universitetləri təşkil olundu, zəhmətkeş uşaqları üçün uşaq evləri və uşaq

meydançaları yarandı. Şuşa Xalq təhsil şöbəsi ilə uşaq bağçası, meydançaların

açılması, məktəblərin zəruri ləvazimatlarla təmin olunması və başqa məsələlər

haqqında yazışmalar əldə edildi. Ağdaşda uşaq evlərinin açılması haqqında qərar verildi. . 1922-ci ildə Məktəbəqədər Tərbiyə İnstitutu Pedaqoji İnstituta çevrildi və nəzdində məktəbəqədər tərbiyə fakültəsi təşkil edildi. Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri yaradılmasında böyük xidmətləri olan və bu sahədə uzun illər çalışan tanınmış maarifçi Gülrix Qədimbəyova öz xatirələrində yazırdı: "Məktəbəqədər tərbiyə işçilərinin hazırlanmasında qısamüddətli kursların çox böyük rolu olmuşdur. Kurslara geniş qadın kütlələrini cəlb etmək məqsədilə N.Nərimanov öz qadın ailə üzvlərini də bu

kurslara oxumağa göndərmişdi. O zaman azərbaycanlı qadınların kurslara cəlb edilməsi çox çətin məsələ idi"

3. Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri tarixinin tanınmış tədqiqatçısı Əfşan Qədimbəyovanın apardığı tədqiqatlar göstərir ki, əgər 1924-1925 ci dərs ilində respublikada fəaliyyət göstərən 19 uşaq bağçasında 1096 nəfər uşaq tərbiyə alırdısa, 1930-1931-ci dərs ilində uşaq bağçalarının ümumi sayı artaraq

olmuş, burada tərbiyə alanların sayı isə artaraq 135,043-ə çatmışdı .

Bu illərdə uşaq bağçalarında aparılan tərbiyənin qarşısında; uşaq kollektivinin təşkili və onun tərbiyədə rolu, uşaqların təşkilatçılıq qabiliyyətini inkişaf etdirilmək, təbiətlə tanışlıq, yoldaşlıq, dostluq və s. keyfiyyətlərin aşılanması kimi vəzifələr qoyulmuşdu. 1926-cı ildə Dövlət Elmi Şurası "Uşaq bağçaları üçün Nizamnamə" təsdiq etdi. Nizamnamənin birinci bölməsində məqsəd və vəzifələrdən, məktəbəqədər yaşlı uşaqlarla aparılan işin məzmunundan, ictimai tərbiyənin məqsədindən, uşaq bağçalarında işlərin ana dilində aparılmasından və qəbul qaydalarından bəhs edilirdi. Daha sonra bu bölmədə uşaq bağçalarına yetimlərin, anası işdə olan uşaqların, qızıl əsgər və yoxsul kəndli uşaqlarının

birinci növbədə qəbul komissiyaları vasitəsi ilə qəbul edilməsi xüsusi qeyd edilirdi. O vaxtlar məktəbəqədər tərbiyə müəssisələrinin idarə edilməsində bu nizamnamənin böyük əhəmiyyəti olmuşdu. Belə ki, nizamnamədə uşaq fəaliyyətinin bir çox cəhətləri öz əksini tapmışdı. Məsələn, nizamnamənin uşaq bağçalarının daxili işlərinin təşkilinə həsr edilmiş bölməsində uşaq bağçasının iş müddəti, bağçada uşaqların qidalanması, bir bağçada tərbiyə ala bilən uşaqların minimum və maksimum miqdarı, bağçada məsul şəxs olan müdirin, tərbiyəçinin vəzifələri ətraflı şərh olunurdu.

4. Müstəqillik illərində qüvvədə olan normativ sənədlərin öyrənilməsi göstərir ki, məktəbəqədər sahənin yenidən qurulması üçün bir sıra istiqamətlər müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1995-ci il 17 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə”də aşağıdakı ümumi müddəalar qeyd edilmişdir.

1. Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri fasiləsiz milli

təhsilin həyata keçirilməsində ilkin pillə olmaqla milliyətindən, cinsindən, dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün məktəbəqədər yaşlı uşaqların (valideynlərin arzusuna uyğun olaraq) tərbiyəsi və təhsilə hazırlanması ilə məşğul olur.

2. Məktəbəqədər tərbiyə müəssisələrini dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, bütün mülkiyyət formalarından olan yerli və xarici birliklər, hüquqi şəxslər, ictimai birlik və təşkilatlar, ayrı-ayrı vətəndaşlar təşkil edə bilərlər.

3. Məktəbəqədər tərbiyə müəssisələri tabeliyindən asılı olmayaraq uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraq məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini təmin edir.

4. Məktəbəqədər tərbiyə müəssisələri öz fəaliyyətində “Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu”, qanunvericilik və digər normativ aktlar, habelə bu əsasnaməni və öz Nizamnaməsini rəhbər tutur.

5. Məktəbəqədər tərbiyə müəssisələri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun təlim-tərbiyə prosesinin təşkili, onların sağlamlığının mühafizəsi, ilkin təhsilə hazırlanması üçün təhsil orqanları, valideynlər və ictimaiyyət qarşısında məsuliyyət daşıyır.

6. Dövlət məktəbəqədər tərbiyə müəssisələrinin inkişafı üçün təminat verir, tərbiyə və təlimin məzmununu müəyyənləşdirir, onların zəruri maddi-texniki ehtiyaclarını ödəyir, kadrlarla, proqramlarla, tədris-metodik ədəbiyyatla, oyun avadanlıqları ilə təmin edir.

7. Məktəbəqədər müəssisələrində təlim dövlət dilində aparılır. Tərbiyə və təlim prosesinin başqa dildə aparılması valideynlərin (onları əvəz edən şəxslərin) arzuları, yerli imkanlar, pedaqoji kadr və tədris təlimatı nəzərə alınmaqla, məktəbəqədər tərbiyə müəssisəsi tərəfindən həll edilir.

8. Tərbiyə alan uşaqların maraq, qabiliyyət və istedadların inkişaf etdirilməsi üçün lazımi şərait və imkan yaratmaq məqsədi ilə müxtəlif növ məktəbəqədər tərbiyə müəssisələri yaradıla bilər. Belə müəssisələr təsisçinin təsdiq etdiyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qeydə alınmış nizamnamə əsasında fəaliyyət göstərir. məktəbəqədər tərbiyə müəssisələrinin strukturu, tipləri və fəaliyyətinin əsasları da göstərilmişdir.

Məktəbəqədər tərbiyə müəssisələri aşağıdakı tiplərə bölünür:

- Körpələr evi;
- Körpələr evi-uşaq bağçası;
- Uşaq bağçası;
- Əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri;
- Məktəb-uşaq bağçası.

Əsasnamədə məktəbəqədər müəssisələrdə işin təşkili üzrə müddəalar qeyd olunur (III bölmədə), məktəbəqədər tərbiyə müəssisələrinin uşaqlarla komplektləşdirilməsi (IV bölmədə) və məktəbəqədər müəssisəsinin idarə olunması, ona rəhbərlik üzrə müddəalar müəyyən edilmişdir. Məktəbəqədər müəssisəsinin tərbiyə-təlim işləri sahəsində hüquq və vəzifələri,

maliyyə-təsərrüfat fəaliyyəti, əməyin təşkili və əmək haqqının ödənilməsi sahəsində məktəbəqədər müəssisənin hüquqları, məktəbəqədər müəssisənin yaradılması, yenidən təşkili və fəaliyyətinin dayandırılması, məktəbəqədər müəssisənin hüquqi müstəqilliyi yeni dövrün tələbləri baxımından əsaslandırılmışdır.

XX əsrin son illəri və XXI əsrin əvvəlləri tərbiyəçilərin hazırlığını, bu hazırlıqda xüsusi payı olan pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərinin işinin daha da təkmilləşdirilməsini, ölkəmizdə aparılan təhsil islahatını, yeniləşən təhsil sisteminin ən vacib məsələləri kimi qarşıya qoyur.

Təsadüfi deyil ki, Təhsil islahatı proqramı təhsil sistemində yüksək intellektual potensialı formalaşdıran, müasir tələbatı ödəməyə qadir olan kadr hazırlığı həyata keçirməyə imkan verən təşkilatı-iqtisadi mexanizmin qurulmasını və lazımi elmi-metodik bazanın yaradılmasını zəruri hesab edir.

Yeniləşən təhsil sistemində aparılan islahatın müvəffəqiyyəti yüksək ixtisaslı kadrların hazırlığından və bu sahədə aparılan işlərin keyfiyyətindən daha çox asılıdır. Kadr hazırlığında, gələcək tərbiyəçilərin peşə hazırlığında pedaqoji təcrübə həlledici mərhələdir. Müşahidələr göstərir ki, uşaq bağçasında təcrübə keçən tələbələr pedaqogika, psixologiya, metodika və ixtisas fənlərindən elementar məsələlərin həllində çətinlik çəkirlər. Onlar pedaqoji, psixoloji müşahidə apara bilmir, məşğələlərin təhlilində, tərbiyəvi tədbirlərin aparılmasında savadsızlıq nümayiş etdirirlər, mülahizələrini əsaslandıra bilmir, proqram və metodik vəsaitlərlə işləyə bilmir, gündəlik icmal tərtib etməkdə çətinlik çəkir. Bunun səbəblərindən biri ali və orta ixtisas məktəblərində bu istiqamətdə işlərin lazımi səviyyədə aparılmamasıdır.

Tələbələrə gələcəkdə lazımi bacarıq və vərdişlər aşılanmır, təcrübə keçirilən uşaq bağçasının maddi-texniki bazası, təchizatı da aşağı səviyyədə olur.

Tərbiyəçi kadrların yenidən hazırlanması məsələləri də bu günün tələbidir. Qeyd etmək lazımdır ki, kadrların yenidən hazırlanmasına yönəldilən mühazirələrin elmi-pedaqoji səviyyəsi ön plana çəkilir. Artıq bəsit, müasirlikdən uzaq, təhsil islahatının tələblərinə cavab verməyən mühazirə mətnləri müasir uşaq bağçası tərbiyəçilərinin tələbini qane edə bilməz. Tərbiyəçilərin yeni təlim texnologiyalarına

yiyələnmələrinə, yeni idarəetmə modelinin yaradılmasına və digər məsələlərin tərbiyəçilərə çatdırılmasına ehtiyac vardır. Yenidən hazırlanma kurslarında açıq dərslərin, onların video-kasetlərinin nümayiş etdirilməsi, qabaqcıl tərbiyəçilərin iş təcrübəsi, onlarla görüşlər təşkil edilməsi kadrların peşəkarlıq ixtisasının artırılmasında mühüm rol oynayır. Kompüterdən, internetdən istifadə edilməsi, yeni biliklərin verilməsində audiovizual vasitələrin tətbiqi tərbiyəçi kadrların öz peşəkarlıq səviyyəsini artırmasını tələb edir.

Orta ixtisas məktəbləri içərisində Bakı Məktəbəqədər Pedaqoji Məktəbinin kadr hazırlığı sahəsində böyük təcrübəsi vardır. Burada beş ixtisas üzrə mütəxəssislər hazırlanır: 1. Məktəbəqədər təhsilin pedaqogikası və metodikası; 2. İbtidai təhsil; 3. Loqopediya; 4. Xarici dil; 5. Karlarla sosial bərpa işinin təşkili.

Pedaqoji kollektiv təcrübəli müəllimləri və gənc yaradıcı qüvvələri özündə birləşdirərək tədris işini pedaqoji ustalıqla həyata keçirir. Təcrübənin öyrənilməsi göstərmişdir ki, təlim-tərbiyə prosesində müasir təlim texnologiyalarından, kompüter təlimindən istifadə olunur.

Dövrümüz müasir uşaqlara müasir yanaşma bacarığı olan pedaqoqlar tələb edir. Yeni pedaqoji təfəkkür dedikdə, böyüməkdə olan nəslin təlim-tərbiyə problemlərinə yeni, müasir nöqteyi-nəzərdən baxış, dünya təcrübəsinə əsaslanan yanaşma nəzərdə tutulur. Yeni pedaqoji təfəkkürə “innovasiya” da deyirlər, yəni yeni qayda ilə təlim. Elmi-pedaqoji ədəbiyyatda qeyd olunur ki, “yenilik” və “innovasiya” ayrı-ayrı məvhumlardır. Yenilik vasitədir, yəni yeni baxışlar, prinsiplər əsasında yaradılmış metod, metodika, texnologiya və s., innovasiya isə onu mənimsəmə prosesidir. Yeni pedaqoji təfəkkür hərəkatına əsasən məktəb və məktəbəqədər təhsil müəssisəsi rəhbərləri, müəllimlər və tərbiyəçilər cəlb olunmuşlar. Hərəkatın predmeti dərs, məşğələ və məktəbdənkənar idarəetmədir.

Uşaq bağçalarının təcrübəsinin öyrənilməsi göstərir ki, hazırda tərbiyəçilər interaktiv təlim texnologiyalarından geniş istifadə etməyə maraq göstərirlər. Lakin bunun mahiyyətini izah edə bilmirlər. “İnteraktiv” termini “dialoq”, qarşılıqlı əlaqədə fəaliyyət göstərmək kimi izah olunur: “Texnologiya” sözü isə S.A.Smirnovun “Pedaqogika, pedaqoji nəzəriyyələr, sistemlər, texnologiyalar” kitabında bu cür izah olunur: ““Texnologiya” anlayışını tələb olunan parametrlərlə

yeni biliklər almaq üçün ilkin materialların təkmilləşdirilməsi üzrə metod və proseslərin toplusu və ardıcıllığı kimi başa düşmək lazımdır”

**Mövzu 2.** Tərbiyə prosesinin səciyyəvi xüsusiyyətləri

**Plan :**

1. Tərbiyənin məzmunu
2. Tərbiyə, özünütərbiyə, yenidəntərbiyə anlayşlar
3. İslam dinində müqəddəslər uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında

Ədəbiyyat


1. Ağayev Ə.A. Fərhad Ağazadənin pedaqoji görüşləri, Bakı-1987.
2. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Bakı-2009.
3. Əhmədov H.M., Üzeyir Hacıbəyov müəllim və onun hazırlığı haqqında, “Azərbaycan məktəbi” jurnalı, 1985, №10, səh.35-60.
4. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, Bakı-2001.
5. Ələddin B. Məhəmməd Peyğəmbər (s)in hekayəti, Bakı-1991.
6. Füzuli M. Kəlamlar, Bakı-1990.
7. Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri, Bakı-1987.


1. Tərbiyə zamanı adamlara davranışla əlaqədar aşılanan milli və ümumbəşəri mənəvi dəyərlərin məcmuu tərbiyənin məzmununu təşkil edir. Bu cür mənəvi dəyərlər isə çoxdur. Məsələn, vətənpərvərlik tərbiyəsi zamanı adamlara aşılanan mənəvi keyfiyyətlər bunlardır: Azərbaycan Respublikasının ərazisi, uca dağları, müxtəlif ağaclı meşələri, gen dərələri, çayları, gölləri, çölləri, düzənləri, mədəniyyət və incəsənət inciləri, alimləri, sərkərdələri, böyük keçmişi, Vətən eşqi, vətən sevgisi, Vətənə qayğı. Vətənin daha da çiçəklənməsi üçün var qüvvəsi ilə çalışmaq, vətən naminə vuruşa hazır olmaq, tarixdə vətənpərvərlik nümunələri göstərmiş şəxsləri unutmamaq və s. vətənpərvərlik tərbiyəsinin 27 məzmununu təşkil edir. Tərbiyənin

məqsədi. Məqsədsiz aparılan tərbiyəni əslində tərbiyə adlandırmaq olmaz. Ümumiyyətlə məqsəd hər hansı işə, tədbirə, fəaliyyətə başlamazdan əvvəl adamın öz şüurunda yaratdığı, arzu etdiyi xəyali nəticədir. Tərbiyənin məqsədi isə tərbiyə işini həyata keçirməzdən əvvəl tərbiyəçinin şüurunda canlandırdığı xəyali nəticədir. Tərbiyə işinin məqsədi əvvəlcədən dəqiq ölçülüb-biçilməlidir. Tarixdən məlumdur ki, ictimai-iqtisadi quruluş dəyişdikcə tərbiyənin məqsədi də dəyişir. Məsələn, ibtidai-icma dövründə həyata keçirilən tərbiyənin məqsədi yaşlıların bacarıq və vərdişlərini gənc nəslə bilavasitə məişət əməyi zamanı, ov ovlarkən, balıq tutarkən, əkib-becərərkən aşılamaqdan ibarət olmuşdur. Yaxud, quldarlıq dövründə tərbiyə qulları itaətdə saxlamağa kömək edən fiziki və mənəvi keyfiyyətlərin qul sahiblərində formalaşdırılmasına xidmət etmişdir. SSRİ dövründə kommunizm cəmiyyəti qurmağa cəhd göstərilirdi ki, bu cəmiyyətdə tərbiyənin məqsədi hərtərəfli inkişaf etmiş kommunizm qurucuları yetişdirmək idi və s. Tərbiyənin vəzifələri. Tərbiyənin vəzifələri hər bir halda tərbiyə olunanların yaş xüsusiyyətləri, fərdi və cinsi xüsusiyyətləri nəzərə alınmaqla konkretləşir. Çünki eyni mənəvi keyfiyyət (məsələn, əməksevərlik) haqqında məlumat, anlayış, təsəvvürlərin və bununla əlaqədar olan əməli bacarıq və vərdişlərin səviyyəsi müxtəlif yaş dövrlərində olan, başqa-başqa ailələrdə boya-başa çatan şəxslərdə eyni olmur. Hər bir mənəvi keyfiyyətlə əlaqədar bu cür müxtəlif səviyyə nəzərə alınmaqla müəyyənləşdirilən yaxın tərbiyə vəzifəsi daha tez, daha konkret nəticə verir. Milli pedaqogikaya görə, təbiyənin uzaq, ali məqsədinə xidmət edən, habelə gənc nəsildə bu və ya digər milli və ümumbəşəri mənəvi dəyərin səviyyəsinə uyğun gələn yaxın, xəyali nəticə tərbiyənin vəzifəsidir. Tərbiyənin tərkib hissələri. Müasir dövrdə tərbiyənin bir sıra nisbi mənada tərkib hissələri formalaşaraq həyata vəsiqə qazanmışdır: dünyagörüşünün inkişaf etdirilməsi, əxlaq tərbiyəsi, əmək tərbiyəsi,ideya-siyasi tərbiyə, fiziki tərbiyə, estetik tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə, ekoloji tərbiyə, ağıl tərbiyəsi. Əxlaq tərbiyəsinin nümunəsində yuxarıda bildirdik ki, tərbiyənin hər bir tərkib 28 hissəsi xeyli mənəvi keyfiyyətlərin formalaşdırılmasını özündə ehtiva edir. Fikirlərimizi dünyagörüşü və ağıl tərbiyəsi ilə əlaqədar bir daha konkretləşdirək. Dünyagörüşünün formalaşdırılması ilə məşğul olan şəxs azı aşağıdakı mənəvi keyfiyyətlərdən hali

olmalıdır: 1) ümumi vahid baxışların nədən ibarət olduğunu bilməlidir; 2) bu cür baxışların həm təbiət hadisələrini, həm cəmiyyət hadisələrini, həm də təfəkkür hadisələrini əhatə etdiyini yadda saxlamalıdır; 3) bu hadisələri başa düşməkdə vahid baxışların adamlara yardımçı olduğunu, habelə həyatda onların keyfiyyətlərinə təsir göstərə biləcəyini diqqətdə saxlamalıdır və 4) bundan sonra həmin keyfiyyətlərin adamlarda formalaşmasına qayğı göstərməlidir. Ağıl tərbiyəsi ilə əlaqədar da belədir. Onun məzmununu təşkil edən mənəvi keyfiyyətlərlə əlaqədar müvafiq tərbiyəvi iş aparılır. Deyilənləri nəzərə alaraq tərbiyənin tərkib hissələri məfhumunun mahiyyətini açmaq mümkün olmuşdur: şəxsiyyətin strukturunda davranışla əlaqədar məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılan mənəvi dəyərlərin qruplarına tərbiyənin tərkib hissələri deyilir. Tərbiyənin növləri: Bu məfhum da pedaqogikaya ilk dəfə daxil edilir. Çətinlik dərəcəsinə görə pedaqogika tərbiyəni üç növə ayırır: ilkin tərbiyə, yenidəntərbiyə və özünütərbiyə. Ilkin tərbiyə: Tərbiyə işinin nisbətən asan növü ilkin tərbiyədir. Ilkin tərbiyə adamın erkən yaşlarından, anadan olduğu gündən başlayır. Uşaq boya-başa çatdıqca ata və ananın, qardaş və bacının, baba və nənənin, qohum və qonşuların, yaşıdların düşünərəkdən və ya düşünməyərəkdən ona göstərdikləri təsirlər nəticəsində formalaşmış mənəvi keyfiyyətlər ailə üçün, cəmiyyət üçün faydalı da, zərərli də ola bilər. Uşağın, yeniyetmə və gəncin şəxsiyyətində baş qaldıran mənəvi keyfiyyətlər valideynlər, müəllimlər və digər tərbiyəçilər tərəfindən ailə və cəmiyyət üçün faydalı hesab olunduqca ilkin tərbiyə davam edir. Formalaşan hər hansı mənəvi keyfiyyətin istiqaməti dəyişdikdə, ailə, məktəb və cəmiyyət üçün zərərli hesab edildikdə, valideyn, müəllim və ya digər tərbiyəçi narahat olmağa, başqa tərbiyəvi tədbirlər görməyə məcbur olur; bu cür hallarda yenidəntərbiyə başlayır. Tərbiyənin növlərinə yaş həddi qoymaq mümkün deyil. Çünki ailə mühitindən, valideynlərin ümumi mədəni səviyyəsindən, məktəb mühitindən, müəllimlərin münasibətlərindən, sosial-iqtisadi durumdan asılı olaraq bu və ya digər adamların ilkin tərbiyəsi uşaqlıq dövründə də, yeniyetməlik və ya gənclik dövründə də davam edə, yaxud xeyli əvvəl də başa çata və yenidəntərbiyə başlaya bilər. Bu iki prosesin eyni zamanda cərəyan etdiyi hallar da müşahidə olunur. Söylənilən fikirlərə əsaslanan pedaqogika elmi ilkin tərbiyəni belə başa düşür: davranışla əlaqədar olan, ailə və

cəmiyyət üçün faydalı hesab edilən milli və ümumbəşəri mənəvi keyfiyyətlərin gənc nəsildə məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılması ilkin tərbiyədir. Yenidəntərbiyə: Yenidəntərbiyə ilkin tərbiyəyə nisbətən xeyli çətindir. Çünki yenidəntərbiyə zamanı valideyn və ya müəllim, yaxud tərbiyə ilə məşğul olan digər şəxs kimi əsas istiqamətdə iş aparılmalı olur. O, bir tərəfdən şəxsin şüurunda həkk olunmuş yanlış əxlaqi və ya digər mənəvi keyfiyyətin yalnışlığını isbat etməli, onu inandırmalı və aradan qaldırmağa çalışmalı olur. Digər tərəfdən də o, dəf edilən qüsurlu xüsusiyyətin əvəzində ailə və cəmiyyət üçün faydalı olan keyfiyyətləri həmin şəxsə aşılamağa çalışır. Yanlış və zərərli mənəvi keyfiyyətlər şəxsin şüurundan davranışına keçirildikdə tərbiyəçinin işi daha da çətinləşir. Dünya şöhrətli alim N.Tusi hələ XIII əsrdə yazırdı ki, insanın tərbiyəsi yaşa dolduqdan, özünü anladığı vaxtdan deyil, hələ rüşeym halında olandan başlamalıdır. Rüşeym halında verilən tərbiyə hiss edilmir. Bəzən ata-ana bu işə laqeyddir. Lakin hər necə olursa olsun, buna diqqət verilməli və yeri gəldikcə insanın qəbul etdiyi təam da götür-qoy edilməlidir. Pedaqogikada yenidəntərbiyə məfhumu belə dəyərləndirilir: adamın şüurunda və ya davranışında kök salmış zərərli əlamətlərin məqsədyönlü, planlı və mütəşəkkil surətdə ləğvi və onların əvəzində ictimai əhəmiyyət kəsb edən milli və ümumbəşəri keyfiyyətlərin ona aşılanması yenidəntərbiyədir. Özünütərbiyə. Ilkin tərbiyəyə və yenidəntərbiyəyə nisbətən özünütərbiyə daha çətin, daha kamil, daha mürəkkəb prosesdir. Çünki əvvəla, ilkin tərbiyə və yenidəntərbiyədə də iki tərəfin (tərbiyəçinin və tərbiyəolunanların) iştirakı zəruri şərtdir. Hər iki halda uşaqlara yeniyetmə və gənclərə aşılanan mənəvi keyfiyyətlər 30 bilavasitə tərbiyəçilərin nəzarəti və rəhbərliyi ilə reallaşır. Özünütəbiyə zamanı isə uşaq, yeniyetmə və ya daha da yaşlı şəxs tərbiyəçinin nəzarəti və rəhbərliyi olmadan müstəqil, öz təşəbbüsü ilə zəruri saydığı mənəvi keyfiyyətləri mənimsəyir. Deməli, tərbiyəçinin bilavasitə nəzarəti olmadan, lakin onların məsləhətlərinə əsasən şəxsin cəmiyyət üçün faydalı keyfiyyətləri məqsədyönlü və planlı surətdə mənimsəməsi özünütərbiyədir. N.Tusinin, K.D.Uşinskinin, L.Tolstoyun və başqalarının özünütərbiyə nümunələri tarixdən məlumdur. Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türkislam dünyasının mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim

sakinləri olan azərbaycanlılar hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə malik olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zamanzaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də zəmanəmizə gəlib çıxmamışdır.

3.Məlumdur ki, müsəlman dünyasının peyğəmbəri Məhəmməd Əleyhissəlam və Şərqin böyük irs qoyub getmiş mütəfəkkirlərinin tərbiyə - uşaq tərbiyəsi haqqında fikirləri, müddəaları və nəzəriyyələri daim tədqiq edilmiş, öyrənilmiş, öyrənilir və daim öyrənməyə layiqdir. Uşaqlarda humanist keyfiyyətlərin formalaşdırılması elə bir yüksək əxlaqi borc, vəzifədir ki, bütün dövrlərin zəka, fikir sahibləri, mütəfəkkirlər ona biganə qalmamış və onu yüksək fəzilətlərdən biri kimi qiymətləndirmişlər. Müsəlmanların müqəddəs Kitabı olan "Qurani Kərim"də və Məhəmməd peyğəmbərin (570-632) müqəddəs kəlamları içərisində insanların bir-birinə qarşı mərhəmətli olmaları, nəzakətlə rəftar etmələri, valideynlərə hörmət etmələri, balaca uşaqlara məhəbbət bəsləmələri dönə-dönə tövsiyə edilir: "Balaca uşaqlara məhəbbət bəsləməyən, qocaların hörmətini saxlamayan, həmçinin faydalı iş görməyən, pis əməllərə qurşanan kəs bizdən deyildir"; "Bir-birinizi xoşlamayınca imanınız olmayacaq"; "Qonşusunun aclığından xəbərdar olan, lakin təkcə öz qarnını doyuran şəxs həqiqi müsəlman deyil"; "heç vaxt deməyin ki, xalq bizə yaxşılıq etdiyi halda biz də onlara yaxşılıq edərik və eləcə də bizə zülm etdiyi təqdirdə biz də zülm edərik. Bəlkə etiqadınız olsun ki, sizə yaxşılıq edildiyi vaxt, siz də yaxşılıq edin. Əgər sizə zülm olunarsa, siz onlara zülm etməkdən çəkinin"; "heç kəs gərək başqasını incitməsin"- kimi müqəddəs kəlamlar sahibi Məhəmməd peyğəmbər insansevərliyi, humanistliyi insanlara buyurmuş və onları yüksək əxlaqi keyfiyyətlər hesab etmişdir (30. Səh.32, 39). Uşaqlarda xeyirxahlıq və humanist keyfiyyətlərin tərbiyə edilməsi və ümumiyyətlə humanistlik istər mütərəqqi Şərq fəlsəfi fikrində, istərsə də Qərb fəlsəfəsində özünə geniş yer tapmış əxlaqi keyfiyyətlərdən biridir. Məhəmməd Peyğəmbərin (ə.s.) həyatı ən güclü tərbiyə məktəbidir. Çünki "Məhəmməddə Adəmin

dürüst əxlaqı, Asəfin dərin zəkası, Nuhun ağlasığmaz cəsarəti, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Yaqubun müəammaları dərk etmək məharəti, Yusifin misilsiz gözəlliyi, Musanın sarsılmaz dəyanəti, İsanın dönməz iradəsi, Davudun təmannasız xeyirxahlığı toplanmışdır. Peyğəmbərin kəlamlarını gənc nəslin tərbiyəsi baxımından məzmun və qayəsinə görə aşağıdakı kimi təsnif etmək olar: 51 1. Yer üzünün bütün canlılarına, canlı varlıqların əşrəfi və tacı olan insanlara qayğı və məhəbbət; 2. Torpağa, doğma yurda, əməyə, əmək adamlarına, xalqa dərin məhəbbət; 3. Haqqı, ədaləti qorumaq, xeyirxahlıq, elm öyrənmək, elmin faydasını dərk edib, onu xalqın xidmətinə vermək; 4. Ümumbəşəri norma və əxlaq qaydalarını qoruyub təkmilləşdirmək; böyüyə, ata-anaya hörmət etmək, nəzakətli olmaq, əmanətə xəyanət etməmək, insani hissləri təcəssüm etdirmək; 5. Qadınlara hörmət və ehtiramla yanaşmaq, təmiz, pak olmaq və s. Peyğəmbərin kəlamları sırasında insana, canlılara, təbiətə qayğı mühüm yer tutur, yer üzündə hərəkət edən nə varsa, hamısına mehribanlıq göstərmək lazımdır. Mövcud olduğu on minillər ərzində bir hörümçək yarada bilməyən insanlar təbiətə, onun canlılarına mərhəmətli olmalı, bir-birinə kömək etməli, qayğı göstərməlidirlər. Peyğəmbərlər haqlı olaraq bunu deyirdi ki, necə uşaqlar doğulması heç kəsdən asılı deyildir. Lakin onların yaxşı adamlar kimi böyümələri bizim verdiyimiz düzgün tərbiyədən asılıdır. Heç kim dünyaya vəhşi və ya mələk kimi gəlmir. Onun insan olması, necə yaşaması tərbiyədən asılıdır. Buna görə də peyğəmbərlər kiçik yaşlarından uşaqları düzgün tərbiyə etməyi, onlarda həya hissinin tərbiyə olunmasını zəruri sayır və deyirdi ki, insan övladı yalnız həyat sayəsində insan olur. Insan həyalı olmalıdır. Çünki həya nəcibliyin əsasıdır, həya və iman bir beşikdə iki körpə kimidir, həya bəzəkdir. Adamlarda üç gözəl keyfiyyəti həya, etibar, düzlük gördünüzmü, onlardan bərk yapışın, onlardan öyrənin. Ən yüksək fəzilət mehribanlıqdır. Mehribanlıq iman nişanəsidir. Mehriban olmayan insan imansızdır. Peyğəmbər adamları acgözlüyə, tamahkarlığa, həsədə qarşı mübarizə aparmağı çağırır və deyirdi ki, tamahkarlıq yoxsulluğa aparan yoldur. Başqasına həsəd aparmaq qəbahətdir. Nəfs və tamah ən böyük düşməndir. Atəş yeri-göyü yandırdığı kimi həsəd də yaxşılıqları yandırıb, kül edir. Kin və həsəd çatılan tonqalı külə döndərən atəşə bənzəyir, bütün yaxşılıqları puç edir. Dünyada savaş, döyüş

çoxdur. Lakin ən böyük döyüş insanın özü ilə döyüşüdür. Dünyada ən böyük qələbə insanın öz nəfsi, arzusu və həvəsi üzərindəki qələbədir. Peyğəmbər uşaqlara qayğı göstərməyi tələb edirdi. O deyirdi ki, kiçik uşağın 52 ağlamasını eşidəndə namazı dayandırın. Uşaq olmayan evdə bərəkət olmaz, hər ağacın öz meyvəsi var, qəlbin də meyvəsi övladdır. Bu meyvənin – övladın qayğısına qalmaq, ona yaxşı tərbiyə vermək ata-ananın borcudur. Üç mühüm keyfiyyətin – zəiflərlə xoşrəftar, ata-ananı sayan, kölələrə qarşı mərhəmətli olan şəxs cənnətlikdir. Həzrəti Əli (598-661) islamın ikinci böyük şəxsiyyəti hesab olunur. O, 598-ci ildə Məkkədə Məhəmməd Peyğəmbərin (ə.s.) əmisi Əbu Talibin ailəsində anadan olmuşdur. Əli (ə) islam dinini ilk qəbul edənlərdən olmuş, "İslamın qılıncı" adını qazanmışdır. Əbu Bəkir, Ömər və Osmandan sonra xəlifə (656-661) seçilmişdir. Suriya valisi Müaviyə ilə müharibədə müvəffəqiyyətsizliyi nəticəsində tərəfdarları olan şiələr arasında parçalanma baş vermişdir. 661-ci ildə Əli (ə) sui-qəsd nəticəsində məsciddə namaz qılarkən zəhərli qılıncla qətlə yetirilmiş, Nəcəf şəhərində dəfn olunmuşdur. Həyat yoldaşı Fatimə gənc yaşlarında ikən vəfat etmiş, oğlanları Həsən və Hüseyn, nəvə və nəticələri amansızlıqla öldürülmüşdür. Əli (ə) dünya qəhrəmanlıq, ədəbiyyat və fəlsəfə tarixinə ancaq qəhrəman sərkərdə və xəlifə, inam və əqidə adamı kimi deyil, yüzlərlə dərin mənalı, zərif ruhlu şerlər, qitələr, aforizmlər, risalələr müəllifi kimi daxil olmuşdur. "Nəhcül-Bəlağə" kitabı onun islamın müdafiəçisi və carçısı olmaqla bərabər, həm də dövrün görkəmli siyasət adamı, dərin təfəkkür, sağlam və işıqlı düşüncə sahibi, yüksək mənəvi keyfiyyətlər daşıyıcısı olmasına dəlalət edir. Həzrət Əli (ə)nin zəngin irsində həm uşaqların, həm də böyüklərin təlimtərbiyə və təhsili məsələləri geniş yer tutur. Onun tərbiyə ilə bağlı fikirlərində məqsəd insanı müdrikləşdirmək, ruhunu paklaşdırmaq, əxlaqını kamilləşdirmək, davranış və əməllərini salehləşdirməkdir. Bunun üçün insan özünü və Allahını dərk etməli, hər şeyə iman gözü ilə yanaşmalıdır. Əli (ə) uşağın fiziki və ruhi inkişafında ana südünün böyük təsir gücünə malik olduğunu bilirdi. Ana südü uşaqda qorxusuzluq, təhlükəsizlik və rahatlıq yaratmaqla yanaşı uşaqla ana arasında məhəbbət tellərini möhkəmləndirir. Əli (ə) demişdir: "Baxın, övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadını dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir"

(48,151). Ana südünün uşağın ruhi və psixoloji vəziyyətinə müsbət təsirini əsaslandıran 53 Əli (ə) bir il doqquz aydan az müddətə uşağa süd verilməsini ona zülm etmək hesab etmişdir. Əli (ə) uşaqların yaş dövrlərini Aristotel və Məhəmməd Peyğəmbər (ə.s.) kimi yeddi-yeddi olmaqlaüç dövrə bölmüş, hər bir mərhələdə tərbiyənin məzmununu açıqlamışdır: uşağı yeddi il azad buraxın, yeddi il ədəb və tərbiyə öyrədin, yeddi il isə işlədin. Məhəmməd Peyğəmbərin (ə.s.) "Atanın övladına öyrətdiyi ən yaxşı şey ədəbdir" – fikrini Əli (ə) daha qüvvətləndirərək yazırdı: "Ata övladına yaxşı ad qoymalı, onun ədəb və əxlaqını gözəlləşdirməli, "Quran"ı öyrətməlidir" (48,151). Yaxşı tərbiyə verməyi, təlim yolu ilə onlara ədəb, əxlaq öyrətməyi valideynlərin əsas vəzifələrindən biri hesab edirdi. Verməsə övlada ana tərbiyət, Onda qalar daimə heyvaniyət. Olmasa fərzəndə ata çün kəfil, Daim o fərzənd olacaqdır zəlil. O, yetim uşaqların tərbiyəsini unutmamağı tövsiyə edirdi (Yetim uşağı öz övladını tərbiyələndirdiyin kim tərbiyə et). Özü övladlarına çıxış etməyi, nitq söyləməyi öyrədir. Uşaqları itaət və ibadət etməyə alışdırmaqda tənbeh etməkdən və rəğbətləndirməkdən düzgün istifadə etməyi məsləhət bilirdi: "Evindəki kiçik uşaqlara dilinlə namaz və paklığı təlim et, elə ki, on yaşlarına çatdılar tənbeh et, lakin üç dəfədən artıq olmasın. Danlamağı ifrat həddinə çatdırmaq, inadkarlıq odunu artırır". Əli (ə) uşaqları sevməklə yanaşı onlara qarşı tələbkar olmağı tələb edirdi: "Tərbiyə ağacı yumşaq olanın övlad və təbbəələri tərbiyəsiz olar".

Nizaminin əsərlərində antik dövrün filosofu Aristotelin bölgüsü ilə səsləşən fikirlər də diqqəti cəlb edir. Bunu oğlu Məhəmmədə yazdığı nəsihətlərdən aydın görürük. Birinci nəsihət yazılanda oğlu Məhəmmədin 7 yaşı, ikinci nəsihət yazılanda 58 14 yaşı, üçüncü nəsihət yazılanda 21 yaşı vardı. Hər yaş bölgüsündə o, oğluna yaşa uyğun işlər görməyi məsləhət görürdü. Nizami təlimə 7 yaşdan başlamağı tövsiyə edir. Bu yaşda uşağa əslinə görə hörmət edirlər. 7 yaşına qədər uşaqların qayğısına qalmağı, onlarda gözəl keyfiyyətlər tərbiyə etməyi zəruri sayırdı. Erkən yaşdan uşağı elə böyütmək lazımdır ki, atasına layiq övlaq olsun:

Uşaqkən əslini sorsalar bir az
Ağac bar verəndə cinsi sorulmaz.
7 yaşlı balam, gözümün nuru,

Ey dilim əzbəri, qəlbim qüruru.

Bu Hilal dövründə gəl eyləmə qəm.

Bədr olan zamanda gözəl Hilalın,

Göyə nur saçacaq sənin kamalın.

Biliyə raqib ol, dünyanı qazan.

Vaxtı boş keçirmə, qələm al ələ,

Elə namuslu ol, desin hər görən,

Ağıllı oğluna Nizami əhsən.

Deyən Nizami oğlunun gələcəyinə böyük ümid bəsləyir. Ikinci nəsihətində, insanın elmlə ucaldığına işarə edir:

Ucalmaq istəsən bir kamala çat,

Kamala ehtiram göstərər həyat. Üçüncü nəsihətində oğlunun əxlaqı məsələlərinə diqqət yetirir. Oğlundan xalqa fayda verməyi, əsl kişi olmağı, yaxşı dost tapmağı məsləhət görür:

Bir dostun olsa da eyibli əgər,

Yüzünün adına ləkə gətirər.

Hünər ardınca qaç, xalqa hünər saç,

Qapılar bağlama, ər ol, qapı aç.

Hər kim öyrənməyi bilməyirsə ar,

Sudan dürr, daşdan gövhər çıxarar.

Artıq 5 yaş olanda uşaq hər şeyi dərk edir, yaxşını pisdən seçir. Gördüyü hər şeydən ibrət götürür. 6 yaşda ətrafı dərk edir. 7 yaşa çatanda ona müəllim tuturlar ki, ona dərs desin. Lakin 9 yaşa kimi oynamaq olar. Bundan sonra ciddi iş başlayır. Nizami elmə, biliyə yüksək qiymət verir. Insan elmlə ucalır. Sən çalış yaxşıca öyrən dünyanı, bəşəri, bitkini, daşı, heyvanı deyəndə, dünyəvi fənlərin öyrənilməsini nəzərdə tutur. O, insanı yer üzünün əşrəfi hesab edirmiş. Bu əşrəfin yetişməsində irsiyyətlə yanaşı ictimai mühitin, tərbiyənin rolunu yüksək qiymətləndirmişdi.

Şahana tərbiyə, hünər, nəzakət,

Ağıla nur verər, ürəyə qüvvət.

Gəncləri ata şöhrətinə arxalanmamağa, zəhmət çəkməyə, elm öyrənməyə, əməklə məşğul olmağa çağırır. Ata müəyyən vaxta qədər övladına kömək edə bilər.

**Sədi Şirazi (1189-1291**) yardıcılığında insan şəxsiyyətinin formalaşmasına təsir edən amillər – irsiyyət, tərbiyə və mühit eyni dərəcədə dəyərləndirilir, hər üçünün də həlledici olmasının qənaətinə gəlinir. O, ayrı-ayrı hekayətlərdə və şer parçalarında hər üçünün fəzilətlərindən bəhs edir. Şərq klassikləri kimi o da hər şeydən öncə şəxsiyyətin təşəkkülündə irsiyyəti aparıcı amil kimi tərənnüm edir:

Heç seyqəl götürməz zatı pis dəmir,

Nə qədər çalışsan bədgöhər olar.

Və yaxud o belə bir maraqlı əhvalatı təsvir edir: Bir dəstə quldur dağ başında məskən salıb, gəlib-gedən karvana hücum edir, onların var-yoxlarını alırdı. Ona görə yerli adamlar onları tutmağı qərara alırlar. Onlar pusqu təşkil edir və quldurları əsir alırlar. Şah quldurların hamısını öldürməyi əmr edir. Onların sırasında gənc bir oğlan da vardı. O, çox gözəl idi. Vəzirlərdən birinin ona rəhmi gəldi və onun bağışlanmasını xahiş etdi. Vəzirin sözündən xoşlanmayanb  şah dedi:

Yaxşı ibrət götürməz, zatı bəd, nacins olan

Necə ki, günbəz başında qoz dayanmaz heç zaman. Belə yaramazların kökünü kəsmək lazımdır. Odu söndürüb, qorunu saxlamaq, əfini öldürüb balasına rəhm etmək ağıllı iş deyildir. Vəzir şahın dediklərini təsdiq edib deyir ki, onun buyuruqları həqiqətdir. Lakin oğlanı yaxşı tərbiyə etsək o düzələr. Şah oğlanın günahından keçdi və dedi: - Məsləhət bilmirəm, lakin bağışlayıram. Oğlanı bir müəllimə verdilər. Vəzir oğlanı şaha təriflədikcə hökmdar vəzirin sözünə gülümsəyib deyirdi:

Insanla qalmağa etsə də adət,

Qurd oğlu qurd olar yenə nəhayət. Bu hadisədən bir neçə il keçdi. Oğlan bir dəstə dələduzlarla dostlaşıb, onlarla yoldaşlıq edir. Bir gün fürsət tapıb, həmin vəziri, onun iki oğlunu öldürüb dağlara qaçır. Şah bunu eşidib təəssüflənir və deyir:

Iti şəmşir olmaz paslı dəmirdən,

Gözləmə nakəsdən adamlığı sən,

Yağışla sulansa bağ da, şoran da,

Bağda lalə bitər, şoranda tikan. Göründüyü kimi o, burada irsiyyəti əsas götürür. Bəzi rübailərində isə əqli qabiliyyətlərin inkişafında tərbiyəyə üstünlük verir. Insan şəxsiyyətinin formalaşmasında onun özünün fəal iştirakını zəruri hesab edən Sədi əqli tərbiyə altında biliklərə yiyələnməyi, onları praktikaya tətbiq etməyi və əqli qabiliyyətləri inkişaf etdirməyi nəzərdə tuturdu. O, biliyin həyatı əhəmiyyətini göstərməyə çalışır və qeyd edirdi ki, kim biliklərə yiyələnərsə, ağıllı, xeyirxah, gözəl davranışa malik olar. Ona görə də uşaqların tərbiyəsinə kiçik yaşdan başlamaq lazımdır:

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu, istəsən hər şəklə salarsan,
Od qurudub düzəldər o çubuğu nəhayət.

**Mövzu 3. Məktəbəqədər təhsil müəssisələrində kurikulumun həyata keçirilməsi məsələləri.**

Plan:

1. Məktəbəqədər kurikulumda əsas anlayışların şərhi,
2. Məktəbəqədər təhsildə inkişaf sahələri
3. İnkişaf sahələrinin inteqrasiyası
4. Uşaqların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin dəyərləndirilməsi

**Ədəbiyyat**

1. Abbasov Ə., Əhmədov A. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2

2. Altıyaşlıların məktəbə hazırlanması mühüm problemdir. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1984, №2. L.Ş.Bağırova.

3. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu il. http://www.edu.gov.az/

4. Y.Ş.Kərimov. Uşağın məktəbə hazırlanmasının ümumpedaqoji məsələləri. «Altı yaşlı uşaqların məktəbə hazırlanması» kitabı, «Maarif» nəşriyyatı, B., 1980

5. Куррикулум по воспитанию детей раннего и дошкольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогических наук. – Ch. : S. n., 2007 (Combinatul Polig.). – 108 стр

6. Early Learning Standards, Illinois State Board of Education, 2002. 116

1. *Məktəbəqədər təhsil* - məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən, ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin formalaşdırılması prosesidir.

*Məktəbəqədər təhsilin kurikulumu* - təlim nəticələri və məzmun standartlarını, inkişaf sahələrini, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən konseptual dövlət sənədidir

*Məktəbəqədər təhsilin dövlət standartı* - uşaqların, ailənin, cəmiyyətin tələbatına uyğun olaraq, elmi-pedoqoji prinsiplər əsasında hazırlanan, ölkədə məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinə xidmət edən ümumi normalar məcmusudur.

*Təlim nəticəsi* - müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

*Məzmun standartı* - dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduğu dövlət tələbidir.

1. İnkişaf sahəsi –dəyişməzdir.

1.1 əsas standart - əsasən dəyişməzdir

1.1.1 alt standart – daim dəyişir.

Standartlar bütün yaş qrupları üçün eyni, alt standartlar isə hər yaş qrupuna müvafiq olaraq, dəyişilir. Alt standarlar əsas standartlarda ifadə olunmuş fikrin müəyyən hissəsidir. Hər yaş qrupuna uyğun olaraq, alt standartlar inkişaf dinamikası üzrə tədricən mürəkkəbləşir. Hər bir standart bilik və fəaliyyətdən ibarətdir. Burada məzmun uşaqların nə öyrənəcəyini, yəni bilik hissəsini, fəaliyyət isə uşağın öyrəndiyini necə nümayiş etdirəcəyini bildirir. Məsələn, bir standarta nəzər salaq:

St. 2.3.1.Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;

*Burada üç dairəsində riyazi əməliyyatlar* bilik, *yerinə yetirir* – isə fəaliyyət hissəsidir. Deməli, məzmun standartları birtərəfli deyildir, o, bilik hissəsinin təcrübədə tədqiq olunaraq bacarığa çevrilməsini təmin edir.

*İnkişaf sahələri* - inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

*Təlim strategiyası* - təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

*Təhsildə inteqrasiya* - təlimin məzmun komponentlərinin əlaqələndirilməsini təmin edən didaktik prinsipdir.

*Məktəbəqədər təhsildə qiymətləndirmə* - məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesidir

*Uşaq nailiyyətləri* – təlim zamanı uşaqların qazandıqları dəyərlərdir.

*Dəyərlər*- şəxsiyyəti şərtləndirən keyfiyyətlərdir.

Təlim - tərbiyəçi tərəfindən təşkil olunmuş pedaqoji prosesdir. Həmin proses zamanı uşaqlar tərbiyəçinin rəhbərliyi altında bir sıra elementar, dəqiq bilik, bacarıq və vərdişlıərə yiyələnirlər. Təlim prosesində uşaqlarda əxlaqi, iradi və estetik keyfiyyətlər tərbiyə olunur və tədricən əmək qabiliyyəti formalaşır.

Təlimin əsasını uşaqların dərketmə fəaliyyəti təşkil edir. Təlim prosesi uşaqların müşahidəsi üçün əlverişli olan əşyaların və hadisələrin, onların keyfiyyətlərinin dərk edilməsi üzərində qurulur. Uşaqlar əşyanı və ya hadisəni onun xassələri ilə birlikdə qavrayır. Uşağın süuru yeni biliklərlə zənginləşir. Uşaqlarda vətəninə, xalqına, digər ölkələrin xalqlarına məhəbbət, əməksevərlik. ictimai davranış vərdişləri tərbiyə edirlər.

2. Məktəbəqədər təhsilin məzmunu keyfiyyətli məktəbəqədər təhsil almağa imkan verir. Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətləri ondan ibarətdir ki, onların nailiyyətləri bilik, bacarıq və vərdişlərin konkret sayı ilə deyil, şəxsi keyfiyyətləri, o cümlədən uşağın məktəbə psixoloji hazırlığını təmin edən səriştələri ilə müəyyənləşir.Yeni məzmuna görə məktəbəqədər müəssisələrdə köhnə

təlim modelindən imtina zəruridir. Standartlar pedaqoji prosesdə tərbiyəçi-müəllimlərdən yeni iş formalarına müraciət etməyi tələb edir. Qeyd etmək lazımdır ki, standartlar uşaqların təlim yükünün azaldılmasına istiqamətlənmişdir. Hər bir uşağa fərdi yanaşma nəzərdə tutulmuş, uşaqların inkişafı üzrə vəzifələrin 4 inkişaf sahəsi üzrə: Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, İdrak, Estetik və yaradıcı, Sosial-emosional üzrə inkişafının həyata keçirilməsi müəyyənləşdirilmişdir. Təqdim edilən məzmun uşaqlarda təlimə, yaradıcılığa və dərketməyə maraq yaranmasına istiqamətlənmişdir.

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**. Məktəbəqədər dövrdə sağlamlığın, hərtərəfli hərəki hazırlığın və ahəngdar fiziki inkişafın əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki tərbiyə yaxşı bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların və uşaq orqanizminin fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi sanitar-gigiyenik qulluğun təminatı, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi – hava, günəş və sudan geniş istifadə olunması, rasional qidalanma, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və hərəkət aktivliyinin təmin olunması uşaqların sağlam həyat tərzi keçirmələrini təmin edir. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşaqların hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması, bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, onlarda uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur. Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı vəziyyətdən çıxmaq qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır. **İdrakın inkişafı**. Uşağın idrakı inkişafı mürəkkəb prosesdir. Onun öz istiqamətləri, qanunauyğunluğu və xüsusiyyətləri var. İdraki inkişafın məqsədi idraki maraqların, uşağın tələbat və bacarıqlarının, onun emosional-hissi təcrübə əsasında müstəqil axtarıcılıq

fəaliyyətinin formalaşdırılmasıdır. Bununla yanaşı, sensor, nitq inkişafı, idraki qabiliyyətlərin (müqayisə etməyi, fərqləndirməyi, ümumiləşdirməyi bacarmaq), ətraf aləm haqqında ilkin təsəvvürlərin və anlayışların, əşyavi fəaliyyətin, dərketmə tələblərinin formalaşdırılmasının (informasiya almaqda tələb, təlim zamanı fəallıq, ətraf aləmin dərk edilməsində müstəqillik) bünövrəsinin bu dövrdə qoyulmasıdır. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə etmək, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək kimi qabiliyyətlər nümayiş etdirirlər. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, təhlil və tərkib, təsnifetmə və sistemləşdirmə, ümumiləşdirmə kimi mühakimə qabiliyyətlər inkişaf edir. Tənqidi, məntiqi, yaradıcı təfəkkürün inkişafını təmin edir.

**Estetik və yaradıcı inkişaf**. Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı və uşaq musiqi alətlərində ifa, rəqs məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır. Yaradıcı əməli fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları, digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Estetik tərbiyə həmçinin, təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə gözəlliyi görmək bacarığını və yaradıcı

qabiliyyətlərin formalaşmasına (musiqi duyumu, təsviri fəaliyyət) imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur.

**Sosial-emosional inkişaf**. Uşaq üçün erkən yaş dövrü davamlı olmayan emosional əhvali-ruhiyyə, emosiyaların yaranması, həssaslığı ilə səciyyələnir. Bütün bunlar uşaqlarla psixoloji işin əsas istiqamətlərini - uşağın həyatının emosionallığı və onun tənzimlənməsinə köməyi müəyyən edir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət,xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Bu dövrdə uşaqların böyüklərlə və yaşıdları ilə ilkin qarşılıqlı fəaliyyətinin müxtəlif formaları yaranır. Ünsiyyətin köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Beləliklə, ünsiyyət uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

3. İnkişaf sahələrinin inteqrasiyası

Məktəbəqədər təhsildə inteqrasiya məktəbəqədər yaşlı uşaqların təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləriarasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. Uşaq nə qədər kiçikdirsə, onun inkişafı da daha az differensial olur. Təlim vəzifələri o zaman daha səmərəli həll olunur ki, müəllim təlim-tərbiyə prosesinin təşkilində inteqrativ yanaşmadan daha məqsədyönlü istifadə edir.

İnkişaf sahələrinin inteqrasiyasını fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsi nümunəsində izah edək. Inteqrasiya prinsipinə əsasən bu inkişaf sahəsi təkcə idman məşğələsində, gimnastikada, idman oyunlarında deyil, bütün uşaq fəaliyyətində həyata keçirilir. Müəllim inkişaf və təlim prosesini elə təşkil etməlidirki,

bütün fəaliyyət növlərində uşaqlardan daha çox hərəki fəallıq tələb edilsin. Belə yanaşma nəinki təkcə fiziki inkişafı stimullaşdırır, həm də digər vəzifələrin daha uğurlu həllinə kömək edir. Digər tərəfdən bir inkişaf sahəsi üzrə təşkil edilmiş prosesdə digər inkişaf sahələrinin vəzifələrinin həllinə də diqqət yetirmək lazımdır:

-hərəkətli və idman oyunları zamanı təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması;

-idman məşğələlərində mənəvi keyfiyyətlərin (cəsurluğun elementlərinin genişləndirilməsi,

biri-birinə kömək etmək, özünün və yoldaşlarının hərəkətini qiymətləndirmək və s.) inkişafı üçün pedaqoji situasiya yaratmaq;

- idman avadanlıqlarının yığışdırılmasına uşaqların cəlb edilməsi;

-uşaq təfəkkürünün fəallaşdırılması (oyunu, avadanlığı, oyuncağı və s.müstəqil seçmək, məkana bələdləşmə üçün xüsusi tapşırıqlar, böyüklərin əməyini, heyvanların hərəkətini imitasiya etməklə ətraf aləm haqqında təsəvvürlərin möhkəmləndirilməsi və s. vasitəsilə);

-hərəki fəallıq prosesində hərəkət və tapşırıqların adlandırılması ilə fəal nitqin genişləndirilməsi;

-şeir, saymaca, nəğmələrin oyun və tapşırıqlarla müşayət olunması;

-uşaqların diqqətinin estetik cəhətdən yoldaşlarının, müəllimin xarici görünüşünə, müəssisənin tərtibatına yönəltmək və s;

Analoji olaraq, inteqrativ yanaşma 4 inkişaf sahəsi üzrə vəzifələrin realizə olunması zamanı

nəzərə alınmalıdır.

Məktəbəqədər təhsilin kurikulumu hazırlanarkən inteqrativlik əsas prinsip kimi götürülmüşdür. Sənəddə məktəbəqədər inkişaf sahələri arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin yaş qrupuna uyğun inkişaf etdirilməsi mühüm pedaqoji tələb kimi qoyulmuş və inteqrasiya yaş pillələri, inkişaf sahələri arasında qarşılıqlı əlaqə və asılılığın əsasına gətirilmişdir. Nəzərə alınmışdır ki, uşaqlar inteqrativ bacarıqlara yiyələnməklə öyrəndikləri arasında

qarşılıqlı əlaqəni başa düşəcək, onlardan şəxsi və ictimai problemlərin həllində istifadə edəcəklər.

4.Tərbiyəçi təlim və tərbiyəni elə həyata keçirməlidir ki, uşaqlar müəyyən bilik və bacarıqları qavrayarkən onları öz fəaliyyətlərinə tətbiq edə bilsinlər. məsələn , tərbiyəçi uşaqlara toxumdan bitki yetişdirilməsi üçün nə etmək və necə etmək lazım gəldiyini izah edir və göstərir. Sonra uşaqlar tərbiyəçinin nəzarəti altında torpağı hazırlayır, toxum səpir, suvarır və sonradan cücərtinin, gövdənin, yarpaqların və güllərin necə əmələ gəlməsini izləyirlər. Yaxşı təşkil olunmuş təlim nəinki biliyinin zənginləşməsinə, diqqət , təfəkkür və nitqin tərbiyəsinə, həm də onlarda tapşırığı yerinə yetirərkən rast gəldikləri çətinlikləri müstəqil surətdə aradan qaldırmaq qabiliyyətinin formalaşmasına kömək edir. Çətinliklərin aradan qaldırılması, uşaqların öz fəaliyyətinin yaxşı nəticəsinin görmək qabiliyyəti onlarda şən emosiyalar, estetik hisslər doğurur və iradi keyfiyyətlər tərbiyə edir.

3-6 yaşlı uşaqlarla işləyən müəllim uşağın inkişaf və təliminə yönəlmiş, tələblərə tam cavab verən strategiyaları seçməkdə sərbəstdir. Fərdi xüsusiyyətlərə riayət etmə, hər bir uşağın inkişaf və təliminin xüsusi ritmi və hər bir uşağın potensialından istifadə əsas tələblərdəndir. Müəllimlər tərəfindən seçilən strategiyalar kurikulumun prinsiplərinə söykənməlidir. Uşaq bağçasında məktəbəhazırlıq işində təlimin prinsipləri aşağıdakılardır:

*Şəxsiyyətyönümlülük.* Şəxsiyyətyönümlülük uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. Həyatda lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmununda və həyata keçirilməsində onun nəzərə alınması vacib hesab edilir.

*Differensiallaşdırma və fərdiləşdirmə.* Bu prinsip uşaqların fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını, fiziki və əqli inkişaf səviyyələrini, psixo-fizioloji xüsusiyyətlərini nəzərə almağı, onların təliminin bu xüsisiyyətlər əsasında təşkil olunmasını tələb edir.

*İdrak fəallığı.* Idrak fəallığı məktəbəqədər təhsil materiallarının koqnitiv xarakter daşımasına, onun fəal təlim şəraitində reallaşdırılmasına imkan yaradır,

uşaqlarda hər hansı problemin həlli tələbatını, onlarda idrak proseslərinin fəallaşdırılmasını gücləndirir.

*Əyanilik*. Bu prinsip məktəbəqədər təhsil müəssisələrində uşaqların öyrənməyə olan marağını stimullaşdırır, öyrəndiklərinin daha keyfiyyətli mənimsənilməsinə şərait yaradır.

*Əməkdaşlıq*. "Tərbiyəçi-müəllim-uşaq və valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunmasını nəzərdə tutur.

*Nəticəyönümlülük*. Bu prinsip fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasını tələb edir.

3. Məktəb təliminə hazırlıqda forma və üsulları. İş formaları dedikdə ***kollektiv, qruplarla, cütlərlə, və fərdi iş*** nəzərdə tutulur.

*Kollektiv iş* zamanı kollektivdə işləmək, birgə fəaliyyət göstərmək və kommunikativ bacarıqların inkişafı təmin edilir.

*Qruplarla iş (3-4 nəfər*) zamanı uşaqlar kiçik qruplarda birləşir, işin gedişində əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyə cəlb olunurlar. Bu zaman uşaqlar müstəqil fikir söyləmək, digərlərini dinləmək imkanı əldə edirlər.

*Cütlərlə iş* zamanı uşaqların hər hansı problemin həllində biri-birinə köməklik göstərmələrinə, əməkdaşlıq etmələrinə, bir-birlərinin qarşısında öz məsuliyyətlərini dərk etmələrinə imkan yaranır.

*Fərdi iş* uşaqların potensial imkanlarının müəyyənləşdirilməsi və onların müstəqil fəaliyyət göstərməsi üçün imkan yaradır.

**Fəal təlim üsulları** Beşyaşlıların məktəbəhazırlıq təhsilində əqli hücum, rollu oyunlar, söz assosiasiyası, tap-tapmaca, müzakirə, nağıletmə, diskussiya, suallar, şaxələndirmə (klaster), problemli vəziyyət kimi təlim üsullarından istifadə etmək müsbət nəticələr verir.

**Əqli hücum.** Əqli hücüm uşaqlara öz fikirlərini sərbəst ifadə etmək imkanı verir və fikir müxtəlifliyinin labüdlüyünü başa düşmək üçün şərait yaradır. Bu üsul məşğələlərdə problemli situasiya, fikir müxtəlifliyi yaratmaq və həll yollarını tapmaq üçün tətbiq olunur. Belə şəraitdə uşaq düşünməli olur, yoldaşlarının dedikləri ilə razılaşmadıqda öz mövqeyini bildirir.

**Nağıletmə.** Nağıletmə məlumatın müəllimdən uşağa ötürülməsi və dinləmə bacarıqlarının inkişafı üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa nağıletmə 10-15 dəqiqə ərzində aparılır. Nağıletmə ilə bağlı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır.

- nağıletmənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- nağıletmə zamanı ardıcıllığı gözləmək;
- nağıletmədə süjetli şəkillərdən istifadə etmək;

digər əyani və texniki vasitələrdən istifadə etmək. Müəllim məlumatın ötürülmə prosesini verbal (suallar vermək) və vizual (uşaqların sifətlərinin ifadəsini və jestlərini müşahidə etməklə) tənzimləyir.

**Müzakirə.** Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Uşaqlar ünsiyyət, kommunikativ bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Uşaqlar sual və replikalarla müzakirələrə qoşulur, fakt və hadisələrdən istifadə etməklə inandırıcı nitq nümayiş etdirirlər

**Şaxələndirmə (klaster**). Müəllim lövhədə və ya iş vərəqlərində dairə çəkir və onun mərkəzində yapışdırılmış şəkil ilə bağlı söz, və ya şəkillər söyləmək və ya yapışdırmaq uşaqlara tapşırılır. Mərkəzdə yapışdırılmış şəkildən başlayaraq hər növbəti şəkil onunla əlaqəli şəkillərlə xətlərlə birləşdirilir. Məşğələnin sonunda alınan şaxələndirməyə əsasən ümumiləşdirmə aparılır.

**Problemli vəziyyət**. Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Uşaqlar 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət təsvir olunmuş vərəqlər uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra qrupda ümumi müzakirə aparılır.

**Süjetli-rollu oyunlar**. Süjetli-rollu oyunlar hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara hadisələrin iştirakçısı olmaq

və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti başqasının gözü ilə görürlər. Təlim prosesinə belə oyun elementlərinin gətirilməsi onun maraqlılığını, uşaqların yaradıcı fəaliyyət göstərməsi imkanlarını genişləndirir.

**Suallar.** Uşaqların idrak fəallığının artırılmasında böyük rol oynayır. Sualların sayının 4-5 arasında olması məqsədəuyğundur. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, mövzu və məzmun ilə bilavasitə əlaqəli olmalıdır. Fəal təlim metodları (üsulları) tətbiq edilərkən uşaqlar məlumatın əldə edilməsinə, şərh edilməsinə və onun transformasiyasına cəlb olunur. Bu isə daha yaxşı mənimsəməyə şərait yaradır.

4. Təlimin planlaşdırılması

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

-İllik (perspektiv) planlaşdırma.

- Həftəlik (cari) planlaşdırma.

İllik (perspektiv) planlaşdırma standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsilin kurikulumunun əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş həmin sahələrin planlaşdırılmasında inteqrativlık prinsipi ciddi şəkildə gözlənilir.

İllik (perspektiv) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır

| Standartlar | Məşğələ | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| | | | | | |

Bu növ planlaşdırma özündə tərbiyəçi-müəllimin hər hansı inkişaf sahəsi üzrə nəzərdə tutulmuş yaş qrupu üzrə illik fəaliyyətini əhatə edir. Orada konkret yaş qrupu üzrə məzmun standartları, məşğələnin növü, bölmə, mövzular, inteqrasiya, resurs və tarix kimi məsələlər əhatı olunur. Perspektiv planlaşdırma hazırlamaq üçün tərbiyəçi-müəllimdə bir sıra bacarıqların olması vacibdir.

Bölmə və mövzuların ardıcıllığı planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:

· inkişaf sahəsi daxilində inteqrasiya;

· inkişaf sahəsiləri arası inteqrasiya;

· ardıcıllığın qurulması prinsipi.

1) məntiqi ardıcıllıq;

2) psixoloji ardıcıllıq (sadədən mürəkkəbə doğru, yaxından uzağa prinsipi);

3) xronoloji ardıcıllıq.

Planlaşdırma aparmaq üçün lazım olan bacarıqlardan mühümü inteqrasiya imkanlarının müəyyən edilməsidir. Hər bir inkişaf sahəsinin digər inkişaf sahələri ilə inteqrasiyası mümkündür. Planlaşdırma aparılarkən mövzunun digər inkişaf sahəsi üzrə bu və ya digər mövzu ilə inteqrasiya imkanları müəyyən olunmalıdır. Məsələn, savad təlimi və nitq inkişafı məşğələsində "A" hərfinin öyrədilməsi zamanı, ətraf aləmlə tanışlıq, təsviri fəaliyyət, musiqi məşğələləri ilə inteqrasiya edilərək öyrədilməsi daha müsbət nəticələr verir. Perspektiv planlaşdırmada zəruri cəhətlərdən biri də resursların seçilməsidir. Uşaqlara tanış olmayan hadisələri, əşyaları yalnız sözlərlə aydınlaşdırmaq çətindir. Müxtəlif əyani vəsaitlər məktəbəqədər dövrdə xüsusilə mühümdür.

Həftəlik (cari) planlaşdırma alt standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır. Məşğələlərin həftəlik planlaşdırılması aşağıdakı göstəricilər əsasında hazırlanır:

Standart :

Mövzu:

Məqsəd:

İnteqrasiya:

İş forması:

İş üsulları:

Resurslar.

Məşğələnin mərhələləri

• Motivasiya;

• Dərketmə;

• Tətbiqetmə.

**Aktuallaşdırma və ya motivasiya.** Məşğələ aktuallaşdırma, yəni mövcud biliklərin aşkara çıxarılıb səsləndirilməsi ilə başlayır. Əgər motivasiya yaratmaq çətin və ya mümkün deyilsə, o zaman aktuallaşdırma ən yaxşı çıxış yoludur. Əlbəttə motivasiya ilə başlanan məşğələ daha cəlbedici olur, lakin hər mövzu üçün maraqlı və cəlbedici motivasiya qurmaq olmur deyə hərdən aktuallaşdırmadan istifadə etmək yerinə düşür. Motivasiya "motiv" sözündən götürülmüşdür. Latın dilindən tərcüməsi "hərəkətə gətirmək", "itələmək" deməkdir. Deməli, müəllim motivasiya yaradarkən uşaqları hərəkətə gətirir, düşünməyə "itələyir". Düzgün qoyulmuş motivasiya uşaqda əqli fəallıq yaradan səbəbdir. Motivasiyanı necə qurmaq lazımdır?

• diqqəti cəlb etmək və uşağı maraqlandırmaq;

• müxtəlif fərziyyələrə səbəb olan vəziyyət yaratmaq; müstəqil tədqiqat üçün imkan yaratmaq;

• 5 yaşlı uşağın imkanlarına müvafiqliyini nəzərə almaq;

• uşağa öz bacarığını həyata keçirməyə imkan vermək

**Dərketmə.** Bu mərhələdə uşaq yeni bilik və bacarıqları fəal şəkildə öyrənir: tədqiqat aparır, məlumat və fakt axtarır, müqayisə, suallar verir, əvvəlki biliklərinin köməyi ilə yeni biliyi mənimsəməyə çalışır, özünəməxsus təhlil, sintez edir, müzakirələrə qoşulur və s. Burada fəallıq deyəndə, ilk növbədə, uşağın idraki fəallığını nəzərdə tuturuq. Fəal təlimin ikinci mühüm tərkib hissəsi isə əməkdaşlıqdır. Nəzərdə tutulur ki, uşaq başqa uşaqlarla birlikdə öyrənir, yəni öyrədən tək müəllim deyil, həm də uşaqlar özləridir.

**Tətbiqetmə.** Bu mərhələ uşaqların əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir, praktik əhəmiyyətini artırır. Bu məqsədlə uşaqlara praktik və ya yaradıcı tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyundan istifadə edilməsi məqsədəmüvafiqdir.

**Mövzu 4. Məktəbəqədər tərbiyə müəssələrində didaktik prinsiplərin həyata kecirilməsi yolları.**

**PLAN:**

1. Təlimdə ideyalılıq prinsipi və əldə olunmuş bilik, bacarıqların həyatla, əməklə əlaqələndirilməsi prinsipi
2. Təlimdə elmilik və müvafiqlik prinsipi
3. Təlimin inkişafetdirici və tərbiyəedici prinsipi
4. Təlimdə əyanilik və sistematiklik prinsipi
5. Təlimdə fərdi yanaşma və şüurlülüq və fəallıq prinsipi
6. Məktəbəqədər təhsil kurikulumunun xüsusiyyətləri

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika."Maarif", Bakı,1964.
3. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
4. A.Həsənov. Uşaq bağçasında təlimin prinsip və metodları, Bakı, 1992.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.


1. Uşaq bağçasında təlimin ümumi didaktik prinsipləri aşağıdakılardır: 1.Təlimdə ideyalılıq prinsipi; 2. İnkişafetdirici təlim prinsipi; 3. Alınmış bilik və bacarıqların həyatla, əməklə əlaqələndirilməsi prinsipi; 4. Təlimdə elmilik prinsipi; 5.Təlimin tərbiyəedici prinsipi; 6. Təlimdə müvafiqlik prinsipi; 7. Təlimdə sistematiklik prinsipi; 8. Təlimdə şüurluluq və fəallıq prinsipi; 9. Təlimdə əyanilik prinsipi; 10. Təlimdə fərdi yanaşma prinsipi.

Məktəbəqədər yaşlı uşaqlara ideyalılıq adı altında mürəkkəb hadisələri görməyə səy etmək zərərlidir. Uşaqlar ictimai həyatla tanışlıq prosesində bəzi mühüm

məsələləri sadə və anlaşıqlı dildə nəqletmə prosesində başa düşürlər. Əqli tərbiyənin əsas vəzifəsi uşaqları ideyalılıq ruhunda tərbiyələndirməkdir. Uşaqlar ətraf aləm, təbiət, adamların əməyi, bir sıra tarixi ictimai hadisələr, əşyaların nəyə lazım olması haqqında sadə biliklərə əqli təhsil vasitəsilə yiyələnirlər. Uşaqlar məşğələlərdə ictimai həyatla və əmək adamları ilə tanışlıq prosesində Vətənə, öz xalqına məhəbbət, başqa xalqlara rəğbət və hörmət ruhunda tərbiyə olunurlar. Tərbiyəçi məşğələlər zamanı yeri gəldikcə uşaqlara yaş və anlaq səviyyələrinə uyğun erməni millətçilərinin törətdikləri ağır cinayətlər, onların ədalətsiz torpaq təmənnaları, Azərbaycanın bu günü və gələcəyi haqqında sadə məlumatlar da verməlidirlər.

Biliyin əməklə, həyatla əlaqələndirilməsi bir tərəfdə uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaradır, onlarda əmək məhsullarının qədir-qiymətini bilmək, ondan qənaətlə istifadə etmək bacarığı formalaşdırır, digər tərəfdən onların biliyinin artmasına kömək edir. Biliyin həyatla əlaqələndirilməsi məktəbəqədər yaşlı uşaqlarda öyrənmə marağı və bacarığına müsbət təsir göstərir ki, bununla onlar ictimai həyatda baş verən hadisələrlə daha yaxından tanış olurlar. Biz uşaqları biliklərlə silahlandırmaqla yanaşı onlara ətraf mühiti öyrənmək üçün hazır olmağı öyrətməliyik. Bununla yanaşı, məktəbəqədər yaşlı uşaqlar əmək adamlarının fəaliyyətində gördüklərini öz əməli fəaliyyətlərində tətbiq etmək kimi mühüm bacarığa yiyələnməlidirlər. Verilən biliklərin əməklə, həyatla əlaqələndirilməsi uşaqları məktəb həyatına hazırlayır.

2. Elmilik prinsipi tələb edir ki, elmin son nailiyyətləri məktəbəqədər yaşlı uşaqların yaşına və anlaq səviyyəsinə uyğun şəkildə maraqlı faktlar əsasında şərh edilsin. Yeni-yeni əmək növləri, onların insan həyatında roluna dair tərbiyəçinin maraqlı və inandırıcı söhbəti uşaqları daha çox cəlb edir. Xüsusilə təbiət, canlı aləm, heyvanların və bitkilərin yaşayış tərzinə aid elmi məlumatlar nağılvari söhbətlərlə uşaqlara çatdırıldıqda onlar belə söhbətləri uzun müddət yadda saxlayırlar. Çaylarda suyun daşması səbəbləri, göy gurultusu, yayda istilərin artması və s. hadisələr məktəbəqədər yaşlı uşaqları daha çox maraqlandırır. Təbiətin eyni hadisələrini ildən-ilə müşahidə etdikcə uşaqlar onları daha yaxşı dərk edirlər. Kiçik qrup uşaqları havanın dəyişməsini, göyə qara bulud gəlməsi ilə yağışın yağmasını müşahidə edir,

orta və böyük qruplarda uşaqlar ilin hansı fəsli olduğunu bilir, hər fəslin əlamətinə aid müəyyən təsəvvürlərə yiyələnirlər. Təbiəti müşahidə edərkən uşaq çox hadisələr üzərində fikirləşir və müəyyən nəticələrə gəlir. Belə sadə elmi məlumatlarla uşaqlar ilkin təsəvvürlərə yiyələnirlər.

Müvafiqlik əsasən təlimin məzmununda və təlim metodlarının seçilməsində öz ifadəsini tapır. Bu prinsip təlim prosesində uşağın bilik, yaş və anlaq səviyyəsindən asılı olaraq verilən tapşırıqların öhdəsindən gələ bilməsini nəzərə almaq, təlimi uşağın inkişaf səviyyəsinə uyğunlaşdırmağı tələb edir. Qeyd etmək lazımdır ki, həmişə yaş səviyyəsi ilə anlaq səviyyəsi uyğun gəlmir. Belə ki, eyni yaşlı uşaqlar bəzən müxtəlif duymaq, qavramaq, anlamaq səviyyəsinə malik ola bilirlər. Buna görə müvafiqlik prinsipi uşağın bilik dərəcəsini, gücünü, eləcə də yaş və anlaq səviyyəsini ciddi nəzərə almağı tələb edir. Əgər uşaq bağçasında tərbiyəçi bu prinsipə riayət etməzsə, onun verdiyi bilik başa düşülməz və əməyi hədər gedər. Təlimin məzmunu tədris planları, proqram, dərslik və xüsusən uşaq bağçası üçün yazılmış metodik vəsaitlərdə əks olunur. Bu sənədlərin hazırlanmasında da müvafiqlik prinsipi özünü qabarıq göstərir.

Təlimin müvafiqlik prinsipi 4 mühüm didaktik qaydada ifadə olunur: 1) məlimdan-məchula; 2) asandan-çətinə; 3) sadədən-mürəkkəbə; 4) ümumidən-xüsusiyə.

3. Təlim qarşısında duran vəzifənin müvəffəqiyyətlə həll edilməsi üçün birinci növbədə o inkişafetdirici olamlıdır. İnkişafetdirmə uşağın ümumi intellekt səviyyəsinin formalaşması ilə bağlıdır. Yəni təlim prosesi uşağın nitqinə, fikri izahetmə qabiliyyətinə, qavrama imkanına, təxəyyülünə, təfəkkür fəaliyyətinə və sərbəst inkişafına kömək göstərməlidir. Bu prinsipin başlıca mahiyyəti ondan ibarətdir ki, təlim ancaq əldə edilmiş müvəffəqiyyətlər səviyyəsində qala bilməz. O daim inkişaf etməlidir ki, uşaq yeni materialı öyrənə bilmək üçün qüvvə sərf edə bilsin. İnkişafetdirici təlim prinsipi tələb edir ki, uşaq yaş və anlaq səviyyəsinə uyğun olaraq əvvəlki bilik, bacarıq və vərdişləri əsasında düşünüb sadə də olsa plastilindən fiqurlar düzəltsin. Rəsm məşğələlərində əvvəlki bilik və bacarığından istifadə edib

gördüyü şeyləri təsəvvüründə canlandırıb kağız üzərində çəkə bilsin,"yarada" bilsin və s.

Təlimin tərbiyəedici xarakteri pedaqoji qanunauyğunluqdur. Təlim uşaqları yalnız biliklərlə silahlandırmır, həm də onların mənəvi dünyasına, əqidəsinə, əməksevərliyinə, estetik baxışlarına və fiziki kamilliyinə müsbət təsir göstərir. Təlim və tərbiyə bir-birindən ayrılmaz prosesdir. Tərbiyəçi məşğələnin məzmununu müəyyən edərkən onun tərbiyəvi mahiyyətini də aydınlaşdırmalıdır. Uşaq bağçasında təlimin başlıca məqsədlərindən biri uşaqları ictimai mühitlə tanış etməkdir. Bu zaman tədiət, ictimai mühit, ictimai həyatda adamların gördüyü işlər uşaqların diqqətini daha çox cəlb edir. Təbiətlə tanışlıq zamanı Vətən torpağının bir parçasını müşahidə etməklə Vətən haqqında şüurun formalaşmasına böyük təsir göstərir. Uşaqların əmək adamları ilə tanışlığı onların əməksevərlik tərbiyəsində mühüm rol oynayır. Məşğələlərdə əməklə tanışlıq, əmək adamları ilə ünsiyyət, Vətənə, xalqa məhəbbət, başqa xalqlara hörmət tərbiyəsinə kömək edir. Uşaqlar öyrənirlər ki, onların valideynləri işlədiyi yerlərdə öhdələrinə düşən işi yüksək məsuliyyətlə yerinə yetirirlər. Buradan aydın olur ki, uşaq bağçasında keçirilən hər bir məşğələ uşaqlara müəyyən bilik, bacarıq və vərdişlər verməklə yanaşı, həm də onların mənəvi aləminə güclü təsir göstərir.

4. Əyanilik prinsipi təlimi mücərrəd sözlər üzərində deyil, uşaq tərəfindən bilavasitə qavranılan konkret əşyalar və hadisələr üzərində qurmağa deyilir. Y.A.Komenski əyaniliyi təlim üçün "qızıl qayda" adlandırırdı. K.D.Uşinski də əyaniliyə yüksək qiymət verərək deyirdi: Siz uşağa sadə bir fikri izah edirsiniz, o sizi anlamır, həmin uşağa mürəkkəb bir şəkli izah edin, o sizi çox tez anlayar. Əyanilik biliyin asan, möhkəm və tez mənimsənilməsinə kömək edir.Əyaniliyin tətbiqi biliklərin hafizədə uzun müddət yaşamasına kömək edir. Məktəbəqədər yaşlı uşaqlara təlim prosesində əşyaların özünü, canlı guşədəki heyvanları, quşları və bitkiləri, onların şəkillərini göstərmək olar. Məşğələlər zamanı texniki vasitələrin tətbiqi, sxem və modeldən istifadə etmək çox faydalı olur. Tərbiyəçinin məşğələ zamanı əyani

vasitələrdən zəruri halda, yerində və bacarıqla istifadə etməsi onun pedaqoji məharətini göstərir.

Sistematiklik prinsipi elmilik prinsipi ilə sıx əlaqədardır. Sistematikliyə əməl etmədən elmi anlayışları uşaqlara mənimsətmək mümkün deyildir. Belə ki, hər bir elm özü müvafiq sistemlə qurulmuş biliklərdən ibarətdir. Hər elmin özünün sistemi var və təlim məşğələsi də həmin sistem əsasında qurulur. Bu prinsip proqramların və dərsliklərin tələbində özünü göstərdiyi kim, tərbiyəçinin də təlim işində öz əksini tapır. Bu prinsipə görə bilik uşaqlara elə məntiqi ardıcıllıq və sistemlə verilməlidir ki, əvvəlki bilik sonrakı üçün zəncirvari əlaqə rolu oynasın, onun asan və möhkəm mənimsənilməsinə kömək etsin. Uşaq bağçası tərbiyəçisinin şərhində də sistematiklik prinsipinə əməl olunmalıdır. O, bilik, bacarıq və vərdişləri uşaqlara hansı ardıcıllıqla verəcəyini qabaqcadan planlaşdırmalıdır. Sistematiklik tək tərbiyəçinin təlim işinə aid deyil, o həm də uşağın şüurunda biliklərin, vərdiş və bacarıqların sistemli olmasını tələb edir. Uşinski şüurda sistemsiz, əlaqəsiz biliklər yığımını səciyyələndirərək yazırdı: "Pərakəndə, əlaqəsiz biliklərlə dolu olan baş, hər şeyi qaydasız şəkildə tökülmüş anbara oxşayır ki, burada anbar sahibinin özü də heç bir şey tapa bilmir".

Uşaq bağçası tərbiyəçisinin şərhində də sistematiklik prinsipinə əməl olunmalıdır.

5. Məktəbəqədər qrupda 20-25 nəfər uşağın hər biri özünəməxsus fərdi xüsusiyyətlərə malik olur. Onlardan biri görüb-eşitdiklərini tez qavrayır, tez də unudur, digəri isə gec qavrayır, lakin öyrəndiyini uzun müddət yadında saxlayır. Birinin görmə, digərinin eşitmə hafizəsi güclü olur. Biri diqqətini bir işin üzərində xeyli saxlaya bilir, digəri bunu edə bilmir. Tərbiyəçi uşaqların bu xüsusiyyətlərini nəzərə almasa, məşğələni lazımi səviyyədə qura bilməz. O, hər bir uşağın qüvvətli və zəif cəhətlərini vaxtında öyrənməli, qüvvətli cəhətlərini inkişaf etdirməli və onlara istinad edib nöqsanları aradan qaldırmalıdır. Beləliklə, fərdi yanaşma həm qüvvətli, həm zəif, həm də orta səviyyəli uşaqlara tətbiq edilməlidir.

Bilik o zaman möhkəm olur ki, o şüurlu şəkildə mənimsənilsin, başa düşülsün. Şüurluluq və fəallıq olan yerdə fəaliyyət məhsuldar və hərtərfli olur. Biliyi şüurlu mənimsəməyinbir çox şərtləri vardır ki, bunlar məktəbəqədər yaşlı uşaqların təlim

prosesində də özünü göstərir. Bunlardan biri uşaqların biliyi sübutlarla izah edə bilməsidir. Bu, tərbiyəçinin uşaqlara biliyi sübut və dəlillərlə öyrətməsindən, onları aydın izah edib başa salmasından çox asılıdır. Şüurlu biliyin mühüm əlamətlərindən biri də onu tətbiq edə bilməkdir. Bağçada uşaq öyrəndiyi qayda və qanunları tətbiq edə bilirsə, demək onun biliyi şüurludur. Odur ki, bağçada uşaqların öyrəndiklərini tətbiq etməsi tərbiyəçinin diqqət mərkəzində durmalıdır. Biliyin şüurlu mənimsənilməsinin bir əlaməti də uşağın öz biliyini yoxlaya bilməsidir. Uşaq gördüyü işin nəticəsini yoxlayıb qüsurlarını düzəldirsə, çəkdiyi rəsmi əsli ilə müqayisə edib müsbət və nöqsanlı cəhətlərini görürsə, bu da uşağın öyrəndiklərinin şüurluluğuna və fəallığın olmasına kömək edir.

Bağçada böyük yaş qruplarında fəallıq və müstəqillik yaratmaq üçün problemli təlim mühüm əhəmiyyət kəsb edir. Problemli təlim axtarıcılıq fəaliyyəti ilə bağlı olur. Tərbiyəçi uşaqlarla müsahibə keçirməklə, onlara tapşırıqlar verməklə, qoyulan problemi uşaqlarla birlikdə həll etməklə, uşaqların aldıqları bilikləri təcrübədə tətbiq etmək şəraiti yaratmaqla onları fəallaşdırmalıdır.

**6.** Təlim prosesində aşağıdakı prinsiplərə istinad edilir: Şəxsiyyətyönümlülük. Şəxsiyyətyönümlülük uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. Həyatda lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmununda və həyata keçirilməsində onun nəzərə alınması vacib hesab edilir. Differensiallaşdırma və fərdiləşdirmə. Bu prinsip uşaqların fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını, fiziki və əqli inkişaf səviyyələrini, psixo-fizioloji xüsusiyyətlərini nəzərə almağı, onların təliminin bu xüsisiyyətlər əsasında təşkil olunmasını tələb edir. İdrak fəallığı. Idrak fəallığı məktəbəqədər təhsil materiallarının koqnitiv xarakter daşımasına, onun fəal təlim şəraitində reallaşdırılmasına imkan yaradır, uşaqlarda hər hansı problemin həlli tələbatını, onlarda idrak proseslərinin fəallaşdırılmasını gücləndirir. Əyanilik. Bu prinsip məktəbəqədər təhsil müəssisələrində uşaqların öyrənməyə olan marağını stimullaşdırır, öyrəndiklərinin daha keyfiyyətli mənimsənilməsinə şərait yaradır. Əməkdaşlıq. “Tərbiyəçi-müəllim-uşaq və valideyn” münasibətlərində qarşılıqlı fəaliyyətin təmin

olunmasını nəzərdə tutur. Nəticəyönümlülük. Bu prinsip fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasını tələb edir.

**MÖVZU:5. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi.**

**PLAN:**

**1**. Əqli tərbiyənin əhəmiyyəti

**2.** Əqli tərbiyənin vəzifələri

**3.** Hərtərəfli inkişafda əqli tərbiyənin rolu

**4.** Əqli tərbiyəinin məzmunu və formaları, ətraf həyatla tanışlıq

**5.** Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsində valideynlərin rolu

6. Uşaq inkişafının izlənilməsinin təşkili

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı, 1964.

3. A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi (metodik vəsait) Bakı, 1993.

4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Əqli tərbiyə zamanı uşaqlar tədricən planlı şəkildə bəşəriyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sisteminə, ictimai-siyasi təcrübəyə yiyələnirlər. Bu, böyüklər tərəfindən müxtəlif prinsiplər, metod və təmrinlərədn istifadə edilərək həyata keçirilir. Uşaqların əqli inkişafı təlim tərbiyə və ətraf aləmin təsiri altında formalaşır. Formalaşma prosesində uşaqıarda hər şeyi bilmək həvəsi, müşahidəçilik, habelə əqli işin ilk vərdişləri tərbiyə edilir.

Uşağın əqli inkişafı onda psixi proseslərin, xüsusən də duyğuların inkişafından, qavrayışın təkmilləşməsindən, yəni ətrafdakı əşya və hadisələrin hisslərlə əks etdirməsindəın başlanır. Ətraf aləmin duyğular vasitəsilə dərk edilməsi insanın əqli cəhətdən təkmilləşməsinə səbəb olur. Uşaqlar təlim məşğələləri vasitəsilə

ətraf mühiti dərk edir, onlar tədricən mühitə və burada əmələ gələn dəyişikliklərə uyğunlaşırlar.

Uşağın əqli fəaliyyəti onun təxəyyülünə, təsəvvürünə, mühakiməsinə özünəməxsus rəngarənglik verən emosiya ilə sıx bağlıdır. Bütün yeniliklər uşaqlarda təəccüb əmələ gətirməklə bəzən heyrət, sevinc, bəzən vahimə, qorxu yaradır. Bu emosiyalar hafizədə saxlanılaraq, elə bil həmin əşyanın və ya hadisənin keyfiyyəti kimi əks olunur. Uşaqalrın əqli inkişası öz tutumu, xarakteri və biliyinin məzmununa görə fərqlənir. Daim axtarışda olan, bilmədiyini öyrənməyə həvəs göstərən uşaqda fəallıq daha üstün olur.

Əqli fəaliyyətin mühüm keyfiyyətlərindən biri də tənqidlikdir. Əqlin tənqidlik bacarığı keyfiyyəti öyrənmə bacarığı kimi qiymətləndirilir. Belə ki, fəaliyyət zamanı adamda qarşıya çıxan çətin məsələni həll etmək, nəticə çıxarmaq və mühakimə yürütmək qabiliyyəti formalaşır. Əşya və hadisələr arasında qarşılıqlı əlaqəni tapmaq, ona münasibət göstərmək, biliyi ümumiləşdirmək əqli inkişafın göstəicilərindəndir. Yetişən nəsildə əqli inkişafın səviyyəsi öyrənmə marağına, biliyə yiyələnmək, biliyi dərk etmək qabiliyyəti və s. sahələrdə özünü göstərir. Bu da uşağın həyat tərzi və onu əhatə edən mühitdən çox asılıdır. Uşaqlarda əqli inkişafın ardıcıllığını təmin edən başlıca faktor onun tərbiyəsi ilə müntəzəm məşğul olmaqdır.

2. Uşaqlar kiçik yaşlarından təbiət və cəmiyyət hadisələri haqqında müəyyən biliklərə yiyələnməklə əqli cəhətdən də inkişaf edirlər. Əqli inkişaf əxlaq tərbiyəsi ilə sıx bağlıdır. Əxlaq tərbiyəsi insanda müəyyən ideya istiqaməti və əqidə formalaşdırır ki, bu da biliyə yiyələnmədə mühüm əhəmiyyət kəsb edir. Ətraf mühit praktik, elmi-nəzəri və estetik cəhətdən dərk edilə bilər. Bu keyfiyyətlər bir-birilə sıx bağlıdır.

Əqli cəhətdən formalaşma həm də fiziki tərbiyə ilə əlaqəlidir. Uşağın əqli inkişafı onun sağlamlığından çox asılıdır. Fiziki cəhətdən sağlam olan uşaq hadisələrə sürətlə münasibət bildirir, düzgün fikirləşməyi bacarır, normal böyüyür və gələcək cəmiyyətdə öz layiqli yerini tutmaq üçün müvəffəqiyyətlə irəliləyir. Fiziki tərbiyə sahəsindən düzgün baş çıxaran tərbiyəçi əqli inkişafın da zəruriliyini aydın dərk edir. Belə ki, iradi keyfiyyətlərin formalaşması (dözümlülük, cəsarətlilik, qətiyyətlilik, mərdlik və s.) əqli davranış formaları ilə sıx bağlıdır.

Uşağın əqli inkişafı estetik, əmək tərbiyəsi ilə də əlaqəlidir. Bütün pedaqoji proseslərdə olduğu kimi uşaqların əqli tərbiyəsində də həlledici rol tərbiyəçilərin və valideynlərin üzərinə düşür.

3. Məktəbəqədər tərbiyə müəssisələrində əqli tərbiyənin vəzifələri aşağıdakılardır:

1. Cəmiyyət və təbiət haqqında elmi anlayışları formalaşdırmaq, real elmi dünyagörüşü yaratmaq;

2. Əqli fəaliyyəti inkişaf etdirmək məqsədilə öyrənmə marağı, qabiliyyəti və əqli fəaliyyətin digər rəngarəng növlərini formalaşdırmaq;

3. Müstəqil öyrənmə meyli, mədəni əqli iş tərbiyə etmək.

Əqli tərbiyənin birinci və əsas vəzifəsi uşaqların ətraf aləm, təbiət, əmək, ictimai hadisələr, müxtəlif əşyalar, onların keyfiyyətləri və xüsusiyyətləri haqqında sadə biliklərə yiyələnməsini təmin etməkdir. Kiçik yaşlı uşaqlar fəaliyyət prosesində yaxın adamlarla, onları əhatə edən əşyalarla tanış olurlar. Sonra bu əşyaların əsas əlamətlərini ayırmağa, onlar arasındakı əlaqəni anlamağa, müxtəlif təbiət və həyat hadisələrinin başvermə səbəblərini öyrənməyə başlayırlar.

Ətraf mühit haqqında biliklər uşaqların əxlaq və estetik tərbiyəsində də mühüm rol oynayır. Tərbiyəçinin bu sahədə başlıca vəzifəsi uşaqlara bilik vermək, bunun əsasında onların marağını, öyrənmək həvəsini, diqqətli olmasını inkişaf etdirməkdir.

Kiçik yaşlı uşaqların hafizəsi də sürətlə inkişaf edir, bilikləri artır, düşüncəli yadasalma və yaddasaxlama qabiliyyəti formalaşır. Bu yaş dövründə uşaqlarda məqsədli yaddasaxlama sistemini gücləndirmək lazımdır. Məktəbəqədər yaş dövründə ixtiyari hafizəni inkişaf etdirmək mühüm vəzifələrdən biridir.

Əqli tərbiyənin əhəmiyyətli vəzifələrindən biri də uşaqlarda təxəyyülün inkişafı qayğısına qalmaqdır. Təxəyyülün düzgün tərbiyəsi uşağın həyatı dərk etməsinə çox kömək edir. Təxəyyülün ilk əlamətləri uşaqlarda əsasən həyatının üçüncü ilindən başlanır. Sonrakı illərdə yaradıcı təxəyyül tədricən inkişaf edir ki, bu da oyun prosesində, rəsm və s. məşğələ növlərində özünü göstərir.

Əqli tərbiyənin əsas vəzifələrindən biri də məktəbəqədər yaş dövründə uşaqlarda əyani-əməli təfəkkürün, duyğu və qavrayışın, diqqətin inkişafına xüsusi qayğı göstərmək və düzgün istiqamətləndirməkdir.

4. Hər bir demokratik ölkənin tərbiyə ocaqlarında müntəzəm olraq ahəngdar inkişaf etmiş adamlar yetişdirilməlidir. Bu məqsədlə tərbiyə müəssisələrində uşaqların mənəvi cəhətdən normal inkişafı üçün hər cür şərait yaratmaq lazımdır.

Uşaq bağçasının proqramında ətraf həyatla tanışlığın əsas bölmələri - təbiətlə, müxtəlif ixtisaslı əmək adamları ilə, bir sıra ictimai hadisələrlə, əşyalarla, onların keyfiyyət və xüsusiyyətləri ilə tanışlıq verilmişdir.

Birinci üç ildə uşaqlara əşyalar, onların keyfiyyəti haqqında məlumat verilir. Uşaqlar müxtəlif əşyaların adlarını bilməli və onları nitqdə düzgün işlətməlidirlər.

Uşaqların ətraf mühitlə tanışlığında tərbiyəçi müstəsna rol oynayır. O, uşaqları öz işi ilə və ətraf mühitlə tanış edir. Tərbiyəçi böyük qrup uşaqlarına öz evlərinin və bağçanın ünvanını öyrədir, evə, yaxud parka və ya meşəyə gedən yolu tanıtdırır. Bununla o, uşaqlarda müşahidəçilik , müstəqillik və özünə inanmaq bacarığı formalaşdırır. Təbiətlə tanışlıq tərbiyəçinin diqqət mərkəzində olur. Kiçik qrup uşaqları havanın vəziyyətini, orta və böyük qrup uşaqları fəsli, hər fəslin əlamətlərini öyrənir, bu sahədə öz təsəvvürlərini genişləndirirlər. Eləcə də kiçik qrup uşaqları ev heyvanları haqqında müəyyən biliklər əldə edir və onların verdiyi faydanı öyrənirlər. Böyük qrup uşaqalrı isə ev heyvanlarını qruplaşdırır, Azərbaycanın zəngin sərvətləri haqqında müəyyən məlumata yiyələnirlər.

Təbiətlə tanışlıq uşaqların dünyagörüşünə də müsbət təsir göstərir. Qışda Xəzəri müşahidə edən uşaqlar ağ qağayılara tamaşa etməkdən doymurlar. Çayın, gölün sahilində buzu müşahidə edən uşaqlar yayda bu xüsusiyyətlərə rast gəlmir və bunun səbəbini öyrənməyə çalışırlar. Heyvanxanada ayını, fili, canavarı, şiri, pələngi görən uşaqlar onların haradan gətirilməsi haqqında düşünürlər. Tərbiyəçi təbiətin belə sirlərini uşaqların anlaq səviyyəsinə uyğun olaraq onlara izah etməlidir.

Təbiətlə tanışlıqda yaranan müsbət hisslər torpağa məhəbbət və vətənpərvərlik tərbiyəsində müstəsna rol oynayır. Vətənə kiçik yaşlarından fayda vermək hissi, öz yaşına uyğun işləri görmək uşaqlarda işgüzarlığın yaranmasını gücləndirir.

Uşaq bağçasında vətənpərvərlik tərbiyəsi əmək işləri ilə sıx vəhdətdə aşılanır. Məktəbəqədər yaşlı uşaqlar ailədə valideynlərinin, bağçada aşpazın, xadimənin, tərbiəyçi köməkçisinin əməyini müşahidə edir və onda əmək adamlarına hörmət hissi yaranır. Əməyin keyfiyyətli, sistemlə həyata keçirilməsi, əmək alətlərinin adını və funksiyasını bilmək, görülən işin məzmununu dərk etmək onların gələcək fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Doğma təbiətlə təmas, onun sirlərinə bələd olmaq uşaqların əqli və əxlaqi tərbiyəsində, estetik zövqünün formalaşmasında misilsiz təsir qüvvəsinə malikdir. Ətraf aləm, ictimai mühit uşaq həyəcanlarının, düşüncə və hisslərinin əsas mənbəyi olmaqla yanaşı, həm də uşaqların rəsm və əmək işlərinin başlıca ilham mənbəyinə çevrilir.

5. Uşaqların əqli tərbiyəsində valideynlərin rolu böyükdür. Ev şəraitində, valideynlərlə gəzinti zamanı uşaqlar cisim və hadisələr haqqında çox şey öyrənirlər, onların dünyagörüşü zənginləşir, nitqi inkişaf edir, öyrənmə marağı artır. Tərbiyəçinin vəzifəsi valideynləri uşaqalrın əqli tərbiyəsinə köməklik göstərməyə hazırlamaqdır. O, valideynləri tərbiyənin məzmunu ilə tanış edir, uşaq bağçasında təlimin qoyuluşu, məişət işlərində uşağın dünyagörüşünü zənginləşdirmək imkanları ilə silahlandırır. Bunula uşaqlar bağçada aldıqları bilik və bacarıqlarını ailədə valideynlərinə danışmaqla təkrar edir, seri əzbərdən deyirlər. Hesab və quraşdırma işlərini valideynlərinin müşahidəsi altında təkrar icra edirlər.

Gəzinti zamanı valideyn uşağa rast gəldikləri cisim və hadisələr haqqında danışır, onun suallarına cavab verir, təbiət, hündür binaların tikilməsi, avtobus, metro haqqında söhbətlər bu yaşda uşaqların əqli inkişafına səbəb olur.

Valideynlərin uşaqlar üçün kitab oxuması da çox faydalıdır. Valideynlər uşaq üçün kitab oxusu və nağıl danışmaq texnikasına yiyələnməlidirlər. Belə metodiki işlər barəsində tərbiyəçilər valideyn yığıncağında danışmalı və fərdi söhbətlər aparmalıdırlar.

Bağçanın və ailənin müntəzəm və səmərəli əlaqəsi uşaqların əqli tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Buna görə də bağça ailəni pedaqoji cəhətdən müntəzəm məlumatlandırmalıdır.

6. İnkişafın izlənilməsi tədbirləri hər bir uşağa fərdi qaydada tətbiq edilir, uşaqların nitq, hissi, böyük və kiçik motor bacarıqlarında inkişaf ləngimələrini, görmə və eşitmə ilə bağlı problemləri olan uşaqları müəyyənləşdirmək üçün istifadə edilir. Belə hallarda, inkişafın izlənilməsi tədbirlərinin nəticələrindən uşağın növbəti qiymətləndirməsini müəyyənləşdirmək üçün istifadə edilməlidir. İnkişafın izlənilməsi erkən uşaqlıq dövründə inkişaf və təlimin səviyyəsinin dəyərləndirilməsinin tam sistemində yalnız bir komponent kimi nəzərdən keçirilməlidir. Dəyərləndirmə xüsusi məqsəd kimi nəzərdən keçirilməli və ondan etibarlı nəticələr kimi istifadə edilməlidir. Tərbiyəçi-müəllimlər uşaqların ümumi inkişafına yardım göstərməyi planlaşdıra və həyata keçirə bilmək üçün hər bir uşağın sosial, fiziki, əqli və emosional xüsusiyyətlərinə bələd olmalıdırlar. Normal inkişaf edən uşaq haqqında olan bu məlumatlar tərbiyəçi- müəllimlərə öz diqqətlərini uşağın maraq və istəkləri, həmçinin yaranmaqda olan vərdiş və bacarıqlar üzərində cəmləşdirməkdə köməklik göstərir. Belə ki, onlar uşağın təbii inkişaf mərhələləri üçün faydalı olan qarşılıqlı fəaliyyət formalarını müəyyənləşdirə bilirlər. Diqqətli müşahidə tərbiyəçi-müəllimlərə uşaqların inkişafı barədə "xəbərdarlıq edir". Uşağın normal inkişafının nə demək olduğundan və bu normal inkişaf sərhədlərinin hansı dərəcədə geniş ola biləcəyindən agah olan tərbiyəçi-müəllimlər qeyri-normal inkişaf edən uşaqları daha asanlıqla müəyyənləşdirə bilirlər. Onlar uşaqların gündəlik fəaliyyət və hərəkətlərə necə reaksiya verdiklərini müşahidə edərkən və valideyni sorğu-sual edətkən, sistematik müşahidə və qeydiyyat metodlarından yararlanırlar. Bu cür metodlardan biri tərbiyəçi-müəllimlərin öz müşahidələrini sistematik qaydada təşkil etmək üçün faydalandıqları inkişafın izlənməsi siyahısıdır. İzləmə siyahısı tərbiyəçi-müəllim və valideynlərə uşağı başa düşməkdə kömək edən zəruri informasiya mənbəyi kimi davranış nümunələrini müəyyənləşdirməkdə yardımçı olur.

**MÖVZU: 6. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi.**

**PLAN:**

1. Əxlaq tərbiyəsinin ümumi əsasları
2. Əxlaq tərbiyəsinin prinsipləri
3. Məktəbəqədər yaşlı uşaqlarda Vətənə sədaqət və Milli Orduya məhəbbət hisslərinin formalaşdırılması
4. Məktəbəqədər yaşlı uşaqların insanpərvərlik və ədəb-ərkanlıq ruhunda tərbiyəsi
5. Məktəbəqədər yaşlı uşaqların təbiətə məhəbbət ruhunda tərbiyəsi

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika."Maarif", Bakı, 1964.
3. A.Həsənov. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı, 1987.
4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
5. Z.Vəliyeva. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı, 1993.
6.S.Axundov, A.Həsənov. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı, 1991.

1. Məktəbəqədər yaşlı uşaqların əxlaqi cəhətdən formalaşmasında tərbiyəyə verilən başlıca tələbləri tərbiyəçi dərindən bilməlidir ki, öz məqsədinə nail olsun. Məktəbəqədər yaşlı uşaqlarda bu keyfiyyətləri yaratmaq, onu tədricən inkişaf etdirmək tərbiyəçidən, eləcə də valideyndən bacarıq, pedaqoji mədəniyyət, səbr və gərgin əmək tələb edir. Məktəbəqədər yaşlı uşaqlarda yüksək əxlaqi keyfiyyətlərin aşılanması çətin və mürəkkəb prosesdir. Vətənə məhəbbət, milli həmrəylik, milli birlik, mərdlik, insana qayğı, əməksevərlik və s. kimi əxlaqi keyfiyyətlərin bünövrəsi təlim tərbiyə prosesində qoyulur. Bunun üçün tərbiyəçi əxlaq tərbiyəsinin elmi əsaslarına mükəmməl yiyələnməli, öz fəaliyyətində onlardan bacarıqla istifadə etməlidir.

Əxlaq insanların mənəvi münasibətlər sahəsini əhatə edən ictimai şüurun formalarından biridir. İctimai quruluş, iqtisadi şərait dəyişdikcə əxlaq normaları da

dəyişir, inkişaf edir və daha yüksək əhəmiyyət kəsb edir. Ona görə də bu əxlaqi normaları məktəbəqədər dövrdən uşaqlara aşılamaq üçün tərbiyəçi əxlaq tərbiyəsinin prinsip və metodlarını dərindən bilməlidir. Uşaqların əxlaq tərbiyəsi onlarda davranış normalarının tələblərinə uyğun gələn  yüksək mənəvi keyfiyyətlərin, adət və vərdişlərin şüurlu surətdə formalaşmasına yönəldilmiştərbiyəvi təsir prosesidir. Əxlaq tərbiyəsi uşaqlarda əxlaqi hisslərin, adətlərin, əxlaqi şüurun inkişaf etdirilməsinə xidmət edir, çünki məktəbəqədər yaşda uşaqların hərəkət və davranışında hələ hisslər üstünlük təşkil edir. Uşaqda ilk əxlaqi hisslər onu əhatə edən adamlara münasibətdə özünü göstərir. Ancaq 2-4 yaşlı uşaqların insanlara münasibəti hələçox möhkəm olmur. Məsələn, öz oyuncağı ilə oynadığı zaman başqasının ona xoş gəldikdə onun əlindən alır, ağlamasına və etirazına baxmır. Lakin 4-5 yaşlı uşaqlarda əxlaqi hisslər get-gedə sabitləşir. Bu yaşlı uşaqlar balacalara oyun zamanı kömək edir, sınmış oyuncağı düzəltməyə çalışırlar. 5-6 yaşlı uşaqlar isə artıq öz hisslərini idarə etməyə çalışırlar. Məsələn, 6 yaşlı uşaq ağlamağını böyüklərin məsləhəti ilə dayandırır, ətrafdakılara mane olan hərəkətlərini – qaçmağı, qışqırmağı dayandırır.  Kiçik yaşlı uşaqlarda əxlaqi adətlər qeyri-ixtiyari yarnır. Buna görə də əxlaqi adətləri uşaqlarda səmərəli inkişaf etdirmək üçün onları daha yaxşı hisslərə və meyllərə alışdırmaq lazımdir. Kiçik yaşda yaranan vərdiş və adətlər böyük məktəbəqədər yaşlı uşaqların fəaliyyətində daha dərin və möhkəm olur. Məktəbə hazırlıq qrupunda uşaqlara davranışın bəzi şüurlu elementləri də tədricən aydın olmağa başlayır. Onlar davranış tələblərini dərk etməyə, öz hərəkətlərini və rəftarını aydınlaşdırmağa daha çox qabil olurlar. 6 yaşlı uşaqlarla aparılan tərbiyə işləri onların hərtərəfli inkişafına, məktəbə hazırlığının tam formalaşmasına yönəldilməlidir. Onun ən mühüm mərhələsi ictimai həyatın hadisələri haqqında uşaqlarda təsəvvür və biliklərin  ardıcıllıqla genişləndirilməsi, təlimə marağın formalaşdırılması və məktəbdə oxumağa həvəsin yaradıması olmalıdır.

Uşaq bağçasına məxsus əxlaq tərbiyəsi proqramı yaşdan asılı olaraq tədricən dərinləşir və genişlənir. Əgər kiçik qrupda sadə davranış normaları tələb olunursa, böyük yaşlı qruplarda bu normalar daha da genişlənir. 5 yaşdan başlayaraq uşaqlarda yaxşı adamların əxlaqi keyfiyyətləri haqqında ilkin ümumi anlayışlar, özünün və

başqalarının hərəkətlərini qiymətləndirmək təsəvvürləri formalaşdırılır. Bununla da cəmiyyət üçün gələcək vətəndaşın mənəvi simasının əsası qoyulur.

2. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində istifadə olunan prinsipləri aşağıdakı qaydada təsnif etmək olar:

1. İdeyalılıq və məqsədyönlülük prinsipi;
2. Tərbiyənin real həyatla əlaqələndirilməsi prinsipi;
3. Tərbiyənin milli zəmində qurulması prinsipi;
4. Kollektivdə tərbiyə prinsipi;
5. Tərbiyədə fərdi yanaşma prinsipi;
6. Tərbiyədə yaşauyğunluq prinsipi;
7. Tərbiyədə hörmət və tələbkarlıq prinsipi;
8. Tərbiyədə nikbinlik prinsipi;
9. Tərbiyədə vahidlik və müntəzəmlik prinsipi;
10. Tərbiyədə şəxsi nümunə prinsipi;

İdeyalılıq tərbiyəsində uşaqların yaşına və anlaq səviyyəsinə uyğun çatdırılmalıdır ki, Vətən, xalq, milli hisslər nə deməkdir. Uşaqlar bilməlidirlər ki, Azərbaycan xalqı özünəməxsus milli dəyərlərə malik olan sülhsevər, başqalarının varına-dövlətinə göz dikməyən, humanist bir xalqdır. Eyni zamanda uşaqlar xəyanətkar ermənilərin məqsədini, 20 yanvar qırğınının başvermə səbəblərini bəsit formada olsa da, dərk etməlidirlər. Dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasət də məktəbəqədər yaşlı uşaqların yaşına və anlaq səviyyəsinə müvafiq tədbirlər vasitəsilə onlara çatdırılmalıdır.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin real həyatla və əməklə əlaqələndirilməsi uşaqların həyatına sevinc gətirməlidir. Əməyin əxlaq tərbiyəsinə təsiri güclüdür. Uşaqlar hələ məktəbəqədər dövrdən zəhmətə alışmalı və dərk etməlidirlər ki, həyatda zəhmətsiz yaşamaq qeyri-mümkündür, əmək və zəhmət insanlara şərəf gətirir, hörmət qazandırır.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri uzun əsrlər boyu formalaşmış, qorunmuş və daha da zənginləşmişdir. Milli əxlaqi anlayışda ifadəsini tapmış nəcib keyfiyyətlər ( səxavətlilik, xeyirxahlıq, əməksevərlik, sadəlik və s.) bütövlükdə xalqın

mənəvi dəyərləridir və gənc nəslin tərbiyə olunmasında , uşaqların rəftar və fəaliyyətində bu dəyərlərə riayət olunması tərbiyənin zəruri tələblərindəndir.

Məktəbəqədər yaşlı uşaqlarda dostluq, birlik, yoldaşlıq, qayğıkeşlik hisslərinin tərbiyə olunmasının əsas yolu uşaqlar arasında, kollektivdə tərbiyə etməkdir.Bağçada təşkil edilən oyunlar, keçirilən gəzintilər, yaşlıların əməyi ilə tanışlıq, bağçanın rejimi uşaqların kollektivçilik tərbiyəsi üçün təsirli amillərdir.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində onların fərdi xüsusiyyətlərinin nəzərə alınması da tələb olunur. Bəzi uşaqlar utancaq, bəziləri tez qaynayıb qarışan olurlar. Burada üsul və vasitələr uşağın fərdi xüsusiyyətinə uyğun seçilir.

Məktəbəqədər yaş dövrü uşaqların sürətli inkişaf dövrüdür. Ona görə də hər yaş dövrünün özünəməxsus xüsusiyyətləri olur. Tərbiyəçi uşaqların diqqətini, hafizəsini, dözümlülüyünü dəqiq nəzərə alaraq, tərbiyə prosesində yaşauyğunluq prinsipinə ciddi əməl etməlidir.

“Uşağa mümkün qədər çox hörmət etmək və ona çoxlu tələblər vermək” tərbiyənin başlıca prinsiplərindən biridir. Uşaq nə qədər kiçik olsa da, tərbiyəçi və valideyn ona hörmət etməyə, onun şəxsiyyəti ilə hesablaşmağa borcludur. Verilən tələblər isə uşağa aydın olduqda, o, həmin tələbləri həvəslə yerinə yetirir. Tərbiyəçi tələbləri yerinə yetirməkdən ötrü şərait yaratmalı, uşaqda müsbət əxlaqi keyfiyyətlərin yaranmasına kömək etməlidir.

Məktəbəqədər yaş dövründə uşaqların istəyi, marağı hələ şüurlu xarakter daşımadığı üçün , onların hərəkətləri qeyri-ixtiyari, hissi fəaliyyət kimi yaranır. Bu səbəbdən də uşaqlar çox vaxt nadincliyə, xoşa gəlməyən hərəkətlərə yol verirlər. Nikbin tərbiyəçi uşağın pis hərəkətindən əsəbiləşmir, əksinə uşağa mehribançılıq göstərərək onun pis hərəkətini yaxşı istiqamətə yönəldir.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində bağçada və ailədə vahidlik və müntəzəmlik prinsipinə əməl olunmalıdır. Uşaq bağçası tərəfindən verilmiş tələblərlə ailənin verdiyi tələblər arasında sabit vahidlik olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlar böyüklərin hərəkət və davranışlarını daim izləyərək özlərini onlara oxşatmağa çalışırlar. Ona görə tərbiyəçinin və valideynin şəxsi nümunəsi məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

3. Vətənə sədaqətlilik hissinin aşılanması yetişən nəslin tərbiyəsində xüsusi yer tutur. Tərbiyəçi məktəbəqədər yaşlı uşaqlarda Vətənə məhəbbət , onu qorumaq və qeyrətini çəkmək tərbiyəsini həyata keçirmək üçün aşağıda qeyd olunan vəzifələri yerinə yetirməlidir:

1. Məktəbəqədər yaşlı uşaqlarda Azərbaycan Respublikasının müstəqilliyini qorumağı, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən mübarizədə heç bir çətinlikdən qorxmamağı, xalqımıza dərin məhəbbət və sədaqətlə xidmət etməyi tərbiyə etmək;
2. Uşaqlarda Vətən yolunda, onun tərəqqisi naminə hər cür fədakarlığa hazır olmaq əzmi yaratmaq, onlarda Vətənə məhəbbəti sözdə deyil, işdə göstərməyi aşılamaq;
3. Uşaqları müstəqil Azərbaycanda yaşayan xalqlar arasında milli həmrəylik, birlik, dostluq ruhunda tərbiyə etmək, onlara Azərbaycançılıq hissi aşılamaq;
4. Məktəbəqədər yaşlı uşaqlarda düşmənlərə qarşı nifrət hissi tərbiyə etmək.

Uşaqlarda Vətənə sədaqətlilik tərbiyəsinin bir qolunu da Milli Orduya məhəbbət tərbiyəsi təşkil edir. Bunun üçün aşağıdakı tələblər nəzərə alınmalıdır:

1.Məktəbəqədər yaşlı uşaqlarda Milli Orduya məhəbbət tərbiyəsi əqli, əxlaqi, ideya-siyasi, fiziki və estetik tərbiyə ilə sıx əlaqədə aşılanmalıdır.
2.Başqa əxlaqi dəyərlər kimi Milli Orduya məhəbbət tərbiyəsində də uşaqların yaş və anlaq səviyyələrinə uyğun bədii əsərlər üzrə müxtəlif tədbirlərin keçirilməsinə, bədii parçaların, şerlərin oxunmasına geniş yer verilməlidir.
3. Milli Orduya məhəbbətlə bağlı əxlaqi söhbətlər müntəzəm keçirilməlidir;
4. Uşaqlar tez-tez hərbi hissələrə, tarixi yerlərə ekskursiyalara aparılmalıdır;
5. Vaxtaşırı Milli Orduya məhəbbət tərbiyəsindən bəhs edən sənədli filmlərə və televiziya verilişlərinə baxış təşkil edilməlidir.

Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik və Milli Orduya məhəbbət tərbiyəsinin göstərilən pedaqoji tələblər əsasında həyata keçirilməsi uşaqlarda kiçik yaşlarından vətənə, torpağa bağlılıq hissini gücləndirir, onlarda qeyrətliliyi və Milli Orduya məhəbbəti möhkəmləndirir.

Əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri də vətənpərvərlikdir. Xalqımızın Vətənə, doğma yurda məhəbbəti və bağlılığı onun folklor nümunələrindən, böyük söz ustadlarının əsərlərindən, dövlət xadimləri və sərkərdələrinin, qəhrəmanlarının nümunələrindən alır. Söz dünyasının korifeyləri - Xaqani, Nizami, Tusi, M.Əvhədi, Ə.Təbrizi, Xətai, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, A.Səhhət, S.Vurğun və s. Vətəni, onun gözəlliyini vəsf etmiş gəncləri Vətən torpağının qədrini bilməyə, onu göz bəbəyi kimi qorumağa çağırmışlar. Ona görə ki, "insan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir. Araşdırmaçı Məmmədəli Ağayev öz tədqiqat ərələrində qeyd edir ki, Vətən məhəbbəti, torpağa bağlı olan Azərbaycan oğlu və qızı döyüş meydanında yorulmur, odlar, alovlar içərisindən keçərək Vətən torpağının gələcəyi, xalqının şərəf və şöhrəti, namus və qeyrəti naminə mübarizə aparır. Onun sözlərinə görə, Vətən torpağı naminə mübarizə xalqımızın mənəvi varlığı və birliyi uğrunda mübarizə, qəhrəmanlıq, mərdlik məktəbidir: "Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan qüvvə vətənpəvərlik hissidir, bu hiss gənclərin təlim-tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır. Əxlaq tərbiyəsinin müqəddəs, ülvi tərkib hissələri sırasında yaşlı nəslə hörmət, sadəlik və təvazökarlıq, düzlük və doğruçuluq mühüm yer tutur. Bu əxlaqi keyfiyyətlər bir-biri ilə sıx bağlıdır. Yaşlı nəslə hörmət etməyən düz ola bilməz. Doğru danışan, sadə və təvazökar olan cəmiyyət üçün faydalıdır. Harada düzlük var, orada doğruçuluq, sadəlik və təvazökarlıq var, yaşlı nəslə hörmət var. Əxlaq tərbiyəsinin ən zəruri tərkib hissələrindən biri də kollektivçilikdir. Bu, qarşılıqlı yardıma, yoldaşlığa və dostluğa əsaslanır. Cəmiyyət özlüyündə böyük bir kollektivdir. Onun üzvləri əmək xariqələri yaradır, çətin anlarda bir-birinə anlarınıverməyi belə əsirgəmir, bir-birinə kömək edir, bir-birinə qayğı göstərirlər. Yoldaşlıq, dostluq kimi münasibətlər kollektivdə formalaşaraq böyük tərbiyəvi qüvvəyə çevrilir. Kollektivçilik tərbiyənin başlıca prinsiplərindən biri kimi fəaliyyət göstərir, həyatımızın bütün sahələrinə kömək edir. Mənəvi münasibətlər - yoldaşlıq və qarşılıqlı yardım, məsuliyyət, borc, prinsipiallıq, etimad, səmimiyyət,

hörmət və s. kollektivdə formalaşır. Məqsəd aydınlığı və ideyalılıq, sözlə işin vəhdəti, müsbət keyfiyyətlərə istinad etmək kollektivin tərbiyəvi gücünü xeyli artırır".

4. Müasir dövrdə məktəbəqədər yaşlı uşaqlara aşılanması vacib olan əxlaqi sifətlərdən biri də insanpərvərlikdir. Uşağa, ailə üzvlərinə, yaşlılara, əlillərə, qohumlara – ümumən bütün insanlara hörmət etmək, qayğı göstərmək əsl insanpərvərliyin təzahür formalarıdır. Məktəbəqədər yaşlı uşaqlara bu keyfiyyətləri aşılamaqda bədii mətnlərin tərbiyələndirici imkanları çoxdur. Məsələn, M.Dilbazinin "Böyüklərə hörmət et" şerinin uşaqlara oxunmasının faydası çox böyükdür. Çünki orada söhbət məhz ata-anaya, baba və nənəyə, ümumiyyətlə, yaşlılara qayğı və diqqətlə yanaşmaqdan gedir. "Çörək ətirli nənə" hekayəsində Solmaz nənənin əməksevərliyindən, "Hamının nənəsi" şerində nənə nəvazişi və qayğıkeşliyindən, "Anamı incitmərəm" şerində isə ana zəhmətinin müqəddəsliyindən, anaya qayğıkeş münasibətdən bəhs olunur. Tərbiyəçilər belə bədii parçalardan yüksək səriştə ilə istifadə etməklə uşaqlarda yaşlılara, böyüklərə qayğı hissini daha da güclü tərbiyə edə bilərlər.

İnsanın əxlaqi kamilliyinin bir mühüm komponenti də onun ədəb-ərkanlı olmasıdır. İnsanın ədəb-ərkanlılığı onun rəftar və davranışında, geyimində, başqalarına, o cümlədən uşaqlara və yaşlılara münasibətində təzahür edir. Bunu uşaqlıq dövründən həyata keçirmək daha yaxşı fayda verir.Xüsusilə, məktəbəqədər yaş dövründə uşaqlarda ədəb-ərkan qaydalarını müntəzəm və məqsədyönlü aparmaq lazımdır ki, özül möhkəm olsun. Davranışında təsadüfən yol verilmiş qüsurlar uşaqların vərdişinə çevrilməsin, hərəkətlərinə yol tapmasın. Ədəb-ərkanlılığı səciyyələndirən əlamətlər, yəni mərifətlilik, nəzakətlilik, mehribanlıq və s. məktəbəqədər dövrdən düzgün tərbiyə olunursa, sonrakı yaş dövrlərində bu sahədə aparılan işlər daha əlverişli olur. Bunun üçün tərbiyəçilər son dərəcə mədəni olmalı, ailə ilə müntəzəm əlaqə saxlayıb bu mühüm problemi vaxtında həll etməlidirlər. Uşaqlarda nitq inkişafını formalaşdırmaq, onları mədəni danışmağa alışdırmaq və **bəli, xeyr, hə, yox** kimi sözlərdən istifadənin məqamlarını öyrətmək çox vacibdir. Tərbiyəçi müntəzəm olaraq bağçada uşaqların nitq mədəniyyətinin və ümumi mədəni səviyyəsinin yüksəldilməsi üçün səy göstərməlidir.

5. Nəcib əxlaqa malik olan insan öz həmcinslərinə diqqətli, həssas olduğu kimi, torpağa, suya, ağaclara, quşlara, bir sözlə doğma təbiətə də eyni dərəcədə diqqətli və həssas olurlar. Məktəbəqədər yaş dövründən uşaqları təbiətə məftunluq, onun gözəlliyini qoruyub saxlamaq, ətraf mühiti mühafizə etmək ruhunda tərbiyə etmək gərəkdir. Məktəbəqədər yaşlı uşaqların təbiətsevər, hər bir bitkinin, yaşıl yarpağın qədir-qiymətini bilmələri və torpağın qayğısını çəkmək ruhunda tərbiyə edilmələri müasir dövrün ən vacib tələblərindəndir. Təcrübəli tərbiyəçilər uşaqları təbiətə məhəbbət ruhunda tərbiyə etməkdə bədii ədəbiyyatın imkanlarından məharətlə istifadə edirlər. Uşaq bağçasında bu imkanları həyata keçirmək üçün yollar və vasitələr çoxdur. Məsələn, uşaqlarla "Biz təbiəti sevənlərik", "Gülləri və çiçəkləri qoruyaq" və s. kimi mövzular əsasında əxlaqi söhbətlər keçirmək;

- Təbiətə rəhmli münasibət məsələlərinə həsr olunmuş kiçik həcmli bədii əsərlərin oxunuşunu təşkil etmək;

- Təbiətsevərlik ruhunda təşkil olunmuş tədbirlərdə uşaqların iştirakını təmin etmək; Təbiətdən, onun canlı aləmindən daha çox yazan yazıçı və şairlərlə uşaqların görüşünü təşkil etmək.

Qabaqcıl tərbiyəçilər uşaqlarda təbiətə qayğıkeşlik, həssaslıq, rəhmlilik kimi əxlaqi keyfiyyətləri formalaşdırmaq məqsədilə müxtəlif bədii əsərləri uşaqlara oxuyarkən , onlara təbiətdə bitki və heyvan növləri haqqında maraqlı məlumatlar verirlər. "Uşaq və buz", "Cücələrim", "Xoruz", "Yaz günləri", "Qaranquş", "Uşaq və dovşan" və s. kimi şerlərdə təbiətsevərlik ruhunda uşaqlara təsir etmək imkanları güclüdür. Təbiətsevərlik tərbiyəsi tərbiyəçidən daim düşünülmüş iş, uşaqlara fəal yanaşma qabiliyyəti, onların bilik, bacarıq və yaş xüsusiyyətlərini, fəallığını, habelə təbiətə rəftarını nəzərə almağı tələb edir.

**MÖVZU: 7. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi**

**PLAN:**

1.Fiziki tərbiyənin əsas anlayışları

2. Fiziki tərbiyənin məqsəd və vəzifələri

3. Fiziki tərbiyənin məzmunu və vasitələri

4. Fiziki tərbiyənin prinsipləri

5. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində tətbiq olunan metodlar

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. Məktəbəqədər pedaqogika."Maarif", Bakı, 1964.

3. A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi (tədris- metodik vəsait) Bakı, 1994.

4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Azərbaycan ailəsində uşaqların bir qismi bağçalara gedir və orada fiziki cəhətdən tərbiyə olunurlar. Uşaq bağçasında fiziki tərbiyə planlı, məqsədyönlü və mütəşəkkil şəkildə həyata keçirilir. Uşaq bağçasında «Uşaq bağçasında tərbiyə və təlim» proqramına əsasən uşaqlar sərbəst, təbii, əl-ayaq hərəkətlərini bir-birinə uyğunlaşdırmaqla ayaqlarını sürümədən, başını aşağı salmadan yerimə və qaçışın müxtəlif növlərini mənimsəyirlər. Onlar yeriş, qaçış, hoppanma, qol-çiyin, ayaq, gövdə üçün hərəkətləri icra edirlər. Bütün bu təmrinlər onların bədənlərinin normal inkişaf etməsinə, sağlamlığının təmin edilməsinə şərait yaradır. Uşaq bağçasının fiziki tərbiyə işləri xüsusi proqramlara əsaslanır. Uşaqlar bədən tərbiysi proqramında göstərilən hərəkətləri və müxtəlif növ olduqca maraqlı oyunları yerinə yetirərək öz sağlamlıqlarını möhkəmləndirir, şən və gümrah böyüyür, təbii hərəkət vərdişlərini formalaşdırır. Eyni zamanda sadə hərbi-fiziki hazırlığını yüksəldir, gələcək zehni, fiziki əməyə və vətənin müdafiəsinə hazırlaşırlar.

Şəxsiyyətin mühüm mənəvi keyfiyyətlərindən biri olan fiziki tərbiyə uşaqların səhhətinin mühafizəsi və möhkəmləndirilməsinə, onların mükəmməl fiziki inkişafına yönəldilmiş, düzgün inkişafetdirmə prosesidir. Uşaqalrın ahəngdar fiziki inkişafı rəngarəng fiziki təmrinlərin həyata keçirilməsindən çox asılıdır.

Fiziki tərbiyə pedaqoji anlayış olub məqsədi orqanizmin anatomik-fizioloji xüsusiyyətlərinə istinad edərək pedaqoji qanunlar əsasında uşağın inkişafını tənzim etməkdir. Fiziki tərbiyə prosesində uşaqda müvafiq bilik, bacarıq və vərdişlər sistemi yaranır. Fiziki tərbiyənin əsas anlayışları aşağıdakılardır: fiziki təhsil, fiziki inkişaf, fiziki hazırlıq, fiziki mədəniyyət.

Fiziki təhsil fiziki tərbiyənin mühüm anlayışlarından biri olmaqla uşaqda fiziki inkişaf sahəsində müvafiq bilik, bacarıq və vərdişlər yaratmaq məqsədi güdür. Hər hansı bir hərəkətin mahiyyəti və icra tərzi uşaq üçün tam aydın olmalıdır. Uşağa verilən hərəki tapşırıqların icrası təkcə tərbiyəçinin deyil, həm də uşağın arzusu və istəyi əsasında yerinə yetirilməlidir.

Fiziki inkişaf uşaq orqanizmində gedən təbii proses və bizdən asılı olmayaraq həyat tərzinin təsiri ilə uşaq orqanizmində baş verən funksional fizioloji dəyişikliklərdir. Fiziki tərbiyənin elmi metodoloji cəhətdən düzgün təşkili uşaqların fiziki inkişafını maksimal səviyyəyə çatdırır.

Fiziki tərbiyənin əsas vəzifələrindən biri də yetişməkdə olan gənc nəsli fiziki cəhətdən həyata tam hazırlamaqdan ibarətdir. Bu, əməyə və Vətənin müdafiəsinə hazır olmaqla dözümlülük, gümrahlıq, qorxmazlıq, cəsurluq, mərdlik, mübarizlik kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşması ilə müəyyənləşdirilir.

Fiziki mədəniyyət anlayışı fiziki hazırlağa malik olan gənc nəslin sadəcə cismani güclülüyü deyil, həm də mənəvi güclülüyü kimi başa düşülür. Yəni fiziki tərbiyə prosesində uşaqların əzələlərinin inkişafı ilə yanaşı, onlarda yüksək əxlaqi keyfiyyətlər: mədəni davranış qaydaları, qayğıkeşlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlər də formalaşdırmalıdır.

2. Fiziki tərbiyənin başlıca məqsədi uşaqları sağlam, fiziki cəhətdən normal inkişaf etmiş, çevik, dəyanətli, qüvvətli, bədəncə gümrah böyütməkdən ibarətdir. Fiziki tərbiyə uşaqlarda belə keyfiyyətlərin yaranmasına xidmət etdiyindən bütün

xalqlar ona həmişə ciddi fikir verirlər. Bu məqsədlə uşaq hələ ana bətnində olarkən onun normal fiziki inkişafına xüsusi qayğı ilə yanaşırlar. Yeni doğulmuş uşağı isə vaxtlı-vaxtında yuyundurmaq, düzgün bələmək, xüsusi rejim üzrə ana südü ilə qidalandırmaq, tez-tez o üz - bu üzü üstə uzandırmaq, bələyi vaxtlı-vaxtında dəyişdirmək, 5-6 ayında uşağı oturmağa alışdırmaq, 8-9 ayında ona yeriməyi öyrətmək və s. fiziki inkişafla bağlı olan ilk tədbirlərdir.

Fiziki tərbiyə yetişməkdə olan gənc nəslin fiziki kamilliyini təkmilləşdirmək, dövlət və quruculuq işlərində fəal iştirak etmək, Vətən torpağını mərdliklə qorumaq kimi mühüm vəzifələri əhatə edir. Bundan irəli gələn bir neçə mühüm vəzifələrin yerinə yetirilməsi zərurət kimi qarşıda durur:

1. Uşaq orqanizminin forma və funksiyasını inkişaf etdirməklə onun fiziki qabiliyyətlərini hərtərfli təkmilləşdirmək, yaradıcı əməkdə iştirakına kömək etmək və xoşbəxt gələcək naminə onun uzunömürlülüyünü təmin etmək;
2. Fiziki tərbiyənin mühüm sahələri üzrə müvafiq bilik, bacarıq və qabiliyyətləri formalaşdırmaq;
3. Hər bir uşaqda yüksək fiziki mədəniyyət və möhkəm iradi keyfiyyətlər tərbiyə etmək;
4. Hər bir uşaqda mütləq estetik fiziki baxış və gigiyenik vərdişlər formalaşdırmaq;

Nəzərdə tutulan bu vəzifələr müxtəlif yaş dövrləri ilə əlaqədar olaraq konkret şəkildə xüsusi rejimlə tətbiq edilməlidir.

3. Fiziki tərbiyənin <u>məzmununa</u> hərəki mədəniyyət qaydaları, sanitar-gigiyenik mədəniyyət qaydaları, bunların həyata keçirilməsi imkanları və yolları daxildir. Hərəki mədəniyyət xüsusi rejim vasitəsilə müxtəlif hərəkətlərin icra tərzinin formalaşdırılmasıdır. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsini səmərəli həyata keçirmək üçün onlarda vaxtında bir neçə mədəni gigiyenik vərdişləri möhkəmləndirmək lazımdır:

a) qidalanma mədəniyyətinə alışdırmaq; b) sanitariya-gigiyena mədəniyyətinə alışdırmaq; c) məişət qaydalarına riayət etmək mədəniyyətinə alışdırmaq.

Uşaqlarda hərəki vərdiş və bacarıqları yaradn fiziki təmrinlər də müəyyən edilməlidir: a) əsas ümumi hərəkətlər ( yeriş,qaçmaq, tullanmaq və s.); b) idman təmrinləri ( gimnastik hərəkətlər, üzmə, dırmanma və s.) c) göstərişli hərəki oyunlar ( süjetli, süjetsiz elementli oyunlar, gəzintilər və s.).

Uşaqların fiziki tərbiyəsi rəngarəng vasitələrlə həyata keçirilməlidir:

- gigiyenik faktorlar ( düzgün rejim, faydalı qida, gigiyenik şərait, mədəni gigiyena vərdişlərinin formalaşdırılması)
- təbii faktorlar ( sudan, havadan və günəş şüasından istifadə

Rejim fiziki tərbiyənin başlıca vasitələrindən biridir. Rejim uşaq bağçasında və ailədə uşaqların həyatı üçün qəbul edilən müxtəlif fəaliyyət növlərinin gün ərzində həyata keçirilməsidir. Rejimin köməyi ilə uşaqlar vaxtında yatır, yeyir, oynayır, məşğul olur, gəzintiyə çıxır və təmiz havada olurlar. Rejimin təşkilində aşağıdakılar nəzərə alınmalıdır: 1. Rejim uşaq orqanizminin fərdi fizioloji xüsusiyyətlərinə və uşaqların yaş xüsusiyyətlərinə müvafiq olmalıdır. 2. Rejim müəyyən dövr üçün sabit olmalıdır. 3. Rejimin müntəzəm icrası vacibdir. 4. Rejim pedaqoji qanunlar əsasında həyata keçirilməlidir. Tərbiyəçi yaşından asılı olaraq uşaqların gəzintisinə, soyunmasına, geyinməsinə, yuyunmasına, yemək yeməsinə, yuxusuna ayrılan vaxtı bilməlidir.

Uşaqların normal inkişafını təmin edən əsas şərtlərdən biri də qidalanma prosesidir. Məktəbəqədər yaşlı uşaqalr mütəhərrik olduğu üçün daha çox enerji itirirlər. Buna görə də qəbul edilən qida maddələri kalorilik etbarilə uşaqların oyuna sərf etdikləri enerjini təmin etməlidir.

Məktəbəqədər yaşlı uşaqlarda mədəni-gigiyenik adət və vərdişlərin tərbiyə edilməsi fiziki inkişaf üçün çox əhəmiyyətlidir. Belə adət və vərdişlər sinir sisteminin normal inkişafını təmin edir. Səliqəlilik, sakitlik, tarazlığı saxlamaq qabiliyyəti artıq enerji itkisinin qarşısını alır. Bu da uşaqların fiziki cəhətdən sağlam böyüməsinə kömək edir. Mədəni gigiyenik vərdişlərin formalaşmasında gündəlik səhər gimnastikasının keçirilməsi də müstəsna əhəmiyyət kəsb edir. Səhər gimnastikası sürətli yerişlə, hava soyuq olduqda isə qaçışla başlanmalıdır. Sonra əzələləri

möhkəmləndirmək məqsədilə bir sıra gimnastik hərəkətləri icra etməlidirlər. Səhər gimnastikası hərəkətlərin sürətini zəiflətməklə başa çatdırılır.

Hava vannası uşaq orqanizmini möhkəmlətməkdə böyük əhəmiyyət kəsb edir. Hava vannaları daha çox yay aylarında qəbul edilir. Belə vannaların qəbuledilmə müddəti 10 dəqiqədən başlayaraq, 25 dəqiqəyə çatdırılır.Su vannaları bədəni yaş dəsmalla silmək, bədənə su çiləmək və ya çimməklə həyata keçirilir.Yaş dəsmalla bədənin silinməsi bütün yaş dövrlərində səmərəlidir.

4. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi didaktikanın prinsipləri ( şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, müntəzəmlik, tədricilik) əsasında həyata keçirilir.

Şüurluluq və fəallıq prinsipi fiziki fəaliyyətin məqsədəmüvafiq və faydalı icra olunmasını nəzərdə tutur. Yəni fiziki tərbiyə üzrə uşaqlara verilən hər bir tapşırığın məzmunu, mahiyyəti, zəruriliyi, əhəmiyyəti və icra tərzi tam aydın olmalıdır. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində şüurluluq və fəallıq prinsipinə əməl etdikdə fiziki təmrinlərin icrası zamanı onlarda çətinliyi aradan qaldırmaq anlayışı güclənir. Məsələn, uşaq fikirləşir ki, ipdən asılmış şarın altından necə keçmək olar ki, ona toxunmasın, oyun zamanı maneələrdən necə keçmək olar və s.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür zəif olduğundan fiziki tərbiyəni əyani yolla həyata həyata keçirmək xüsusi əhəmiyyət kəsb edir. Fiziki tərbiyəni əyanilik üzərində qurmaq məqsədilə tərbiyəçi fiziki təmrinləri ilk növbədə özü yerinə yetirməli, sonra plakatlar üzərində izah etməli, daha sonra onların icra tərzini yaxşı bacaran uşaqlara nümayiş etdirməlidir.Bu zaman uşaqlar fiziki təmrinlərin icrasını asan mənimsəyirlər.

Müvafiqlik imkan və çətinliklə üzvi surətdə əlaqədardır. Tərbiyəçi uşağın imkanını nəzərə alaraq, onu müvafiq çətin fiziki təmrinlərə cəlb etməlidir. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsini həyata keçirərkən onların yaşı, fiziki və anlaq səviyyəsi nəzərə alınmalıdır. Əgər verilən tapşırıqların icrasında uşaq həddən artıq çətinlik çəkirsə, deməli, həmin tapşırıq onun gücünə və anlaq səviyyəsinə uyğun deyil.Belə tapşırıqlar uşağın fiziki inkişafına mane olur, onlarda

inamsızlıq, qorxaqlıq kimi hisslər oyadır. Ona görə müvafiqlik prinsipinə ciddi əməl edilməlidir.

Məktəbəqədər yaşlı uşaqlar fərdi xüsusiyyətlərinə, boyuna, sağlamlığına, xarici görünüşünə, temperament və xarakter əlamətlərinə görə müxtəlif olurlar. Fiziki tərbiyə prosesində tərbiyəçi birinci növbədə uşaqları yaxşı tanımalı, yeri gəldikcə fiziki təmrinləri elə fərdiləşdirməlidir ki, uşaqlar bunu hiss etməsinlər.Nisbətən zəif uşaqlara verilən fərdi tapşırıqlar inkişafetdirici əhəmiyyətə malik olmalıdır. Yəni, bu proses elə aparılmalıdır ki, uşaqlar az müddət ərzində öz yoldaşlarına çata bilsinlər.

Fiziki tərbiyənin müvəffəqiyyəti məşğələlərin müntəzəmliyindən çox asılıdır. Məşğələlərin ardıcıl aparılması uşaqlarda müvafiq bacarıq və vərdişlərin formalaşmasına səbəb olur. Fiziki təkmilləşmənin optimal yolu fiziki tərbiyənin müntəzəm aparılmasındadır. Fiziki tərbiyə zamanı istirahətin verilməsi də vacibdir.

Fiziki tərbiyə uzunmüddətli prosesdir. Fiziki tərbiyə zamanı tələblərin tədricən çətinləşdirilməsi, sadə təmrinlərdən başlayaraq tədricən mürəkkəbləşdirilməsi və idman yükünün artırılması vacibdir. Yalnız tədriciliyi gözləməklə uşaqlarda mühüm fiziki və iradi keyfiyyətləri formalaşdırmaq olar.

5. Məktəbəqədər yaşlı uşaqların zəruri fiziki bacarıq və vərdişlərə yiyələnmələri müvafiq metodların tətbiqindən çox asılıdır. Didaktik metodlar kimi tərbiyə metodları da üç qrupa bölünür: a) əyani metodlar; b) şifahi metodlar; c) praktik metodlar.

**Əyani metod** fiziki təmrinlərin şüurlu qazanılmasında böyük əhəmiyyətə malikdir. Əyani metodlara fiziki təmrinlərin nümayişi, əyani vəsaitlər, imitasiya, kömək, görmə oriyentasiyası daxildir.

Fiziki təmrinlərin nümayişi zamanı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalı, hərəkətlər aramla və dəqiq icra texnikası ilə göstərilməlidir ki, uşaqlar hərəkətin bütün elementlərini görə bilsinlər. Təmrin bir neçə dəfə təkrar göstərilməlidir.

Plakatlar, şəkillər, oyuncaqlar, idman vəsaitləri uşaqların fiziki tərbiyəsində əyani vəsait kimi tətbiq olunur.

İmitasiya oxşatma, bənzətmə, təqlidetmə deməkdir. Məktəbəqədər yaşlı uşaqlar həyatda, cizgi filmində gördükləri fiziki təmrinləri təqlid etmək meylində olurlar. Məsələn, uşaqlar dovşan kimi hoppanır, ayı kimi pəncələri üstündə gəzir, meymun kimi nərdivana dırmaşır və s. Bu hərəkətlər onların əzələlərinin möhkəmlənməsinə və ümumi inkişafına kömək edir.

Kömək hərəkətin daha bir əyani icra tərzi olub, çətinliyi aradan qaldırmaqda əsas şərtdir. Uşaq hərəkətlərin icrasında çətinlik çəkərsə, tərbiyəçi tərəfindən ona mütləq kömək göstərilməlidir.

Görmə oriyentasiyası məktəbəqədər yaş dövrünün bütün pillələrində tətbiq olunur, lakin uşaq həyatının birinci və ikinci ilində görmə oriyentasiyası daha geniş tətbiq olunur. 6-7 aylıq uşaq rəngli əşyanı görür və ona tərəf hərəkət etməyə səy göstərir. Əşyaya tərəf iməkləmək, sürünmək, dartınmaq, yerimək orqanizmin fiziki cəhətdən normal inkişafına kömək göstərir.

**Şifahi metodlar** uşaqlarda eşitmə analizatorunu, qavrayışı, düşünməni, hissetməni və hərəkətin icrası üzrə təsəvvüretməni formalaşdırır. Şifahi metodlara təmrinləri adlandırmanı, təsviretməni, izahatı, göstərişi, sərəncamı daxil edirlər.

Təmrinlərin adlandırılması ( “Pezinin dartılması”, “Paravoz”, “Siçan-pişik”, “Qazlar” və s.) hərəkətlərin icrasını tez başa düşməkdə uşaqlara kömək edir.

Təsvir metodu bir növ təmrinlərin adlandırılması metodunun davamı olub hərəkətlərin bütün gedişi uşaqlara təsvir vasitəsilə çatdırılır.

Hər bir hərəkətin elementlərini başa salmaq və onu düzgün icra etmək üçün izah metodundan istifadə olunur. İzah qısa, dəqiq və emosional olmalıdır.

Bir qayda olaraq aydınlaşdırma metodu yeni hərəkətlərin icrası zamanı nöqsanlara yol verilərkən tətbiq edilir.

Fiziki təmrinləri öyrətmək və hərəki vərdişləri möhkəmləndirmək üçün göstəriş metodundan istifadə olunur.

Sərəncam bu və ya digər idman hərəkətlərinin icrasına başlamaq komandasıdır.

**Praktik metodlar** uşaqlarda toxumaları inkişaf etdirmək, onlarda fiziki təmrinləri formalaşdırmaq və fiziki vərdişlər yaratmaq məqsədilə tətbiq edilir.Buraya təmrinlərin təkrarı, oyunlar, məşqlər daxildir.

Təmrinlərin təkrarı metodu məktəbəqədər yaş dövrünün bütün mərhələlərində geniş tətbiq olunur. Düzgün yerimək, oturmaq, qaçmaq, tullanmaq, turnikdə dartınmaq, pilləkənə dırmaşmaq, tir üzərində yerimək və s. vərdişlərini yalnız təkrarların nəticəsində yaratmaq olar.

Oyun metodu məktəbəqədər yaş dövründə daha çox tətbiq edilir. Tərbiyəçi oyuna başlamazdan əvvəl uşaqlara müvafiq məlumat verir və oyunun məqsədini, icra müddətini izah edir. Oyun metodu uşaqları fiziki, əqli və əxlaqi cəhətdən inkişaf etdirir. Bu metod uşaqlarda oyunda qalib gəlmək üçün düşünmək, qaydalara əməl etmək, çətinliklərə dözmək və s. kimi əxlaqi keyfiyyətlərin yaradır.

Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində yarış metodundan istifadə etmək çox faydalıdır. Yarış zamanı uşaqlar bütün imkanlarını və qüvvələrini tam sərbəstliklə işə salırlar. Fiziki təmrinlərin yarış metodu ilə həyata keçirilməsi uşaqlarda hərəkətləri dəqiq icra etmək qabiliyyətini inkişaf etdirməklə yanaşı, onları daha mürəkkəb hərəkətlərin icrasına hazırlayır. Bu da fiziki inkişafda başlıca şərtdir. Yarış metodu uşaqlar fiziki təmrinlərin icrasına tam hazır olduqdan sonra tətbiq edilir. Yarış fərdi və kollektiv formada aparıla bilər.

Məktəbəqədər dövr məktəbə daxil olanadək orqanizmin inkişafı və insanın şəxsiyyət kimi formalaşmasında vacib bir dövr sayılır. Bu illərdə möhkəm sağlamlığın, hormonik inkişafın əsası qoyulur.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi sistemində fiziki tərbiyə əsas yer tutur. Bu mərhələdə uşağın orqanizmi tez böyüyüb inkişaf etməklə yanaşı, həm də xarici mühitin təsirlərinə qarşı müqaviməti zəif olur, ona görə də uşaq tez xəstələnir. Bütün bunları nəzərə alaraq onun sağlamlığının möhkəmləndirilməsi ön plana çəkilməlidir.

Bu dövrdə fiziki hərəkətlərə ehtiyac çox böyük olur. Yaxşı təşkil olunmuş fiziki hərəkət rejimi uşağın bütün həyat fəaliyyətinə, emosional səviyyəsinə və əhval-ruhiyyəsinə müsbət təsir göstərir: həyat üçün lazım olan əsas hərəkətlər tədricən formalaşır, əlaqə dairələri genişlənir. Uşağın hərəkət fəaliyyəti onun psixi inkişaf vasitəsilə ətraf mühiti dərk etməsi üçün başlıca vasitədir.

Məktəbəqədər dövrdə uşağın fiziki tərbiyə ilə məşğulluğu gələcəkdə onun nəinki fiziki, həmçinin əqli cəhətdən inkişafına çox kömək edir.

Uşaq bağçalarında təlim-tərbiyənin başlıca prinsiplərindən biri fiziki tərbiyə proqramında təlimlə tərbiyənin üzvi şəkildə uzlaşdırılması, uşaqların hərtərəfli və ahəngdar inkişafıdır. Təhlillər göstərir ki, fiziki tərbiyə üzrə iş məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərindəndir. Bu, tərbiyəçilərin və həkimlərin nəzarəti altında xüsusi proqramla həyata keçirilir. Məktəbəqədər tərbiyə müəssisələrində səhər gimnastikasının təşkilində əsas məqsəd uşaqların sağlamlığının möhkəmləndirilməsi, düzgün fiziki inkişaf və uşaqların qamətinin formalaşmasıdır. Tədqiqatlar və təcrübələr göstərir ki, bədən tərbiyəsi məşğələsi uşaqların idman hərəkətlərinə müntəzəm yiyələnməsinin əsas formasıdır. Məşğələ prosesində qarşıya qoyulan vəzifələrin ardıcıl yerinə yetirilməsi uşağın mənəvi və fiziki gücünü yüksəldir, onları məktəbə, gələcək ictimai fəaliyyətə hazırlayır. Bu cəhətdən bədən tərbiyəsi məşğələsi uşaqların sağlamlığı üçün çox vacibdir və bu məşğələlərin bağçalarda yarım qruplarla həftədə iki dəfə, ilin axırında isə qrupdakı bütün uşaqlarla birlikdə kiçik, orta, böyük və məktəbəhazırlıq qrupunda həftədə 3 dəfə təşkili məqsədəuyğun hesab edilir.

Araşdırmalar göstərir ki, məktəbəqədər tərbiyə müəssisələrində və orta məktəblərdə idman bayramlarının keçirilməsi uşaqlarda fiziki, əxlaqi-iradi keyfiyyətlərin, biliklərin təkmilləşməsinə, idmana marağın artmasına müsbət təsir edir. İdman bayramları uşaqların fəallığını artırmaqla yanaşı, onlara öz yoldaşlarının uğuruna şərik olmağı, qaliblərə xoş münasibət bəsləməyi öyrədir.

**Mövzu: 8. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi.**

**PLAN:**

1. Ekoloji tərbiyənin mahiyyəti
2. Ekoloji tərbiyənin vəzifələri
3. Ekoloji tərbiyənin prinsipləri
4. Təlim prosesində ekoloji tərbiyənin imkanları

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. H.X.Abdullayev, N.M.Məsimov. Uşaqların ekoloji tərbiyəsi, Bakı, 1993.
3. R.N.Mürsəqulov,Ş.T.Əliyeva. Bağça yaşlı uşaqların təbiətlə tanış edilməsinin metodikası, Bakı, 1993
4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
5. İ.M.Məsimov. Ekoloji tərbiyənin aktual məsələləri. "Bilik cəmiyyəti", 1991.


**1**.Müasir mərhələdə yetişməkdə olan gənc nəslin ekoloji tərbiyəsi bəşəriyyətin qarşısında duran qlobal problemdir. Ekologiya ilə bağlı əksər sənədlərdə ətraf mühitin qorunmasının əhəmiyyəti və ekoloji tərbiyə məsələlərini məktəbəqədər dövrdən başlayaraqhəyata keçirilməsinin vacibliyi öz əksini tapmışdır. Uşaqlarda təbiəti qorumaq, onun sərvətlərindən səmərəli istifadə etmək işində məsuliyyət hissi aşılanmasa, onlar bunu aydın dərk etməsələr ətraf mühitin qorunmasında fəal rol oynaya bilməzlər.

Respublikamızda sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar lazımi ekoloji qaydalara əməl edilmədiyindən sənaye tullantıları havanı, torpağı, çayları, gölləri və Xəzər dənizini çirkləndirir, canlı aləmə ciddi ziyan vurur, insanların həyat şəraitini pisləşdirir. Odur ki, təbiətdən səmərəli istifadə və onun müdafiəsi zamanı təbii prosesləri idarə edən qanunların nəzərə alınması vacibdir.

Ekologiya dedikdə canlı təbiət və onun ayrı-ayrı tərkib hissələri ilə xarici aləmin qarşılıqlı münasibətləri, yaxud bu münasibətləri öyrənən elm nəzərdə tutulur.

Tarix boyu müşahidələr göstərmişdir ki, təbiət nə qədər zəngin olarsa, maddi nemətlər də bir o qədər bol olar, nə qədər gözəl olarsa, o qədər də insan zövqünü oxşayar. Lakin insanlar bəzən istər-istəməz təbiətə qəsd edir və bəlasını da özləri çəkirlər. Məhz buna görə də bu gün bir sıra şəhərlərdə insanın təbiətə qayğısız münasibəti gərgin vəziyyət yaratmışdır.

Bu gün ekologiyanın qorunması məsələlərinin dövlət tərəfindən başlıca problem kimi cəmiyyət qarşısında qoyulması gənc nəslin tərbiyəsində öz müsbət təsirini göstərir. Təbiətə, onun sərvətlərinə məhəbbət və qayğı uşaqlarda bilavasitə kiçik yaşlarından təşəkkül tapmağa başlayır. Buna görə də məktəblərdə və uşaq bağçalarında ətraf mühitə, təbii sərvətlərə, təbiətin gözəlliyinə məhəbbət ruhunda tərbiyə işi aparmaq, bitki və heyvanat aləminin əhəmiyyətini uşaqlara izah etmək, təbiətə qayğı hissini bacarıqla aşılamaq diqqət mərkəzində olmalıdır. Uşaqlar məktəbəqədər dövrdən başa düşməlidir ki, təbiətin mühafizəsi onun sərvətlərinin qorunması və artırılması qayğısına qalmaq deməkdir. Onlar bilməlidirlər ki, torpaq, hava, su, meşə, bitki və heyvanlar aləmi, habelə bütün faydalı qazıntılar təbiətin sərvətidir.

**2**. Uşaq bağçasında ekoloji tərbiyə bir sıra konkret vəzifələri həllinə xidmət edir. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

1. Ekoloji tərbiyə uşaqlarda təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmalı, onları yaş və anlaq səviyyələrinə uyğun onun mühafizəsində durmağa hazırlamalıdır. Məktəbəqədər yaşlı uşaqlar doğma yurdun təbii gözəlliklərindən zövq almağı öyrənməklə yanaşı, yaşadıqları ərazidə təbii gözəlliklərin qorunmasında, havanın, suyun təmiz saxlanmasında güclərinə müvafiq işlər görmək qabiliyyətinə malik olmalıdırlar;

2. Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimənin yaradılmasına kömək göstərməlidir. Məktəbəqədər yaşlı uşaqlar ekoloji tərbiyənin mahiyyətinibəsit formada olsa da, dərk etməli, təbiəti sevməli, təbii sərvətləri qorumalı, onun yaxşılaşması və artırılmasında güclərinə müvafiq fəaliyyət göstərməlidirlər. Yalnız müşahidə etməyi deyil, onun haqqında mühakimə yürütməyi, ətraf mühiti nə üçün qorumağın vacibliyini sadə şəkildə də olsa, izah etməyi bacarmalıdır.

3. Ekoloji tərbiyə bağça yaşlı uşaqları ekologiyanın müxtəlif sahələri üzrə müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırmalıdır. Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında insanda elmi təsəvvürlə yanaşı, bilik də olmalıdır. Belə bilik uşaqlara bəsit formada olsa da aşılanmalıdır. Belə olmasa, təbiətin qorunmasında onların düzgün mövqeyini təyin etmək çətin olar. Belə ki bu yaşlı uşaqlar oyun və yataq otağında havanın təmiz saxlanmasının əhəmiyyətini dərk etməlidirlər. Onlar otaqda və bağçanın torpaq sahəsində gül becərməyi, ağaclara, saxlanılan quşlara və heyvanlara qulluq etməyi bacarmalı, gələcəkdə təbiətə qeyri-insani münasibət hallarına qarşı mübarizəyə hazırlanmalıdırlar.

Yuxarıda göstərilən vəzifələr ayrı-ayrılıqda deyil, bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Həmin vəzifələr nə qədər müvəffəqiyyətlə həyata keçirilsə, uşaqlar bir o qədər ətraf mühitin təmiz saxlanmasında, qorunmasında fəal iştirak edər və onlarda təbiətə məhəbbət hissi daha da dərinləşər.

**3.** Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsini lazımi səviyyədə qurmaq üçün bir sıra mühüm tələblərə-prinsiplərə əməl edilməlidir:

1) Ekoloji tərbiyəyə uşaq şəxsiyyətinin hərtərəfli inkişafının tərkib hissəsi kimi baxılmalıdır. Ekoloji tərbiyə estetik, əmək və vətənpərvərlik tərbiyəsi ilə bağlıdır.Ona görə uşaqları təbiətdə olan gözəlliyi qavramaq və qorumaq, doğma torpağın təbii sərvətlərini mühafizə etmək, onların qayğısına qalmaq və s. belə bacarıq və vərdişlərə yiyələndirmək lazımdır;

2) Ekoloji tərbiyədə təbii sərvətlərin mahiyyətini anlamaq üçün məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsisiyyətləri nəzərə alınmalıdır. Məsələn, bu yaşlı uşaqlara təbii ehtiyatların tükənməsi, havanın, suyun, torpağın, bəzi bitki və heyvan növlərinin qeyri-insani fəaliyyət nəticəsində məhv edilməsini anlatmaq üçün istər məşğələ, istərsə də məşğələdənkənar tərbiyəvi tədbirlər vasitəsilə sadə şəkildə çatdırılmalıdır;

3) Ekoloji tərbiyə işində sistematiklik və ardıcıllıq gözlənilməlidir. Ekoloji tərbiyə sahəsində bacarıq və vərdişləri uşaqlara yavaş-yavaş, bir-biri ilə əlaqəli və müntəzəm surətdə aşılamaq lazımdır. Məsələn, təbiətin mühafizəsinə qid bir söhbətlə kifayətlənmək olmaz. Eləcə də, uşağı bir dəfə təbiətin qoynuna çıxarmaqla təbiəti,

onun gözəlliyini uşaqlara sevdirmək mümkün deyil. Bu müntəzəm, planlı və məqsədyönlü həyata keçirilməlidir.

4) Ekoloji tərbiyə hərtərəfli aparılmalıdır. Uşaqlarda təbiətə sadə formada olsa da, münasibət formalaşdırılmalıdır. Bu, uşağın əxlaqına, vətənpərvərlik hissinə təsir edir.

Əgər uşaq bağçasında tərbiyəçi, ailədə valideynlər, məktəbdə isə müəllim tərbiyə işini lazımi səviyyədə qurarlarsa, onda uşaq və yeniyetmələr ekologiya və təbiətin mühafizəsi kimi mühüm problemin həyata keçirilməsində fəal iştirak edərlər. Müəllim və tərbiyəçi istər dərs prosesində, istərsə də məşğələlərdə öz fəaliyyətinidövrün, zamanın tələblərinə uyğun, eyni zamanda, uşaqların yaş və anlaq səviyyələrinə müvafiq qursalar, təbii ki, istədiklərinə nail ola bilərlər.

**4.** Təlim prosesi elə təşkil olunmalıdır ki, bu şəraitdə ekoloji tərbiyə də səmərəli həyata keçirilsin. Təbiətlə rəftarın əsasını qayğıkeşlik, həssaslıq, xeyirxahlıq kimi əxlaqi hisslər təşkil edir. Buna görə də təlim prosesində bu keyfiyyətlərin tərbiyəsinə mühüm diqqət yetirlməlidir. Məşğələlər zamanı ayrı-ayrı mövzular öyrədilərkən başlıca vəzifə uşaqların təbiəti mühafizə tərbiyəsi olmalıdır. Bunun üçün birinci növbədə ekoloji tərbiyə üçün xüsusi əhəmiyyəti olan mövzular seçilməlidir. Gecə-gündüzü, havanın dəyişməsini, küləyin əsməsini, yağışın, qarın yağmasını, günəşli və dumanlı havanın dəyişməsini uşaqlara öyrətmək ekoloji tərbiyə ilə sıx bağlıdır.

Uşaqların təbiətin qoynunda istirahəti, müşahidəsi və ya əməyi, bəzi ziyanverici həşəratlara qarşı mübarizəsi, ac quşları yedizdirməsi, onların xidmətində durması ekoloji tərbiyə baxımından çox əhəmiyyətlidir.“Uşaq bağçası tərbiyəçisinin kitabı” adlı proqramda qeyd edilir ki, uşaqları doğma təbiətlə tanış etmək, bu zaman onların dünyagörüşünü genişləndirmək və bu əsasda onlarda müstəqilliyi, yaradıcılığı, təbiətsevərliyi inkişaf etdirmək tərbiyəçinin əsas vəzifələrindəndir.

Ekoloji tərbiyə ilə bağlı təbiət mövzusunda şer və hekayələrdən istifadə də güclü təsir qüvvəsinə malikdir. Məsələn, N.Gəncəvinin “İlin fəsilləri” adlı şeri

fəsillərin dəyişməsi haqqında uşaqlara müəyyən biliklər verir. Uşaqlar yaz, yay, payız və qış fəsillərində təbiətdə baş verən dəyişikliklər haqqında məlumatlar əldə edirlər.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində təlim xarakterli ekskursiyalar da mühüm rol oynayır. Ekskursiyanın üstün cəhəti burasındadır ki, uşaqlarçayın, meşənin, gölün təmiz saxlanması, çirkab suların çaya, gölə axıdılmasının zərərini anlayır, eləcə də, təbiətdəki gözəlliyi əyani olaraq görür, bu sahədə düzgün mühakimə yürüdürlər. Qabaqcıl tərbiyəçilər uşaqları proqram tələblərinə müvafiq olaraq ekskursiyaya aparmaq üçün gözəl və mənzərəli yerlər seçirlər. Yaşıl çəmənlik, gül-çiçəkli park, meyvəli bağ haqqında təsəvvürlər onların ekoloji tərbiyəsini möhkəmləndirir.

Uşaqların təbiət, təbii sərvətlər, onlardan istifadə, insan və təbiət, onların qarşılıqlı əlaqəsi barədə ekoloji biliklərin sistem şəklində mənimsəmələrində valideynlər, məktəb müəllimləri və uşaq bağçası tərbiyəçiləri müəyyən işlər görməlidirlər.

**Mövzu: 9. Uşaq bağcasında tərbiyə işlərinin planlaşdırılmasının xüsusiyyətləri**

**PLAN:**

1. Uşaq bağçasında təlim-tərbiyə işlərini planlaşdırmanın funksiyası və planlaşdırmaya verilən tələblə
2. Təlim-tərbiyə işlərinin planlaşdırılmasının məzmunu
3. Təlim-tərbiyə işlərinin planlaşdırılması formaları
4. Böyük qrup uşaqları ilə tərbiyə işlərinin planlaşdırılmasının xüsusiyyətləri
5. Tərbiyə işlərinə aid hesabat.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970
4. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.


1. Uşaq bağçasında tərbiyə və təlim işlərinin planlaşdırılması vacib bir məsələdir və bunun həyata keçirilməsi müdirin, metodistin, tərbiyəçinin fəaliyyətindən çox asılıdır. Planlaşdırma uşaq bağçasında tərbiyə və təlim işlərini pedaqoji, elmi və metodiki cəhətdən düzgün, mövcud şəraitə uyğun olaraq müntəzəm və ardıcıl həyata keçirilməsi nəzərdə tutulan nəzəri və əməli işlərə deyilir. Planlaşdırmada "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" əsas sənəd kimi nəzərə alınır.

Plan tərbiyə işlərinin vəzifəsini, fəaliyyətinin əsas növlərini, onların həyata keçirilməsi yollarını, müəyyən vaxt çərçivəsində icrasını əhatə edir. Onda tərbiyə və təlimin yerinə yetirilməsi üçün müxtəlif metod və vasitə tərzlərin qarşılıqlı əlaqəsi, uşaqların müxtəlif fəaliyyətinin uzlaşdırılması, tərbiyəçilərin təşkilatçılıq bacarığı, fəaliyyətdə onların müstəqilliyini, kollektiv, qrup və fərdi şəkildə həyata keçirilən iş növlərini əhatə edir.

Planlaşdırmanın 2-ci funksiyası müəyyən zaman daxilində pedaqoji fəaliyyətin həyata keçirilməsidir. Uşaqlarla aparılan işin məzmununu, forma və metodlarını tədricən çətinləşdirmək, pedaqoji prosesin quruluşunda dəyişiklik yaratmaq da planlaşdırmada mühüm yer tutur. Bu funksiyanın icrasını planlaşdırarkən pedaqoji prosesə təşkilatşılıq və planauyğun xarakter vermək, tərbiyəçinin fəaliyyətində məqsədyönlülüyü və səmərəliliyi gücləndirməklə uşaqların formalaşmasında hərtərəgliliyi təmin etməkdir.

Uşaq bağçasının tərbiyə və təlim işlərini planlaşdırılmasının səmərəliliyi aşağıdakı tələblərə əməl olunmasından asılıdır:

1. Planlaşdırma uşaqlarla aparılan işin ideya istiqamətini müəyyənləşdirməlidir. Təlim-tərbiyə işləri uşaqların yaşına və anlaq səviyyəsinə uyğun olaraq müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin məzmununu özündə əks etdirməlidir. Uşaq həyatının mahiyyəti, məzmunu, uşaqla aparılan tərbiyə işlərinin metod və tərzləri onların hərtərəfli inkişafına xidmət etməlidir. Planda birinci növbədə uşaqların əxlaqi cəhətdən formalaşdırılması nəzərdə tutulmalı, onun fəallığı, müstəqilliyi təmin edilməli, uşaqların mədəni davranış qaydalarına yiyələnməsi həyata keçirilməlidir.
2. Planlaşdırma pedaqoji prosesin təşkilini tam əhatə etməlidir. Planda kollektiv işlə fərdi işin uzlaşdırılmasında səmərəlilik nəzərə alınmalıdır.
3. Tərbiyə işlərinin planlaşdırılması zamanı pedaqoji tələblərə ciddi diqqət yetirilməlidir. Planlaşdırma zamanı tərbiyə və təlim işlərinin məzmunu, uşaq fəaliyyətinin təşkili formaları, onlara rəhbərlik, pedaqoji prosesin tədricən çətinləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.
4. Planda bağça rəhbərliyinin fəaliyyəti tam və real əhatə olunmalıdır. Plan uşaq maraqlarının nəzərə alınması baxımından da real olmalıdır.

2. Məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin planlaşdırılması “Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı” nda öz məzmununu tapır. Burada görülən işlərin məzmunu, işin təşkili, uşaqlara mədəni-gigiyenik vərdişlərin aşılanması, asudə vaxtın təşkili, ailə ilə işin növləri və xarakteri öz ifadəsini tapır.

Təlim işlərinin planında həyata keçiriləcək işlərin məzmunu onun bölmələrində ətraf mühitlə tanışlıq və nitq inkişafı, sadə riyazi təsəvvürlərin inkişaf etdirilməsi, rəsm, yapma, quraşdırma, musiqi tərbiyəsi, fiziki mədəniyyət öz ifadəsini tapır. Məşğələlərin planlaşdırılmasında uşaq bağçasının konkret şəraiti və qruplar üzrə uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınır. Planda biliyin məzmununu təkrarla möhkəmləndirmə və tədricən çətinləşdirmə nəzərdə tutulur. Bütün mövzular üzrə əlaqələndirmədə uşaqların marağına fikir verilməlidir. Onlar uşaqların zehni inkişafına kömək etməlidir. Tərbiyəçi ayrı-ayrı uşaqlarla və ya qrupla məşğələdən kənar işlərdə didaktik oyunlardan, didaktik materiallardan istifadə etməlidir.

Davranış və mədəni-gigiyenik vərdişlər tərbiyəsinin planlaşdırılması bütün fəaliyyət prosesində nəzərdə tutulur. Buna baxmayaraq ayrı-ayrı əxlaqi keyfiyyətlər üzrə vərdişlərin formalaşdırlması - ətraf adamlarla nəzakətli və mədəni davranmaq, mədəni-gigiyenik vərdişlərə yiyələnmək, özünəxidmət vərdişləri və s. gün ərzində uşaqların fəaliyyətdə olması diqqət mərkəzində olmalıdır.

Uşaqların oyunlarına rəhbərliyi planlaşdırarkən tərbiyəçi oyunları, onların məzmununu, həyata keçirilməsi yollarını mükəmməl bilməlidir. Oyun zamanı uşaq kollektivinin təşkili və tərbiyəsinə də ciddi diqqət yetirilməlidir. Bu məqsədlə o, qabaqcadan müəyyən etməlidir ki, keçiriləcək oyunda kollektiv nə qədər müstəqil olacaq, oyundan necə istifadə ediləcək, oyun prosesində uşaqlar əxlaqi və fiziki cəhətdən nəyə yiyələnəcəklər və s. Tərbiyəçi oyun prosesində uşaqların müstəqilliyinin inkişafı və qorunmasına ciddi diqqət yetirməlidir.

Əmək fəaliyyətinin planlaşdırılması onun həyata keçirilməsinin təşkili ilə sıx bağlıdır. Bütün qruplarda əməyin təşkilində tapşırıqlardan geniş istifadə olunur. İş planında tərbiyəçinin yeni tapşırığın məzmununu qeyd etməsi məqsədəmüvafiqdir. Bu zaman tapşırığı icra edən uşağın adı konkret müəyyən olunmalıdır. Tərbiyəçi planda o uşaqları qeyd edir ki, onlar tərbiyəçinin bilavasitə nəzarəti altında olurlar.

Tərbiyənin mühüm vasitələrindən biri olan bayram şənliklərinin keçirilməsi dürüst planlaşdırılmalıdır. Gündəlik planda tərbiyəçi bayramla əlaqədar keçirəcəyi tədbirlər, məşğələlər haqqında qeydlər edir, bayramın əhəmiyyətini göstərir.

Valideynlərlə iş planında isə valideynlərlə işin növləri, keçirilmə vaxtı və qısa məzmunu əks etdirilir, valideyn yığıncaqlarının keçirilməsi, məsləhətlər, uşaqların evinə gediş, məşğələlərdə valideynlərin iştirakı və s. nəzərdə tutulur.

3. Uşaq bağçasında təlim-tərbiyə işləri üç formada planlaşdırılır:

a) uşaq bağçasının illik planı;

b) perspektiv plan;

c) tərbiyəçinin təqvim planı.

<u>İllik plan</u> uşaq bağçasının bir ildə görəcəyi işləri əhatə edir. Orada müdriyyətin işi və təsərrüfat məsələləri, kadrlarla iş, uşaqlarla həyata keçirilən tərbiyə və təlim işlərinə aid metodiki tədbirlərə xüsusi əhəmiyyət verilir. Başlıca yeri uşaqlarla həyata keçirilən tərbiyə və təlim işləri təşkil edir. Keçən ilin bu sahədə həyata keçirilən tədbirləri təhlil olunur, müsbət və nöqsanlı cəhətlər göstərilir, bundan çıxış edərək qarşıdakı ildə həyata keçiriləcək tədbirlər həm ümumbağça, həm də qruplar üzrə nəzərdə tutulur. İllik planda tərbiyəçilərin metodik işlərinin məzmunu, pedaqoji şuranın tematikası, məsləhətlər, valideynlərlə işin məzmunu və s. öz əksini tapır. İllik planın tərtibində müdirin rəhbərliyi altında tərbiyəçilər, metodist və tibb işçiləri iştirak edir, ümumi iclas planı təsdiq edirlər.

<u>Perspektiv</u> planlaşdırmanın məqsədi uşaqlarla aparılan tərbiyə təlim işlərinin sistemini müəyyən etmək və tərbiyə prosesində inkişafın məqsədyönlü və səmərəliliyini, istiqamətini düzgün təyin etməkdən ibarət olur. Perspektiv planda "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" nın qarşıya qoyduğu məsələlər əhatə olunur. Bu məqsədlə proqramda aşağıdakılar nəzərdə tutulur: a) uşaqların davranışına aid əsas məsələlər daxil edilir; b) təlimə aid bölmələr ardıcıllıqla sadalanır və qarşıya qoyulan məqsəd qeyd olunur; c) oyun və əməyin həyata keçirilməsi metodikası, məqsəd və vəzifələri, o cümlədən, yeni oyuncaq və digər avadanlıq və s. qeyd olunur.

Uşaq bağçasında kiçik qruplar üzrə perspektiv planın olması zəruri deyil. Böyük qruplarda perspektiv planın olması vacibdir. Çünki bu plan əsasında tərbiyəçi öz iş təcrübəsinin ümumi nəticəsini müəyyənləşdirir.

Məktəbəqədər yaşlı uşaqların böyük qrupunda təqvim planı 10-12 gün müddətində “Məktəbəqədər müəssisələrin tərbiyə və təlim proqramı” nın tələbləri və bağçanın illik iş planı əsasında tərtib olunur. Təqvim planı üzrə məşğələləri planlaşdırarkən tərbiyəçi proqramın qarşıya qouduğu vəzifələri nəzərə almalıdır. Məşğələ təlim prosesi üçün aparıcı formadır, buna görə də o bütün yaş qruplarında təşkil olunur. Kiçik qruplarda səhər və axşam, orta və böyük qruplarda ancaq axşamlar belə məşğələlər aparıla bilər. İki məşğələ keçirilən qrupda təlim səhər fasiləsindən sonra aparılır. Onun uzlaşdırılması üzərində diqqətlə düşünmək lazımdır. Ciddi əqli gərginlik tələb edən məşğələ ( nitq inkişafı və riyaziyyat üzrə) birinci planlaşdırılıb keçirilməli və hərəkət məşğələləri ilə ( bədən tərbiyəsi, musiqi məşğələsi və s.) uzlaşdırılmalıdır.

Plan məşğələnin gedişi zamanı onun strukturunu əks etdirməlidir. Çoxlu məşğələ böyük hazırlıq  işi aparmağı tələb edir. Bu da planda öz ifadəsini tapmalıdır. Məşğələnin keçirilməsində hansı üsul və vasitələrdən istifadə ediləcəyi qeyd olunmalı, eləcə də məşğələ üçün hansı əlavə materiallar gətiriləcəyi müəyyənləşdirilir. Mürəkkəb məşğələ üçün icmal tərtib etmək lazımdır.

4. Böyük qrup uşaqları ilə işin əsas təşkili forması perspektiv planlaşdırmadır. O birinci və ikinci ildə əsası qoyulan fiziki, psixi-fizioloji inkişaf üzərində qurulur. Perspektiv plana tibbi-pedaqoji yığıncaqda baxılır. Belı yığıncaqda həkim, tərbiyəçi, metodist-tərbiyəçi və müdir iştirak edir. Yığıncaqda hər bir uşağın sağlamlığı müzakirə olunur. Bu zaman inkişafı ləngimiş uşaqlara xüsusi fikir verilməlidri. Hər qrup üçün perspektiv plan aşağıdakı bölmələr üzrə işlənilir: 1. fiziki tərbiyə və uşaqların sağlamlığının möhkəmləndirilməsi; 2. uşaqların psixi-fisioloji inkişafının məzmunu;  3.uşaqların müstəqil fəaliyyətinin ümumi məsələləri üzrə valideynlərlə iş.

Erkən yaş dövründə uşaqlarla işin planlaşdırılmasında əsas diqqət uşaqların sağlamlığının möhkəmləndirilməsi və fiziki tərbiyəyə yönəlir. Bu plana müvafiq olaraq iş aşağıdakı qaydada qurulur: a) uşaq üçün rejimin tərtibi; b) müəyyən edilmiş vaxt üçün uşaqlara gigiyena xidmətinin müəyyən edilməsi; c) möhkəmləndirici masajın qəbul edilməsi; e) hərəkətlərin normal inkişafını təmin etmək. Həyatın birinci ilində uşağın psixi-fizioloji inkişafını təmin etmək və gümrahlıq yaratmaq üçün

təmrinlərin plana daxil edilməsi yüksək əhəmiyyət kəsb edir. Bununla yanaşı, uşaqlara hansı oyuncaqların verilməsi və onların harada yerləşdirilməsi göstərilir. Birinci ilin sonunda döşəmə üstündə fəal oyun hərəkəti üçün şərait yaradılır. Gün ərzində 3-4 qısa məşğələ planlaşdırılır ki, onun hər biri 10 dəqiqədən artıq vaxt aparmamalıdır. Axşam fasiləsində oyun və əyləncəli tədbirlər həyata keçirilir. Uşağa əvvəlcə bir oyuncaq verilir, sonra o başqa oyuncaqla əvəz olunur.

Erkən yaşlı uşaqların ikinci ilində perspektiv plan üzrə aşağıdakı vəzifələr həyata keçirilir: a) fiziki tərbiyə, uşaqların sağlamlığının təmin edilməsi, psixi-fizioloji inkişafın normal həyata keçirilməsi; b) fiziki inkişafı təmin edən hərəkətlərə diqqətin artırılması. bu məqsədlə hərəkətlərin inkişaf etdirilməsinə aid xüsusi məşğələ təşkil olunur, möhkəmləndirici tədbirlər keçirilir və müstəqillik vərdişləri aşılanır.

Uşaqların ümumi psixi-fizioloji inkişafı ilə əlaqədar perspektiv planda nəzərdə tutulan işlərin istiqaməti daha dəqiq formada konkretləşdirilir:a) ətraf mühitlə tanışlıq imkanının genişləndirilməsi və nitqin inkişafı; b) əşyalarla davranış imkanının genişləndirilməsi; c) uşağın müstəqil oyun fəaliyyətinin inkişafı; e) yaşıdları və böyüklərlə ünsiyyətə girmək qabiliyyətinin formalaşdırılması.

Perspektiv plan üzrə tərbiyəçi həftəlik plan təırtib edir, bu zaman uşaqların yaş qrupu nəzərə alınır.

5. Hesabat növbəti planlaşdırmaya kömək edir. O, tərbiyəçiyə imkan verir ki, uşaqlara təsir göstərmək üçün əlverişli təsir vasitələri seçsin, təsirli metodlar tətbiq etsin. Tərbiyəçi birinci növbədə təqvim planı üzrə gördüyü işləri hesaba alır. Müvəffəqiyyət və çatışmamazlıqların səbəbləri aydınlaşdırılır. Uşaqların irəliləyişinə, bilik və bacarıqların möhkəmlənməsinə diqqət yetirilir. Tərbiyəçi qrupda hər bir uşağın, eləcə də bütövlükdə qrupun fəaliyyətini qiymətləndirir. Hesabatda ayrı-ayrı uşağın inkişafı onun məşğələ zamanı, oyunda, gündəlik fəaliyyətdə davranışı öz əksini tapır. Bu zaman uşağın fəallığına, onun xarakterinin istiqamətinə xüsusi əhəmiyyət verilir. Bunlar tərbiyəçiyə imkan verir ki, hesabatı düzgün aparsın, onu səmərəli həll edə bilsin. Uşağım fəaliyyətində buraxılan səhvlər hərtərəfli öyrənilib

təhlil olunmalıdır. Uşaqların inkişafının maksimum düzgün müəyyən edilib qiymətləndirilməsi gələcək tərbiyə işlərinin də düzgün planlaşdırılmasına kömək edir.

İlkin yaş dövründə başlıca iş fiziki və psixi cəhətdən sağlamlığa yönəldilir. Hər bir uşaq üçün gündəlik doldurulur. Gündəlikdə hər gün müntəzəm olaraq uşağın sağlamlıq vəziyyəti - bədənin hərarəti, qan dövranı, nəfəsalma prosesi qeyd olunur.

İllik hesabatda qrupun xüsusiyyətlərinə uyğun olaraq təlim tərbiyə işlərinə aid uşaqların bilik, bacarıq və vərdişləri, proqrama uyğun götürülmüş işlərin uşaqların inkişafına göstərdiyi təsiri haqqında qeydlər edilir. Hesabatda uşaqların inkişafı, müstəqilliyinin səviyyəsi, mədəni vərdişlərə yiyələnmə səviyyəsi, fəallığı da qeyd olunmalıdır. Bağçanın illik hesabatında tərbiyəçilərin işindən də qeydlər edilir.

**Mövzu: 10. Məktəbəqədərdə tərbiyə işinin təşkili və tərbiyə müəssəsinə rəhbərlik.**

**PLAN:**

1. Məktəbəqədər tərbiyə müəssisələrinin təşkli qaydaları
2. Məktəbəqədər müəssisənin maliyyələşdirilməsi
3. Məktəbəqədər tərbiyə müəssisəsinə uşaqların qəbulu və pedaqoji kollektivin tərkibi
4. Uşaq bağçası tərbiyəçisinin pedaqoji ustalığı
5. Məktəbəqədər tərbiyə müəssisəsi üçün kadr hazırlığı

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
4. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.


1. Məktəbəqədər tərbiyə müəssisələrinin əsasnaməsinə müvafiq olaraq dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, mülkiyyət formasından asılı olmayaraq yerli, xarici birliklər və təşkilatlar, ayrı-ayrı vətəndaşlar tərbiyə ocağı aça bilərlər.

Məktəbəqədər tərbiyə ocağının açılması haqqında qaydalar "Məktəbəqədər tərbiyə müəssisəsinə aid əsasnamə"də, Təhsil və Səhiyyə Nazirliklərinin təlimatı, məktub və qərarlarında öz əksini tapmışdır. "Məktəbəqədər tərbiyə müəssisəsinə aid əsasnamə"də qeyd olunur ki, məktəbəqədər tərbiyə müəssiəsi xüsusi tikilmiş və ya müvafiq şəraiti olan binalar olduqda açılır. Binada uşaq kontingenti, müxtəlif yaşlı uşaqların xüsusi rejim əsasında yaşayıb tərbiyə alması, sanitar-gigiyena qaydalarına uyğunluğu nəzərə alınır.

Binanın tikintisi qurtardıqdan sonra dövlət komissiyası qəbul edir. Yeni müəssisəyə rayon, şəhər təhsil şöbəsi tərəfindən nömrə və ya ad verilir. Müdir işlərin yerinə yetirilmə vəziyyətini yoxlayır, qrupların, xüsusən kiçik qrupların otaqlarda yerləşdirilməsini nəzərdən keçirir.

Məktəbəqədər tərbiyə müəssisəsinin istismara verilməsi ilə əlaqədar onun təchizi və fəaliyyəti üçün büdcədən pul vəsaiti ayrılır. Bundan sonra müdir zəruri avadanlıq və əyani vəsaitlərin alınması üçün siyahı tərtib edir. Avadanlıq, xüsusən mebel gigiyenik və pedaqoji tələblərə uyğun olmaqla uşaqların normal inkişafını təmin etməlidir.

Məktəbəqədər müəssisənin iş rejimi bağçanın pedaqoji və rayon təhsil şuralarında qəbul edildikdən sonra müvafiq təhsil idarəsi və ya müəssisənin tabe olduğu idarə, təşkilat və müəssisə tərəfindən təsdiq edilir.

Məktəbəqədər müəssisə və ya onun ayrı-ayrı qrupları həftədə 5,6,7günlük, bir və ya iki istirahər günü, eləcə də dəyişkən qrafik ilə işçilərə istirahət günü verməklə işləyə bilər.

Hər bir məktəbəqədər tərbiyə müəssisəsinə torpaq sahəsi verilir ki, uşaqlar hər fəsildə açıq və təmiz havada ola bilsinlər. Bina, torpaq sahəsi və avadanlıq uşaqların normal təlim-tərbiyəsi, istirahəti və yaşamasını təmin etməlidir.

2. Respublikamızda məktəbəqədər tərbiyə müəssisələrinin əksəriyyəti dövlətin ixtiyarındadır. Lakin özəl xarakterli uşaq bağçaları da mövcuddur. Dövlətin ixtiyarında olan məktəbəqədər tərbiyə müəssisəsi dövlət büdcəsi hesabına maliyyələşdirilir. Məktəbəqədər tərbiyə müəssisəsi üçün dövlət büdcəsindən müvafiq miqdarda vəsait ayrılır. Maliyyə vəsaitinin xərclənməsində valideynlər də fəal iştirak edə bilirlər. Valideynlərin bağçaya ödədikləri pul ata-ananın əmək haqqından asılı olur. Çoxuşaqlı ailələr, imkansız ailələr, Qarabağ müharibəsi əlilləri dövlət tərəfindən müəyyən güzəştlərə malik olurlar. Dövlət valideynlərin ailə və iş şəraititndən asılı olaraq uşaqların gün ərzində, bəzən də şənbə və bazar günləri bağçada qalması üçün şərait yaradır.

Məktəbəqədər tərbiyə müəssisəsinin ehtiyacları dövlət maliyyə planında öz ifadəsini tapır ki, bu smeta adlanır. Smeta əsasında bağça il ərzində pulla təmin

olunur. Smeta xüsusi formada doldurulur və respublika Maliyyə Nazirliyi tərəfindən təsdiq olunur. Smetanın yerinə yetirilməsinə rayon təhsil şöbəsi şöbəsi və ya bağçanın himayəsində olduğu təşkilat nəzarət edir. Yay-sağlamlıq tədbirləri üçün vəsait büdcəyə daxil edilmir. Bunun üçün dövlət ayrıca smeta tərtib edir. Smetada hər uşağa il ərzində xərclənən pul ayrıca göstərilir. Onun həcmi uşaqların sayından, bağçanın tipindən və vəziyyətindən asılı olur. Onda bağçanın körpələr evi və uşaq bağçası olması, qrupların sayı, uşaqların tam miqdarda toplanması, müəssisənin uzun müddət işləməsi nəzərə alınır. Bunlarla yanaşı, binanın həcmi, iş vaxtı, istilik xərci, su ilə təchizat da smetada nəzərə alınır. Smetaya işin məzmunundan asılı olaraq bağçanın bütün xərcləri, o cümlədən, əmək haqqı, sosial sığorta, dəftərxana və təsərrüfat xərcləri, uşaqların qidalanması, ezamiyyə, xidmət xərcləri, avadanlıq, binanın əsaslı təmiri, əlavə tikinti və s. təchizat xərcləri daxil edilir. Bağçanın müdiri smetada ayrılmış pulun düzgün və vaxtında xərclənməsinə ciddi nəzarət edir və məsuliyyət daşıyır.

Məktəbəqədər tərbiyə müəssisəsinin smetasında göstərilmiş vəsaitin düzgün xərclənməsi üçün həm rayon və şəhər maliyyə şöbələri, həm də Maliyyə Nazirliyi tərəfindən müntəzəm surətdə yoxlanılır.

3. Bağçaya uşaq qəbulu valideynlər və ya onları əvəz edən şəxslərin arzusu və iştirakı ilə aparılır. Bağçaya uşaq qəbulu müdir tərəfindən müvafiq qayda və tələblər əsasında həyata keçirilir. Valideynin və ya onu əvəz edən şəxsin ərizəsi əsas kimi qəbul edilir. Müdir bağçaya qəbul edilən uşaqların sayı, qrupların sayı, ictimai vəziyyəti haqqında rayon təhsil şöbəsinə məlumat verir. Məktəbəqədər tərbiyə müəssisəsində hər bir uşağın tərbiyəsinə ciddi qayğı ilə yanaşılır.

Bağçada pedaqoji kollektivə müdir rəhbərlik edir. Tərbiyəçilər bağçada pedaqoji prosesin həyata keçirilməsində aparıcı rol oynayırlar. Məktəbəqədər müəssisədə qruplar çox olduqda müdirə kömək üçün baş tərbiyəçi təyin olunur. Onun məktəbəqədər ixtisası üzrə ali təhsili, azı iki il pedaqoji stajı olmalıdır. Baş tərbiyəçi tərbiyəçilərin fəaliyyətini istiqamətləndirir və onların təkmilləşməsinə rəhbərlik edir. Müdir işgüzar, yaradıcı və məsuliyyət hiss edən işçi kollektivi formalaşdırmalıdır. Pedaqoji kollektiv biliyini elmi və metodiki cəhətdən dərinləşdirməklə tərbiyə işinin

məzmununu təkmilləşdirməli, işin səmərəliliyini gündən-günə yüksəltməlidir. Bağçanın işçi kollektivinə dayə-xadimə, paltaryuyan, gözətçi, bağban və s. daxildir. Hər bir işçi fəaliyyətə başlayarkən bağçanın daxili qaydaları və əmək intizamına verilən tələblərlə tanış olmalıdırlar.

"Məktəbəqədər tərbiyə müəssisəsləri haqqında əsasnamə"yə görə uşaq bağçasında müəyyən işlər sənədləşdirlməlidir. Bağçanın əsasnaməsi, binanın pasportu və əmr kitabı rayon təhsil şöbəsi tərəfindən təsdiq olunur. Əmr kitabının bütün səhifələri nömrələnir, tikilir, səhifələrin ümumi sayı göstərilir, möhür və imza ilə təsdiq olunur.

Uşaqlara məxsus uçot kitabında uşaqların və valideynlərin ev ünvanı, bağçaya daxil olması və bağçadan çıxması haqqında məlumat qeyd olunur. Xüsusi forma ilə hər gün uşaqların bağçaya davamiyyəti yoxlanılır. Bütün bunlarla yanaş, bağçada işçilərin və uşaqların şəxsi işləri, tibb kartoçkası, işçilərin davamiyyət qrafiki, onların iş vaxtını göstərən cədvəl, ayrı-ayrı vətəndaşların nəzərinə çatdırma və təkliflər kitabı saxlanılır. Pedaqoji şuranın protokollar kitabı, habelə sanitar jurnalı, avadanlıq və ərzaq alınmasına aid kitab, müəssisənin iş və perspektiv planı və s. saxlanılan əsas sənədlərdir.

4. Məktəbəqədər tərbiyə müəssisəsinin tərbiyəçisi uşaqların tərbiyəsini həyata keçirməklə onları təlim fəaliyyətinə hazırlayır. Tərbiyəçi ideya-siyasi cəhətdən zəngin, respublikamızın daxili və xarici siyasətini dərindən bilən, pedaqoji ustalığa malik olan yüksək ixtisaslı mütəxəssis olmalıdır.

Tərbiyəçinin pedaqoji ustalığı çoxsahəlidir. Tərbiyəçinin fəaliyyəti onun pedaqoji hazırlığı üzərində qurulur. O, biliyini daim artırır, təcrübəsini zənginləşdirir, uşaqlara məhəbbət və qayğı ilə yanaşır. Tərbiyə vermək bacarığına əzmlə yiyələnmiş tərbiyəçi yüksək mədəniyyətə malik olmalı, psixologiya və peşə metodikasını hərtərəfli bilməli, yüksək nüfuza və pedaqoji etikaya yiyələnməlidir. O, mədəni davranmalı, nəcib hərəkətlərə, rəvan nitqə, məlahətli səsə malik olmalı, bədii parçaları ifadəli oxumağı, rəqs etməyi və rəsm çəkməyi bilməlidir.

Tərbiyəçinin sənətkarlığı tədricən formalaşır. Ali və orta pedaqoji məktəbdə təhsil alarkən o, nəzəri biliyi təcrübədə tətbiq etmək imkanına malik olur.O, peşəsindən ilham alır və bu keyfiyyət onu ixtisasa dərindən yiyələnməyə sövq edir. Qabaqcıl

tərbiyəçi bir sıra elmi, siyasi və pedaqoji tədbirlərin keçirilməsində öz təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Yüksək siyasi və nəzəri hazırlığı ilə o, pedaqoji prosesə dialektik yanaşmağı bacarır, onun mahiyyətini dərindən başa düşür, qabaqcıl təcrübəyə yiyələnir, psixologiya və pedaqogika, xüsusən məktəbəqədər pedaqogika sahəsində aparılan yeni elmi tədqiqatlardan xəbərdar olur.

Yüksək ixtisaslı tərbiyəçi qabaqcıl təcrübəyə yiyələnməyi, pedaqoji yığıncaqlarda məruzə etməyi bacarmalı, mətbuatda məqalələrlə tez-tez çıxış etməli, özünün biliyi, elmi-pedaqoji qabiliyyətini daim zənginləşdirməlidir. Ailə ilə müntəzəm əlaqə saxlamaqla tərbiyəçi həm də valideynləri yeni pedaqoji biliklərlə məlumatlandırmalıdır.

Yaxşı tərbiyəçi öz qabaqcıl təcrübəsini dərin təhlil etməyi bacarır, onu düzgün qiymətləndirir. Əgər uşaqları düzgün tərbiyə edə bilirsə, proqram həcmində onlara müəyyən bilik və bacarıq vərdişləri aşılayırsa, bu, tərbiyəçinin pedaqoji biliyinin və məharətinin nəticəsi kimi qiymətləndirilir.

5. “Məktəbəqədər tərbiyə müəssisələri haqqında əsasnamə”də qeyd olunur ki, məktəbəqədər tərbiyə müəssisəsində işləyən tərbiyəçinin xüsusi ixtisas təhsili olmalıdır. Bu mütəxəssislər dövlət və özəl statuslu məktəbəqədər pedaqoji texnikumlarda, kolleclərdə, ali pedaqoji kolleclərdə, pedaqoji institut və universitetlərin bakalavr və magistraturalarında hazırlanır. Uzun illərdir ki, respublikamızda N.Tusi adına Pedaqoji Universitetin məktəbəqədər pedaqoji fakultəsi fəaliyyət göstərir. 30 ildən yuxarı fəaliyyətdə olan bu fakultə 20 min nəfərə yaxın ali təhsilli tərbiyəçi hazırlayıbdır. Eyni sözləri Bakı,Gəncə, Naxçıvan dövlət pedaqoji universitetlərində fəaliyyət göstərən məktəbəqədər pedaqoji fakultələr haqqında da demək olar.

Məktəbəqədər tərbiyəçi ixtisası üzrə mütəxəssislər respublikamızda ali və orta pedaqoji təhsil müəssisələrində əyani və qiyabi yolla hazırlanır.

Kadr hazırlığında nəzəri və praktik cəhətdən ixtisasa yiyələnmə prosesi Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planına əsasən həyata keçirilir. Məktəbəqədər tərbiyə üzrə ali təhsil almış gənclər magistratura təhsillərini davam etdirmək hüququna malikdirlər

6. Məktəbəqədər tərbiyə müəssisəsinin müdiri təşkilatçı və yaxşı rəhbər olmaqla yüksək ixtisaslı mütəxəssis olmalıdır. Müdir bağçada bütün tərbiyə və təlim işlərinə, təsərrüfat və maliyyə məsələlərinə görə məsuliyyət daşıyır.

Müdir öz fəaliyyətində Azərbaycan Respublikasının təhsil sistemi, xüsusilə məktəbəqədər tərbiyə sistemi qarşısında qoyulan tələbləri aydın dərl etməli və onları yaradıcılıqla həyata keçirməyə qabil olmalıdır. Məktəbəqədər təbiyə müəssisəsinin rəhbəri yüksək şüurluluq və siyasi hazırlığa malik olmalı, prinsipial, tabeliyində olan işçilərə yüksək məsuliyyət hissi ilə yanaşmalıdır. Müdir o vaxt həqiqi rəhbər ola bilər ki, bütüb işçiləri bacarıq və ixtisas baxımından düzgün yerləşdirsin, pedaqoji kollektivə rəhbərliyi elmi-metodiki istiqamətdə həyata keçirsin, kollektivdə pedaqoji prosesin gedişi vahidlik prinsipi əsasında tənzim olunsun.

Məktəbəqədər tərbiyə müəssisəsinin əsasnaməsinə görə müdir bütün dövlət, kooperativ, ictimai təşkilatlarda, idarə və müəssisələrdə rəhbərlik etdiyi müəssisəni təmsil edir. O, vəzifə səlahiyyəti daxilində əmr və sərəncamlar verir, bütün işçilərdən vəzifə borcunun icrasını tələb edir, lazım gələrsə, inzibati qaydada cəzalandırır. Müdir proqramın yerinə yetirilməsinə, valideyn komitəsi işinin istiqamətləndirilməsinə, uşaqların onların sağlamlığının qorunmasına məsuliyyət daşıyır. Müdir ictimai təşkilatlarla birgə işçilərin attestasiyasını keçirir, onlara metodiki köməklik göstərir, təlim prosesinin səviyyəsini yüksəltmək üçün operativ tədbirlər görür, müvafiq əsasnaməyə uyğun olaraq şura yaradır. Şura üzvləri ümumi iclas tərəfindən seçilir.

Müdir bir rəhbər kimi öz ideya-siyasi hazırlığını, professional ustalığını daim yüksəltməli, pedaqoji biliklərə, tərbiyə və təlimin elmi-pedaqoji metodikasına dərindən yiyələnməli, biliyini təcrübədə tətbiq etməyi bacarmalıdır. Müdir fəaliyyətində istinad etdiyi proqramları, normativ və metodik sənədləri yaxşı bilməlidir. O, pedaqji prosesin mahiyyətinə daxil olmağı bacarmalı, nailiyyətləri və çatışmamazlıqları görməli, nöqsanların aradan qaldırılması üçün vaxtında və səmərəli yollar seçməyi bacarmalıdır. Müdir əməkdaşların iş vaxtından düzgün istifadə etmələrinə nəzarət etməlidir. Müdir son dərəcə təsərrüfatçı olmalı, xalq əmlakına böyük məsuliyyət hissi ilə yanaşmalıdır.

2. Bağça müdirinin işinin məzmunu qarşıya qoyulmuş məqsəddən irəli gəlməklə aşağıdakı bölmələri əhatə edir: idarə-təsərrüfatçılıq, təşkilati-pedaqoji fəaliyyət, metodik və tərbiyəvi işlərə rəhbərlik, valideynlərlə iş. Bütün bölmələr bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla bağçanın bütün fəaliyyətinin normal gedişini təmin edir.

İdarəçiliyə, təsərrüfatçılığa, təşkilati-pedaqoji işlərə rəhbərlik, bağçanın maddi-texniki bazasının möhkəmlənməsinə, uşaqlar üçün zəruri şəraitin yaradılmasına, onların tərbiyə və təliminin təşkilinə, kifayət qədər növbənöv yeməklərlə qidalanmasına, gün rejiminin düzgün qurulmasına yönəlməlidir. Müdir binanın təchizi, səliqəyə salınması, lazımi avadanlıqla təmin olunması, təmir işlərinin aparılması, pedaqoji vəsaitlər və oyuncaqların alınmasını təmin etməlidir. O, məktəbəqədər müəssisənin maliyyə-təsərrüfat işlərinə, kadrların seçilib yerləşdirilməsinə, yay sağlamlıq düşərgəsinin təşkilinə, uşaq bayramlarının keçirilməsinə, binanın sanitar-gigiyenik vəziyyətinin təşkilinə müntəzəm olaraq rəhbərlik edir. Tərbiyəçilərin yerləşdirilməsində mütləq onların təhsili, uşaqlarla iş təcrübəsi, şəxsi keyfiyyətləri nəzərə alınmalıdır.

Xidmət işçilərinə aşağıdakılar daxildir: təsərrüfat işləri üzrə müdir, mühasib, aşpaz, dayə-xadimə, paltarsaxlayan, paltaryuyan, elektrik montyoru, çilingər, dülgər, bağban, gözətçi və s. Təsərrüfat işləri üzrə müdir bütün texniki işçilərin fəaliyyətinə rəhbərlik edir və bağçanın avadanlığının qorunmasını, saxlanmasını, onlardan səliqə ilə istifadə edilməsini nəzarətdə saxlayır. Xidmət işçilərinin köməyi ilə bağçada səliqə-səhman yaradılır, qidalanma, uşaqlara xidmət kifayət qədər təmin olunur.

Bağça müdirinin fəaliyyətinin mühüm sahələrindən birini metodik işlər təşkil edir. Bura pedaqoji şura, məşğələlərə açıq baxış, gəzinti, oyun, pedaqoji kabinetin, qruplarla aparılan işlərin frontal və tematik qaydada təşkili, tərbiyə işləri üzrə planın yerinə yetirilməsi vəziyyətinin yoxlanması, fərdi və kollektiv məsləhət və s. daxil edilir.

3. Məktəbəqədər tərbiyə müəssisəsində pedaqoji şura müntəzəm fəaliyyət göstərən kollegial metodik-təşkilati orqandır. Şura tərbiyəçilərin peşə ustalığının artırılmasında müstəsna rol oynayır. Pedaqoji şura bağçada tərbiyə və təlimin səviyyəsini yüksəltməyə dair dövlət qərarlarının fəaliyyətdə tətbiq edilməsini təmin edir. Şura

həm də valideyn komitəsinin fəaliyyətini, işçilərin qabaqcıl təcrübəsini müəyyən edir, qabaqcıl tərbiyəçilərin yaradıcılıq fəaliyyətini maddi və mənəvi cəhətdən mükafatlandırılması və s. məsələləri hərətərəfli müzakirə edir və nəticələrin icrası haqqında qərar çıxarır.

Şura məktəbəqədər tərbiyə müəssisəsində pedaqoji prosesin əsas istiqamətini müəyyən edir, tərbiyə və yəlim proqramını təsdiq edir, metodik işləri müzakirə edir, kadrların yenidən hazırlanması və ixtisasının artırılması məsələlərini müntəzəm olaraq tənzimləyir. Pedaqoji şuranın işi müdir tərəfindən tərtib olunmuş və şurada təsdiq olunmuş illik plan əsasında tənzim olunur. Burada müəssisənin aktual məsələləri, pedaqoji-metodiki, maddi-texniki problemlər müzakirə edilir və həmçinin onların perspektiv istiqaməti müəyyən edilir. Pedaqoji şurada müzakirə olunan məsələlərə elmi-metodiki yanaşma tərzi, qəbul olunmuş qərarların vaxtında və düzgün icrasını təmin etmək, konkret məsələlərə nail olmaq kollektivin pedaqoji səriştəsindən çox asılıdır.

Pedaqoji şuranın tərkibi aşağıdakı qaydada seçilir: müdir, baş tərbiyəçi, tərbiyəçilər, musiqi rəhbəri, həkim, valideyn komitəsinin sədri. Şuranın bütün üzvləri həlledici səsə malik olur. Şuranın tərkibinə daxil olanların sayı azı kollektivin 2/3 hissəsini təşkil etməlidir. Şuranın sədri bağçanın müdiri seçilir. Şuranın iclası ayda bir dəfədən az olmayaraq keçirilir. Pedaqoji şuranın katibi 1 il müddətinə seçilir.

Pedaqoji kabinə isə tərbiyəçilərə metodik köməklik göstərmək üçün təşkil olunur. Kabinetdə zəruri siyasi, pedaqoji, metodiki, uşaq ədəbiyyatı, əyani vəsaitlər toplanır, mühüm sənədlərdən nümunələr ( illik temarik plan, hesabatlar və s.) qoyulur. Tərbiyəçilərin qabaqcıl təcrübəsinə aid sənədlər, tərbiyə işlərinə aid hesabatlar, uşaq oyunlarına aid qeydlər, valideyn yığıncaqlarına aid protokollar, açıq məşğələlərin müzakirə protokolları, və s. pedaqoji kabinənin sənədləri arasında mühüm yer tutur. Kabinə müdiri müvafiq qruplar üzrə tərbiyə və təlim işlərinin planlaşdırılmasına kömək edir, qabaqcıl təcrübəni yaymaq məqsədilə tərbiyəçilərin məşğələlərində olur, müsbət cəhətləri qeyd edir, nöqsanları aradan qaldırmaqda köməklik göstərir.

4. Uşaq bağçalarında tərbiyəçilərin ideya-siyasi, pedaqoji və metodiki ustalığının artırılması işinə müdir bilavasitə özü rəhbərlik edir. Müəssisə daxilində ixtisasartırma

işləri müntəzəm aparılmalı, elmi seminarlar, metodik təhlillər, qabaqcıl təcrübənin müzakirəsi və s. tədbirlər həyata keçirilməlidir. Belə tədbirlərdə tərbiyəçilər Azərbaycan Respublikasının daxili və xarici siyasətini dərindən öyrənir, təhsilə aid, xüsusən, məktəbəqədər tərbiyəyə aid qərar və göstərişləri hərətəfli mənimsəyirlər. Bağçada tərbiyəçilər, habelə texniki işçilər üçün respublikamızın beynəlxalq aləmdə yeri, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri ilə keçirilən görüşlər, ölkə daxilində baş verən iqtisadi-siyasi dəyişikliklərin təhlilinə aid mühazirələr təşkil olunur. Bütün bunlarla yanaşı, tərbiyəçilər beynəlxalq miqyasda uşaq hüquqlarınınmüdafiəsi, uşaq xəstəliklərinin qarşısının alınması, uşaqlara qarşı humanist münasibətlərin ictimai münasibətlər kimi formalaşdırılması və s. tədbirlərdən geniş istifadə olunur.

Pedaqoji ixtisasın artırılması üçün pedaqoji və metodiki şurada, direktoryanı müşavirədə, metodkabinədə, yeni nəşr olunmuş ədəbiyyatlardan nümunələr, jurnal və qəzet məqalələri öyrənilir, təhlil edilir. Tərbiyəçilər metodiki kabinənin təşkil etdiyi siyasi, elmi, pedaqoji, metodiki və s. tədbirlərdə fəal iştirak etməlidir. Mövcud qərara görə hər bir tərbiyəçi hər 5 ildən bir ixtisasartırma kursuna göndərilməlidir.

Tərbiyəçilərdə özünütəhsil yaradıcı olmalı, ixtisas üzrə yeniliklər dərindən öyrənilməli, təhlil olunmalı və təcrübədə tətbiq olunmalıdır. Bütün öyrənilənlər uşaqların tərbiyəsinin inkişaf səviyyəsində, tərbiyəçinin uşaqlar, valideynlər arasında nüfuzunun yüksəldilməsində öz ifadəsini tapmalıdır.

Məktəbəqədər tərbiyə müəssisəsi ailə ilə sıx əlaqədə uşaqların tərbiyəsini təşkil edib həyata keçirməlidir. Valideynlərlə işə bağça müdiri rəhbərlik edir. O, hər bir ailənin sosial tərkibini, valideynlərin peşəsini və iş yerini, məişət şəraitini yaxşı bilməlidir. Bağça müdirinin bilavasitə rəhbərliyi ilə valideyn komitəsi fəaliyyət göstərir. Müdir işgüzar, məzmunlu, yaradıcı şəkildə ailələr ilə əlaqəni təşkil etməli, möhkəmləndirməlidir.

5. Məktəbəqədər tərbiyə işləri üzrə inspektorun işi çoxsahəli və mürəkkəbdir. Uşaq bağçası inspektoru öz fəaliyyətini təhsil haqqında qanuna və dövlət qərarlarına, "Məktəbəqədər təlim-tərbiyə müəssisələri haqqında əsasnamə"yə uyğun qurur, Təhsil Nazirliyinin təlimatlarından, metodik sənədlərdən faydalanır. İnspektor rayon (şəhər)

məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji prosesin metodoloji əsaslarla həyata keçirilməsini tənzimləyən dövlət nəzarətçisidir.

İnspektor möhkəm ideya-siyasi əqidəyə, humanist mənəviyyata, zəngin pedaqoji təcrübəyə və yüksək nəzəri biliyə malik olmalıdır. Məktəbəqədər tərbiyə müəssisələrinin inspektoru yüksək pedaqoji səriştəsi ilə problemlərin elmi-metodoloji əsaslarla həll olunmasına məsuliyyət daşıyan ilk rəsmi dövlət nümayəndəsidir. O, məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim şərtlərinin yüksək səviyyədə təşkil olunmasına və həyata keçirilməsinə cavabdehdir.

İnspektor öhdəsində olan regionda məktəbəqədər tərbiyə müəssisələrinin işçiləri ilə müntəzəm metodiki işlər aparır və kadrların təkmilləşməsinə kömək edir. Xüsusən gənc kadrların yetişdirilməsi və tərbiyə olunmasına qayğı ilə yanaşmalıdır.

Məktəbəqədər tərbiyə müəssisələrinin inspektoru tərbiyə, təlim, metodiki, idarəetmə-təsərrüfat işlərinin vəziyyətini müntəzəm olaraq hərətərəfli öyrənməli, müvafiq nöqsanları vaxtında aşkar etməli, onların yaranma səbəblərini araşdırmalı və aradan qaldırılması üçün səmərəli tədbirlər həyata keçirməlidir.

Bağçanın perspektiv və illik iş planının tərtibində məktəbəqədər tərbiyəyə aid dövlət qərar və göstərişləri , Təhsil Nazirliyinin təlimati məktubları və s. sənədlərin məzmunu nəzərə alınır. Bağçanın iş planında bir sıra bölmələr öz əksini tapır: 1. Giriş hissəsi;

2. Əsas təşkilati işlər; 3. İdeya-siyasi səviyyəni yüksəltmək; 4. Pedaqoji və metodiki işlər; 5. İxtisasartırma; 6. Valideynlərlə iş; 7. İdarə və təsərrüfat işləi; 8. Tibbi tədbirlər;

9. İstehsalat və kütləvi işlər; 10. Uşaqların sağlamlığı və fiziki tərbiyəsinə aid tədbirlər.

## Mövzu:11.Məktəbəqədər yaşlı uşaqların inkişafında təlim texnalogiyalarının əhəmiyyəti.

**Plan:**

1. Məktəbəqədər yaşlı uşaqların təliminin əsasları.
2. Didaktik sistem və təlim metodları.
3. Məktəbəqədər yaşlı uşaqların inkişafında pedaqoji sistemin innovasiyası.
4. Məktəbəqədər yaşlı uşaqların inkişafında təlim texnalogiyalarının əhəmiyyəti.

**Ədəbiyyat:**


**1.** A. Həsənov. Məktəbəqədər pedaqogika . Bakı-2000.

**2.** **S**.Abdullayeva. Tərbiyəçinin stolüstü kitabı. Bakı-2008.

**3.** R.Mursaqulova .N. Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.

**4.** Y. Kərimov. Uşaq məktəbə gedir. Bakı- Nağıl evi, 2002,

**5.** Abbasova R. Yeni pedaqoji təfəkkürə əsaslanan interaktiv metodların tətbiqi.// İbtidai məktəb və məktəbəqədər tərbiyə ,2002, № 1.


## 1.Məktəbəqədər yaşlı uşaqların təliminin əsasları.

Təlimdə tərbiyə kimi bəşər tarixi yarandığı gündən əldə olunmuş nailiyyətləri gələcək nəslə çatdırmaq tələbatından irəli gəlmişdir.

Təlim yarandığı ilk dövrlərdən yaşlılar tərəfindən müəyyən məlumatları catdırmaqdan başlayır. Tədricən bu planlı, məqsədyönlü bir proses kimi məktəbəqədər tərbiyə müəssələrində, məktəblərdə,universitetlərdə aparılmağa başlayaraq və tədricən bəşəriyyətin əldə etdiyi zəngin təcrübə gənc nəslə çatdırılır.bu ideyanı ilk dəfə görkəmli pedaqoq Y.A.Komenski özünün təlim nəzəriyyəsi ilə yerinə yetirdi. Sonralar bu ideyalar İ.H,Herbart, İ.H.Pestalotsi, A.Disterver, K.D.Uşinski tərəfindən eilmi əsasda i.ıqlandırıldı.XIX əsrdən başlayaraq intensiv olaraq təlimin psixoloji əsasları özünü göstərdi.

Müasir cəmiyyətdə tərbiyə və təlim şəxsiyyətin hərtərəfli inkişafına yönəlmişdir.tərbiyə cəmiyyətin davranış qaydalarını özündə əks etdirirsə.təlim

bilik,bacarıq və vərdişlərin şüurlu və praktik fəaliyyətidir. Bu prosesdə təlimdə sistemlilik əsas faktordur.

Məktəbəqədər yaşda tərbiyə və təlim vahid pedaqoji proses olaraq bütün fəaliyyət növlərində uşaqların məktəbə hazırlığını təmin edir. Uşaq bağçasında didaktika ümumi didaktikanın təməlini qoyur. Məktəbəqədər dövrdə də təlimin məzmununda onun nəzəri əsasları,təşkili formaları,metod və vasitələri, uşaq şəxsiyyətinin inkişafını və onun məktəbə hazırlığının məzmununu təmin edir.

Təlimdə ardıcıllıq və sistematiklik ideyasını Y.A.komenski “ Ana qucağı” əsərində vermişdir.

Məktəbəqədər pedaqogikada təlim uşaqların hərtərəfli inkişafını təmin edən faktor olub tərbiyənin üzvü hissəsidir,həmçinin mühüm vasitədir. Məktəbəqədər tərbiyə müəssələrində təlim pedaqoji prosesdir. Bu prosesdə məktəbəqədər yaşlı uşaqlar tərbiyəçi tərəfindən və onun rəhbərliyi altında elementar,lakin dəqiq bilik, bacarıq və vərdişlər qazanır.Təlim prposesində uşaqlarda zehni əmək qabiliyyətləri inkişaf etməyə və formalaşmağa başlayır.Onlarda təfəkkür, nitq, diqqət, yaddaş və s.kimi psixi proseslər tədricən inkişaf edir.bununla yanaşı uşaqlarda əxlaqi-iradi keyfiyyətlər də yaranır.Təlim prosesində uşaqlarda ətraf aləmin cism və hadisələrinin mahiyyətini öyrənmə meyli güclənir. Onlarda iradi keyfiyyətlər təşəkkül tapır.

Məktəbəqədər yaşlı uşaqların biliklərə yiyələnməsi planauyğun, sistemlə “ asandançətinə”, “ sadədən mürəkkəbə” prinsipinə müvafiq təşkil olunur.Uşaqların biliklərə yiyələndirilməsi onlarda dünyagörüşü genişləndirməklə həm də məktəb təliminə hazırlığı təmin edır. Məktəbəqədər yaşlıların təlimi mürəkkəb bir prosesdir.Bu, pedaqoji prosesdə uşaqlarda diqqəti cəmləşdirmək,yiyələnəcəkləri bilik və bacarığı şüurlu dərk etmək, müstəqil öyrəndiklərini söyləmək qabiliyyətini təşəkkül və inkişaf etdirməyi nəzərdə tutur.

Uşaq bağçasında təlim prosesinin qarşısında duran vəzifələri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Bilik və məlumatların uşaqlar tərəfindən düzgün və şüurlu mənimsənilməsi,onlarda zehni işə meyl və marağın tərbiyə edilməsi;

b) Məşgələlərdə və ya məşğələlərdən kənar vaxtlarda müxtəlif fəaliyyət proseslərində uşaqların qazanmış olduqları biliklər,bacarıq və vərdişlərin təkrarlar yolu ilə möhkəmləndirilməsi;

c) Uşaqlarda əhatə olunduqları və qazanmış olduqları bilik və məlumatlara şüurlu münasibət tərbiyəsi.Burada həmçinin yaradıcı münasibət də nəzərdə tutulur;

d) Məşğələlərdə və digər fəaliyyət növlərində ( oyun,əmək ) qazanılmış biliklərinmüstəqil tətbiqinə nail olmaq və bu əsasda uşaqlara yeni-yeni biliklər və bacarıqlaraşılamaq.

Yuxarıda göstərilən vəzifələri yerinə yetirmək üçün tərbiyəçi bir sıra keyfiyyətlərə malik olmalıdır. Bu keyfiyyətləri aşagıdakı kimi qruplaşdırmaq olar;

a) Tərbiyəçinin məşğələnin məqsədini dəqiqləşdirməsi və anlaşıqlı şəkildə izah etməsi;

b) Təlim fəaliyyətinin təşkilində və gedişində uşaqlarda öyrənmə marağının yaradılması;

c) Uşaqların yerinə yetirməli olduqları vəzifələrin daha dəqiq izah edilməsi. Başqa sözlə məşğələnin məqsədinin uşaq tərəfindən başa deşülməsi.bununla belə yeni ideyaların çatdırılması;

d) Tərbiyəçinin ifadə vasitələrindən istifadə etməklə keyfiyyətli danışıq bacarığının olması;

e) Tərbiyəçi uşağı düşünməyə vadar edən,uyğun məzmunda suallar tərtib etməli,həmin suallara uşaqlardan aydın və lokonik cavablar almağa istiqamət verməlidir.

Tərbiyəçi uşaqlara bilik vermək, onları sadəcə sevməklə yanaşı, həm də dəqiq və aydın müşahidə etməyi,onların psixikasında baş verən dəyişilikləri görməyi,başa düşməyi bacarmalıdır. O.uşaqların emosiyalarında, suallarında, cavablarında ifadə olunan rüaksiyaları, habelə onların öz fəaliyyətlərinə münasibətlərini öyrənməlidir.

Məktəbəqədər yaşlı uşaqların təlim prosesinin əsasını “ dərketmə” fəaliyyəti təşkil edir.uşaq bağçasında təlim didaktik prinsiplərdən kənarda mövcud deyildir.didaktik sistem təlimin və tərbiyənin məqsədə

yönəldilməsinin,məzmununun,forma və metodlarının birliyi ilə yaranan strukturların daxili bütövlüyü və tamlığı ilə xarakterizə edilir.

Uşaq bağçasında təlim prosesinin mahiyyəti uşaqların əhatə olunduqları xarici mühiti dərketmə yollarındakı fəaliyyətləri ilə bağlıdır. Bu zaman uşaqlar həm idrak,həm də praktik vərdişlər qazanır və onu tədricən təkmilləşdirirlər. İdrak prosesinin metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edir. Həm idrak,həm də onun əsasını təşkil edən təlim prosesləri ətraf aləmin dərk olunmasıdır.

Məktəbəqədər yaşlı uşaqların təlimi yalnız ətraf aləmin fakt və hadisələrini yadda saxlanılması, bu əsasda onların təfəkkür,nitq və digər psixi proseslərinin inkişafına kömək etməklə bitmir.Həm də bir sıra iradi əxlaqi keyfiyyətlərin yerinə yetirilməsinə xidmət edir. Uşaq bağçasında təlim sakit,işgüzar,həm də uşaqlar ücün emosional şəraitdə keçilməlidir.

2._Didaktik sistem təlim və tərbiyənin məqsədinin qanunauyğunluqlarının təşkili prinsiplərinin məzmununu, forma və metodlarının birliyi ilə yaranan strukturların daxili bütövlüyü ilə xarakterizə edilir.Təlim prosesinin mahiyyəti deyərkən uşaqların gercəkliyi dərketmə yolundakı fəaliyyəti nəzərdə tutulur. Bu zaman uşaqda idraki və praktik vərdişlər yaranır.İdrak nəzəriyyəsinin metodoloji əsası onun təşkili ilə müəyyən edilir. Həm idrakprosesi, həm də təlim prosesi gerçəkliyin dərk olunmasına xidmət edir. İdrak prosesi obyektiv gerçəkliyin hər hansı bir insan tərəfindən dərk olunması prosesinin onun bilik və inkişaf səviyyəsindən,yaş və fərdi xüsusiyyətlərindən asılı olduğunu bildirir.Uşağı əhatə edən makro və mikro mühitdəki fakt və hadisələrin dərk olunması güzgü kimi passiv deyil. Fəal inikas prosesidir. Belə ki, bu proses hər hansı bir hadisənin səbəb və nəticələrinin qanunauyğunluqlarını şüurda əks etdirir.

Məktəbəqədər pedaqogikada idrak prosesinin daimi olduğu,həqiqətə doğru “ sonsuz və ədəbi” yaxınlaşma prosesi olduğu göstərilir. Bu isə öyrənmənin dərketmə hadisələri ilə bağlıdır. Məlum bilikləri öyrənmə hadisəsi ilk dəfə dərk etmək, sonralar onu daha da təkminləşdirmək deməkdir. Bəşər cəmiyyəti inkişaf etdikcə öyrənilənlər mahiyyətcə təkmilləşir. Onların hafizəyə həkk olma prosesi gedir.Təlim prosesi tərbiyəçinin fəaliyyəti ilə uşaqların fəaliyyətini özündə cəmləşdirir. İki tərəfin

fəaliyyətinin qarşılıqlı əlaqəsi nəticəsində gerçəkliyin dərk edilməsi prosesi həyata keşirilir.

Gerçəkliyin uşaq tərəfindən dərk edilməsi daimi prosesdir. Təlim isə vaxtaşırı,müntəzəm və plana uyğun şəkildə aparılır.Biliklər uşaqlar tərəfindən deyildiyi kimi mənimsənilir. ” İdrak prosesi” və “ təlim” yaxın anlayışlardır,lakin aşağıdakı kimi fərqləri vardır.

1. Idrak prosesində gerçəklik müstəqil şəkildə,təlim isə uşaq və tərbiyəçinin iştirakı ilə dərk olunur ( tərbiyəçinin tərbiyəediciliyi əsasında).

2. İdrak prosesində heç kəsə məlum olmayan dərk edilir. Təlim prosesində isə bəşəriyyətə məlum olan,lakin uşağa bəlli olmayanlar ğyrədilir.

3. İdrak prosesi hər hansı bir təbii şəraitdə də aparıla bilər,lakin təlim prosesi qrup otağında və ya digər qabaqcadan nəzərdə tutulmuş şəraitdə aparılır.

4. İdrak prosesində biliyin dərk olunması illərlə davam edir,təlim prosesində isə biliklər müəyyən vaxt daxilində qəbul olunur.

5. Idrak prosesində yanlış nəticələr ola bilər.Təlim prosesində isə ancaq təcrübədə yoxlanılmış biliklər öyrədilir.

Uşaq bağçasında təlim uşaqları hərtərəfli inkişaf etdirmək,yəni onların dnyagörüşünü günişləndirmək,zehni inkişafını tədricən yüksəltməkdir. Məktəbəqədər yaşlı uşaqların mənimsəyəcəkləri bilik və vərdişlərin həcmi uşaqların inkişaf və dərketmə xüsusiyyətləri ilə bağlıdır. Ayrı-ayrıyaş qruplarında uşaqlar təlim prosesində vaxt və hadisələrlə əşyaların forması,rəngi və işlədilmə yeri haqqında,həmçinin təbiətin canlı və cansız obyektləri ilə tanış edirlər. Bununla bərabər öyrəndikləri fakt və hadisələrin arasındakı mövcud qxşarlıqları,fərqləri.asılıqları,həmçinin münasibətləri öyrənirlər. Uşaqlar cəmiyyətdə baş verən hadisələrlə,yaşlıların əməyi ilə doğma diyarla tanış edilirlər. Bu tanışlıq onlarda münasibət və davranış mədəniyyəti tyərbiyə edir.

Uşaqlar təlim prosesində cəmiyyətdə baş verən dəyişikliklər haqqında da məlumatlar alırlar. O cümlədən respublikamızın müstəqilliyi uğrunda şəhidlik qazanmış həmvətənlərimiz haqqında,Ulu ğndər Heydər Əliyev haqqında məlumatlara yiyələnirlər. Ölkəmizdə onların xöşbəxt yaşamaları üçün dövlət qayğısı haqqında

məlumatlara yiyələnirlər.Uşaqlar həmçinin ölkə prezidenti İlham Əliyev haqqında da,onun əmək və rəşadətinə dair məlumatlar alırlar.

Müxtəlif yaş qrupları üzrə uşaqlar təlim prosesində canlı və cansız təbiətin fakt və hadisələri haqqında biliklər qazanırlar. Bitkilərin yetişdirilməsi,heyvanların həyatı haqqında bəzi biliklərə yiyələnirlər. Onlarda təbiəti müşahidə və bu əsasda təbiətdə baş verən gözəlliyi qavramaq və sevmək bacarığı tərbiyə olunur.Uşaqlar həmçinin təsviri fəaliyyətdə müxtəlif biliklərə və vərdişlərə yiyələnirlər.Təlim nəticəsində uşaqların təfəkkürü,nitqi inkişaf etdirilir. Onlarda düşünmə qabiliyyəti ,əşya və hadisələrdəki oxşarlığı və fərqli cəhəti görmək bacarığı tərbiyə olunur. Məktəbəqədər yaşlı uşaqlar elementar musiqiqabiliyyətinə yiyələnir, yəni sadə melodiyaları mənimsəyir,bir –birində fərqləndirir, nəğmə oxuyur, rəqs edirlər. Bağça yaşlı uşaqlar müxtəlif məşğələlərdə davranış mədəniyyətinə yiyələnirlər,onlarda düzgün yerimək, qacmaq və bu kimi hərəkətlərin təşəkkülü baş verir. Bu məqsədlə musiqi, idman və hərəkətli oyunlar kimi məşğələlərdən istifadə olunur.

3. Pedaqoyi innovasiya özünün dəyişməsində istiqamətin təhlil sitemindəki stabil elementlərin yeniləşməsində, sistemin ayri-ayri hissələrinin və normarivlərinin yaxşılaşdırılmasında innovasiyanın müəyyən edilmiş mövcud təsnifatı aşağıdakı kimidir :

1. Fəaliyyət sahəsinin növlərində: pedaqoji prosesin təkmilləşməsi istiqamətinin təmin edilməsi;
2. Idarəetmədə dəyişikliyin xarakteri: əsaslandırılmış radikallığın yeni idarəetmə yolunun məlim elementlərlə birləşdirilməsi,modifikasiyası ( şəklini dəyişdirmək) etməklə, təkminləşdirməklə mövcud formanı daha mühüm forma ilə əvəz rtmək və tərzi yaratmaq;
3. Dəyişikliyin əhatə dairəsi; lokal,bir-birindən asılı olmayaraq ayri bir istiqamətdə,yaxud onun kompanentlərində aparılan dəyişiklik modeli,bir-birinə bağlı olan istiqamətlərdə bir neçə lokal pedaqoji innovasiyalar sistemli yoxlanılmış, dolğun rekonstruktor sisteminin quraşdırılması.
4. İstifadə dairəsi: təkbətək,diffuz formada.

5. Innovasiya təliminin yeni modifikasiyası: təlim materialı üçün işlənmiş innovasiya,hətta yeni vasitə metod,texnalogiya proqramında da özünü göstərir. İnnovasiya prosesi kompleks fəaliyyətdir ki, bura yaratmaq,mənimsəmək,istifadə etmək,yeniliyi geniş yaymaq daxildir;

6. Predmet üzrə yeniləşmə:

- Məktəbəqədər təhsilin məzmununda;
- Öyrədici texnalogiyada;
- Təlim prosesinin mövcud şəraitində.

Pedaqoji sistem şəxsiyyətin formalaşmasına təsir edən düzgün təşkil olunmuş vasitə,metod və prosesləri özündə birləşdirir. Hər hansı pedaqoji sistemi görürsək onun qarşısında üç sual durur: nə üçüməqsəd, nə-məzmun və necə-metod.

Pedaqoji sistemin təsnifatının əsasında uşağın tərbiyəsi və demokratik konsepsiya durur: nə üçün öyrədirik-məqsəd;

Nəyi öyrədirik-məzmun

Necə öyrədirik-metod.

4. Pedaqoji texnalogiyadan 1950-ci illərdə uşaq bağcalarında istifadə olunmağa başlanılmışdır.pedaqoji texnalogiya təhsil siteminə öyrədici kimi daxil olmuşdur. Pedaqoji texnalogiya təhsil sisteminə öyrədici kimi daxil olmuşdur.Pedaqoji texnalogiya uşağın təlim fəaliyyətindəki nailiyyətləri və inkişafı ücün zəruridir. Pedaqoji texnalogiyada innovasiya təlim və tərbiyə sitemində variantlılığı ilə, özünəməxsus spesifikasına görə fərqlənir və praktikada özünü göstərir.O özündə pedaqoji ustalığın səviyyəsini və yaradıcılığı əks etdirir. Pedaqoji sistem və onun texnalogiyası sosial sifarişlə, pedaqoji-psixoloji elmin səviyyəsi ilə, kadr potensialı və işçilərlə bağlıdır.

Təlimdə bir sıra metodlardan istifadə edilir.

1. Fokal metod: fokal ( foks-şəkil ) əetoda əsasən uşağın diqqəti *obyektin foks ( mərkəzinə) nöqtəsinə yönəldilməlidir.Mərkəz diqqətdə olur. Bu metod pedaqoji işin qarşısında aşağıdakı vəzifələri qoyur.

- öyrənilən reallıqdan fərqli olaraq yeni, onun digər tərəfi ( reallıqdan fərqli) haqqında fikirləşmək;

Uşaqların əvvəllər aldığı biliyi ya möhkəmləndirmək,yaxud da yeni biliklər vermək;

- əşyanı qeyri-adi formada göstərmək;

nağıl və ya hekayə ilə tanış etmək;

- obyektə baxmadan onu tanış tərəfdən dəqiq müəyyənləşdirmək.

Bu metodlarla müxtəlif növ məşğələlər aparılır, ayrı-ayrı yaş qruplarında obyekt kimi şəkillər göstərilir.Uşaqlar həmin şəkillər üzərində nağıl və ya hekayələr düzəldirlər.

2. Pedaqoji axtarış: Pedaqoji axtarış uşaqların təlimində ən zəruri vasitədir. Tərbiyəçi hec zaman uşaqlara hazır biliklər verməməlidir.O, calışmalıdır ki, uşaq özü öz sualının cavabını tapsın. Uşağın verdiyi suala dərhal cavab vermək lazım deyil. Əksinə uşağa yardımçı suallar verilir ki, o, yenidən həmin sual haqqında fikirləşsin və nətiçəyə gəlsin. Elə etmək lazımdır ki, uşaq öz sualının cavabını tapmağa səy göstərsinvə buna nail olsun.Tərbiyəçi pedaqoji fəaliyyətində, o cümlədən təlim prosesində problem situasiya yaratmalıdır ki,uşaq fikirləşsin.

3. Tərbiyəçi bəzən ikili xarakter daşıyan suallara müraciət edir. Belə ki, bir-birinə əks olan fikirlərlə uşağın intellekt səviyyəsini qaldırır. Məsələn: qar yağır,uşaqlar oynayır; qar soyuqdur,insanların üşüməsinə səbəb olur və s.tərbiyəçi yeri gəldikdə uşağın diqqətini suallarda hadisənin ikili tərəfinə cəlb edir. Bu zaman mühakimə yürütmə qabiliyyəti inkişaf edir.

4. Əksliyin ( yaxşı və pis) uşağın diqqətinə catdırılması.

Əksliyin yaxşı və ya pis tərəfi hələ xalq nağıllarından məlumdur.Məsələn “ Cırtdan” xalq nağılında göstərilir ki, div uşaqlara yemək verir. Digər tərəfdən onları yemək üçün təşəbbüs göstərir. Burada işin ikili xarakteri uşaqlara çatdırılır.

**Fəallaşdırıcı təlim**. Son dövrlərdə məktəbəqədər yaşlı uşaqların təlimi ilə məşğul olan tərbiyəçiləri təlimin qeyri-standart keçirilməsi və onun üstünlüyü düşündürür. Yeni təlim sisteminin işlənilməsində əsas məqsəd uşaqlara biliklərin daha effektli səviyyədə çatdırılmasıdır. Uşaqların intellektini yüksəltmək üçün tərbiyəçi onlara verəcəyi biliklərin pedaqoji və psixoloji sahələr üzrə ən son materialların öyrənməli və iş fəaliiyətinə tətbiq etməlidir.

Uşaq bağçasında yeni fəallaşdırıcı təlim vasitələrindən istifadə edilir:

1. əqli-hücum- şüurlu dərk etmə fəaliyyətidir.əqli hücum təlim vasitəsi olmaq etibarı ilə yuxarı yaş qruplarında daha çox istifadə olunur.Təlim prosesini təkminləşdirmək məqsədi ilə mövzu secimınə uşaqların diqqəti cəlb olunur. Bu məqsədlə uşaqlara suallar verilir. Suallar tərtib edilərkən uşaqların əvvəlcədən əldə etdikləri bilik və bacarıqlara əsaslanır. Yönəldici suallar verilir.beləliklə.nəzəri araşdırma və evristik üsul tətbiq edilir.Nəticədə günün mövzusu, məqsədi özü tərəfindən müəyyən olunur. Fəallaşdırıcı təlimi vasitə kimi ( əqli hücumdan) istifadə edərkən uşaqların yaş və inkişaf xüsusiyyətləri nəzərə alınır.

2. Rollu-oyunlar- uşaqlara mövzunun planından asılı olaraq bilik və bacarıqlar verir. Rollu oyunların tətbiqi pedaqoji işə səmərəli təsir göstərir. Məsələn: sərbəst rəsm məşğələlərində " rəssam",yapma məşğələlrində " heykəltəraş", quraşdırma məşğələlərində isə uşaq " bənna" roluna girir və yaradıcı fəaliyyətdə olur. Belə oyun xarakterli sərbəst təlim prosesində uşaqlarda yaradıcı təlim fəaliyyəti inkişaf edir. Uşaq ciddi təlim prosesində özünü yaradıcı insan hesab edir və müstəqil fəaliyyət göstərir.Məşğələnin sonunda mövzu haqqında uşaqlar tərəfindən sərbəst olaraq fikir söylənilir.tərbiyəçinin istiqamətləndirici cəhdləri ilə uşaqlarda müəyyən iş fəallığı yaranır ki,sona kimi proses maraqla davam edir və nəticə alınır.

3. Qrup və yarım qruplar-hər yarın qrup üzrə seçilmiş lider qrupun işi haqqında izahat verir. Daha səliqəli işləyən yarımqrup mükafatlandırılır. Bu tip məşğələlərdə ən tənbəl,ən zəif uşaq belə fəal olmağa çalışır və qələbə qazanır. Məşğələdə yüksək nəticə əldə edilirvə iş effekvermiş olur.

4. Məşğələlərdə yaradıcı " səs-küy " fəallaşdırıcı təlim prosesində istifadə edilir.Belə ki, tərbiyəçi yeni mövzunu izah etdikdən sonra uşaqlara keçmiş mövzu ilə əlaqədər yönəldici suallar verir. Eyni zamanda mövzunun mənimsənilmə səviyyəsini aydınlaşdırarkən onların fikirlərini öyrənmək məqsədi ilə həmin prosesi təşkil edir. Digər halda yeni mövzu ilə verilmuiş tapşırığı icra etmək ücün qruplara bölünmüş uşaqlar öz fikirlərini yoldaşlarına danışır və sonda qrupun ümumi nəticəsi ilə tanış olunur.

**Mövzu:12. Uşaq bağcasında pedaqoji prosesin təşkili.**

**PLAN:**

1. Təlim məşğələsinin təşkili formaları.
2. Məşğələlərin rejimi.
3. Məşğələdə uşaqlara verilən tələblər.
4. Tərbiyəçinin məşğələyə hazırlığı.

**Ədəbiyyat:**


1. A. Həzənov. Məktəbəqədər pedaogika. Bakı-2000.
2. R.Mursaqulova. N. Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.
3. S.Abdullayeva. Tərbiyəçinin stolüstü kitabı. Bakı-2008.
4. Uşaq bağcası. Maarif nəşriyyatı. -1988
5. Məktəbəqədər yaşlı uşaqlar üçün Müntəxabat. Bakı-2000.
6. Məktəbəqədər təhsilin yeni məzmunun xüsusiyyətləri. ( Metodik tövsiyə) Bakı-2014.
7. Azərbaycan Respublikasında Məktəbəqədər təhsil proqramı ( Kurikulumu) ,( 3-6 yaş) Bakı-2014


1.Tərbiyəçi uşaqları gün ərzində təlim məşğələlərinə cəlb etməklə onların biliklərini zənginləşdirir,onlarda müxtəlif bacarıq vərdişləri formalaşdırır. Uşaqların danışıq nitqini formalaşdırmaq üçün tərbiyəçi onları müxtəlif tədbirlərə qoşur.

Təlim məşğələsi bütün məktəbəqədər yaşlı uşaqlar ücün məçburidir. O. Proqram materialının məzmununu özündə düzgün əks etdirir.gün rejiminin düzgün həyata keçirilməsinə kömək edir. Məşğələ tərbiyəçinin rəhbərliyi altında həyata kecirilir. O, məşğələ zamanı uşaqlara yeni bilik çatdırır,onu sistemə salır və dəqiqləşdirir,praktik işləri həyata kecirir.

Uşaq bağçasında kecirilən təlim məşğələlərinin əsas vəzifəsi uşaqları məktəb həyatına hazırlamaqdır. Müntəzəm kecirilən təlim məşğələləri uşaqlarda öyrənmə marağını formalaşdırır.

Təlim məşğələləri zamanı uşaqlarda məktəbə həvəs və maraq güclənir,düzgün təlim vərdişləri formalaşır,onların xarakterində məsuliyyət hissi və dözümlülük kimi iradi keyfiyyətlər yaranır.

Uşaq bağcasında tərbiyə və təlim işlərinin planlaşdırılması vacib bir məsələdir və bunun həyata kecirilməsi müdirin,metodistin,tərbiyəçinin fəaliyyətindən çox asılıdır. Planlaşdırma uşaq bağ çasında tərbiyə və təlim işlərini pedaqoji,elmi

vəmetodiki cəhətdən  düzgün , mövcud şəraitə uyğun olaraq müntəzəm və ardıcıl həyata keçirilməsi  nəzərdə tutulan  nəzəri və əməli işlərə deyilir.

Planlaşdırmada “ Məktəbəqədər müəssələrdə tərbiyə və təlim proqramı” əsas sənəd  kimi nəzərə alınır. Azərbaycanda da dünya məktəbəqədər  pedaqoji nəzəriyyələrinin məzmunundan ,başlıca müddəalarından  səmərəli  istifadə edilir.

Uşaq bağcalarında  işin planlaşdırılmasında uşaq şəxsiyyətinin kiçik yaşdan hərtərəfli inkişafı,sosial mühit  və  tərbiyə faktorlarının dialektik imkanı  nəzərə alınmalıdır.

İnkişaf üçün həlledici faktor olan tərbiyə  prosesi işaqlarda  yaş  və anlaq səviyyəsinə  uyğun  müəyyən ictimai , tarixi, təcrübi biliyi,əqli  və əməli vərdişləri, bacarıqları .əxlaqi və estetik görüşləri  formalaşdırırr. Tərbiyə prosesinin məzmunu isə qabaqcadan proqram  xarakterli planlaşdırmada öz əksini tapır.

Tərbiyəçi fəaliyyətini planlaşdırarkən ümumi  psixoloji və pedaqoji qanunauyğunluqlara əsaslanmalı, uşaqların yaşı və fərdi  xüsusiyyətləri nəzərə alınmalıdır.

Uşaqların psixi, fizioloji və ictimai inkişafı obyektiv qanunauyğunluqdur və tərbiyə prosesinin  məzmunundan və onun həyata keçirilməsindən çox asılıdır.

Uşaqların tərbiyə- təlim işlərinin planlaşdırılması və həyata keçirilməsində klassik pedaqoqların, Azərbaycanın  görkəmli  maarif  xadimlərinin  fikirlərindən, islam dininin mənəvi dəyərlərindən  və milli  ənənələrdən geniş istifadə olunmalıdır.

Planlaşdırma uşaq bağçasında tərbiyə və təlim işlərini pedaqoji, elmi və metodiki cəhətdən düzgün, mövcud şəraitə uyğun olaraq müntəzəm və ardıcıl həyata keçirilməsi nəzərdə tutulan nəzəri və əməli işlərə deyilir. Planlaşdırmada “Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı” əsas sənəd kimi nəzərə alınır.

Plan tərbiyə işlərinin vəzifəsini, fəaliyyətinin əsas növlərini, onların həyata keçirilməsi yollarını, müəyyən vaxt çərçivəsində icrasını əhatə edir. Onda tərbiyə və təlimin yerinə yetirilməsi üçün müxtəlif metod və vasitə tərzlərin qarşılıqlı əlaqəsi, uşaqların müxtəlif fəaliyyətinin uzlaşdırılması, tərbiyəçilərin təşkilatçılıq bacarığı,

fəaliyyətdə onların müstəqilliyini, kollektiv, qrup və fərdi şəkildə həyata keçirilən iş növlərini əhatə edir.

Planlaşdırmanın 2-ci funksiyası müəyyən zaman daxilində pedaqoji fəaliyyətin həyata keçirilməsidir. Uşaqlarla aparılan işin məzmununu, forma və metodlarını tədricən çətinləşdirmək, pedaqoji prosesin quruluşunda dəyişiklik yaratmaq da planlaşdırmada mühüm yer tutur. Bu funksiyanın icrasını planlaşdırarkən pedaqoji prosesə təşkilatşılıq və planauyğun xarakter vermək, tərbiyəçinin fəaliyyətində məqsədyönlülüyü və səmərəliliyi gücləndirməklə uşaqların formalaşmasında hərtərəgliliyi təmin etməkdir.

Uşaq bağçasının tərbiyə və təlim işlərini planlaşdırılmasının səmərəliliyi aşağıdakı tələblərə əməl olunmasından asılıdır:

1. Planlaşdırma uşaqlarla aparılan işin ideya istiqamətini müəyyənləşdirməlidir. Təlim-tərbiyə işləri uşaqların yaşına və anlaq səviyyəsinə uyğun olaraq müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin məzmununu özündə əks etdirməlidir. Uşaq həyatının mahiyyəti, məzmunu, uşaqla aparılan tərbiyə işlərinin metod və tərzləri onların hərtərəfli inkişafına xidmət etməlidir. Planda birinci növbədə uşaqların əxlaqi cəhətdən formalaşdırılması nəzərdə tutulmalı, onun fəallığı, müstəqilliyi təmin edilməli, uşaqların mədəni davranış qaydalarına yiyələnməsi həyata keçirilməlidir.

2. Planlaşdırma pedaqoji prosesin təşkilini tam əhatə etməlidir. Planda kollektiv işlə fərdi işin uzlaşdırılmasında səmərəlilik nəzərə alınmalıdır.

3. Tərbiyə işlərinin planlaşdırılması zamanı pedaqoji tələblərə ciddi diqqət yetirilməlidir. Planlaşdırma zamanı tərbiyə və təlim işlərinin məzmunu, uşaq fəaliyyətinin təşkili formaları, onlara rəhbərlik, pedaqoji prosesin tədricən çətinləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

4. Planda bağça rəhbərliyinin fəaliyyəti tam və real əhatə olunmalıdır. Plan uşaq maraqlarının nəzərə alınması baxımından da real olmalıdır.

2. Uşaq bağcasında nitq inkişafı, ictimai mühitlə tanışlıq, savad təlimi, riyaziyyat, rəsm, gil və aplikasiya işi, quraşdırıcılıq, bədən tərbiyəsi və musiqi məşğələləri həyata kecirilir. Məşğələlərdə təlim işi uşaqlardan ciddi fiziki və əqli gərginlik tələb

edir ki, bu da uşağın fəallığı ilə həyata keçirilir. Onlar çalışırlar ki, öz fəaliyyətlərində müəyyən nəticə əldə etsinlər.

Təlim məşğələlırini günün birinci yarısında həyata kecirmək daha məqsədə müvafiqdir.vaxt uşaqların əqli fəaliyyəti daha güclü olur. Təlim m

əşğələləri uşaqların yaş üzrə daxil olduğu qrupdan asılı olaraq müxtəlif formada təşkil olunur.

Məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin planlaşdırılması “Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı” nda öz məzmununu tapır. Burada görülən işlərin məzmunu, işin təşkili, uşaqlara mədəni-gigiyenik vərdişlərin aşılanması, asudə vaxtın təşkili, ailə ilə işin növləri və xarakteri öz ifadəsini tapır.

Təlim işlərinin planında həyata keçiriləcək işlərin məzmunu onun bölmələrində ətraf mühitlə tanışlıq və nitq inkişafı, sadə riyazi təsəvvürlərin inkişaf etdirilməsi, rəsm, yapma, quraşdırma, musiqi tərbiyəsi, fiziki mədəniyyət öz ifadəsini tapır. Məşğələlərin planlaşdırılmasında uşaq bağçasının konkret şəraiti və qruplar üzrə uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınır. Planda biliyin məzmununu təkrarla möhkəmləndirmə və tədricən çətinləşdirmə nəzərdə tutulur. Bütün mövzular üzrə əlaqələndirmədə uşaqların marağına fikir verilməlidir. Onlar uşaqların zehni inkişafına kömək etməlidir. Tərbiyəçi ayrı-ayrı uşaqlarla və ya qrupla məşğələdən kənar işlərdə didaktik oyunlardan, didaktik materiallardan istifadə etməlidir.

Davranış və mədəni-gigiyenik vərdişlər tərbiyəsinin planlaşdırılması bütün fəaliyyət prosesində nəzərdə tutulur. Buna baxmayaraq ayrı-ayrı əxlaqi keyfiyyətlər üzrə vərdişlərin formalaşdırlması - ətraf adamlarla nəzakətli və mədəni davranmaq, mədəni-gigiyenik vərdişlərə yiyələnmək, özünəxidmət vərdişləri və s. gün ərzində uşaqların fəaliyyətdə olması diqqət mərkəzində olmalıdır.

Uşaqların oyunlarına rəhbərliyi planlaşdırarkən tərbiyəçi oyunları, onların məzmununu, həyata keçirilməsi yollarını mükəmməl bilməlidir. Oyun zamanı uşaq kollektivinin təşkili və tərbiyəsinə də ciddi diqqət yetirilməlidir. Bu məqsədlə o, qabaqcadan müəyyən etməlidir ki, keçiriləcək oyunda kollektiv nə qədər müstəqil olacaq, oyundan necə istifadə ediləcək, oyun prosesində uşaqlar əxlaqi və fiziki

cəhətdən nəyə yiyələnəcəklər və s. Tərbiyəçi oyun prosesində uşaqların müstəqilliyinin inkişafı və qorunmasına ciddi diqqət yetirməlidir.

Əmək fəaliyyətinin planlaşdırılması onun həyata keçirilməsinin təşkili ilə sıx bağlıdır. Bütün qruplarda əməyin təşkilində tapşırıqlardan geniş istifadə olunur. İş planında tərbiyəçinin yeni tapşırığın məzmununu qeyd etməsi məqsədəmüvafiqdir. Bu zaman tapşırığı icra edən uşağın adı konkret müəyyən olunmalıdır. Tərbiyəçi planda o uşaqları qeyd edir ki, onlar tərbiyəçinin bilavasitə nəzarəti altında olurlar.

Tərbiyənin mühüm vasitələrindən biri olan bayram şənliklərinin keçirilməsi dürüst planlaşdırılmalıdır. Gündəlik planda tərbiyəçi bayramla əlaqədar keçirəcəyi tədbirlər, məşğələlər haqqında qeydlər edir, bayramın əhəmiyyətini göstərir.

Valideynlərlə iş planında isə valideynlərlə işin növləri, keçirilmə vaxtı və qısa məzmunu əks etdirilir, valideyn yığıncaqlarının keçirilməsi, məsləhətlər, uşaqların evinə gediş, məşğələlərdə valideynlərin iştirakı və s. nəzərdə tutulur.

**3**. Məşğələ zamanı tərbiyəçi uşaqlara tələb verərkən onların yaşını və anlaq səviyyəsini nəzərə almalıdır. Qeyd etdiyimiz kimi, kiçik qrupda məşğələlər yarımqruola keçirilir. Bir yarımqrup məşğələdə olanda, digər yarımqrup koməkçisinin nəzarəti altında oyuncaqlarla oynayır. Tərbiyəci çalışmalıdır ki, hər bir uşaq məşğələdə fəal olsun. Suallara cavab versin, adı çəkilən əşyanı göstərsin.şəkil çəksin.appilikasiya işi görsün.

Təlim prosesində məşğələlır tədricən çətinləşir.uşaqlar məşğələlərin qaydalarına yiyələnir.düzgün oturur,diqqətlərini yayındırmırtərbiyəçi və yaşlıları diqqətlə dinləyir, ancaq tərbiyəcinin icazəsi olduqda cavab verir,cavab verərkən ayağa durur.

Tərbiyəçi çalışmalıdır ki, uşaqlar tədricən mədəni vərdişlərə yiyələnsinlər.Məşğələ zamanı vərdişlərin yaranması üçün hər bir uşağa düzgün yanaşmaq cox vacibdir. Bu məqsədlə tərbiyəci uşaqlara nüfuzla təsir etməyə çalışır,sonra özü isə yüksək tələbkarlıq və nümunə göstərir,uşaqlardan da belə etməyi tələb edir.Bu zaman uşaqlarda intizam vərdişləri nümunə üzərində yüksəlir,təlim məşğələsinin təsiri və yüksək tələbkarlığı zəminində intizam yaranır.Yaranmış bu mədəni vərdişlər uşaqların məktəbə hazırlığında müstəsna rol oynayır.

Uşaq bağçasında təlim-tərbiyə işləri üç formada planlaşdırılır:

a) uşaq bağçasının illik planı;

b) perspektiv plan;

c) tərbiyəçinin təqvim planı.

İllik plan uşaq bağçasının bir ildə görəcəyi işləri əhatə edir. Orada müdriyyətin işi və təsərrüfat məsələləri, kadrlarla iş, uşaqlarla həyata keçirilən tərbiyə və təlim işlərinə aid metodiki tədbirlərə xüsusi əhəmiyyət verilir. Başlıca yeri uşaqlarla həyata keçirilən tərbiyə və təlim işləri təşkil edir. Keçən ilin bu sahədə həyata keçirilən tədbirləri təhlil olunur, müsbət və nöqsanlı cəhətlər göstərilir, bundan çıxış edərək qarşıdakı ildə həyata keçiriləcək tədbirlər həm ümumbağça, həm də qruplar üzrə nəzərdə tutulur. İllik planda tərbiyəçilərin metodik işlərinin məzmunu, pedaqoji şuranın tematikası, məsləhətlər, valideynlərlə işin məzmunu və s. öz əksini tapır. İllik planın tərtibində müdirin rəhbərliyi altında tərbiyəçilər, metodist və tibb işçiləri iştirak edir, ümumi iclas planı təsdiq edirlər.

Perspektiv planlaşdırmanın məqsədi uşaqlarla aparılan tərbiyə təlim işlərinin sistemini müəyyən etmək və tərbiyə prosesində inkişafın məqsədyönlü və səmərəliliyini, istiqamətini düzgün təyin etməkdən ibarət olur. Perspektiv planda "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" nın qarşıya qoyduğu məsələlər əhatə olunur. Bu məqsədlə proqramda aşağıdakılar nəzərdə tutulur: a) uşaqların davranışına aid əsas məsələlər daxil edilir; b) təlimə aid bölmələr ardıcıllıqla sadalanır və qarşıya qoyulan məqsəd qeyd olunur; c) oyun və əməyin həyata keçirilməsi metodikası, məqsəd və vəzifələri, o cümlədən, yeni oyuncaq və digər avadanlıq və s. qeyd olunur.

Uşaq bağçasında kiçik qruplar üzrə perspektiv planın olması zəruri deyil. Böyük qruplarda perspektiv planın olması vacibdir. Çünki bu plan əsasında tərbiyəçi öz iş təcrübəsinin ümumi nəticəsini müəyyənləşdirir.

Məktəbəqədər yaşlı uşaqların böyük qrupunda təqvim planı 10-12 gün müddətində "Məktəbəqədər müəssisələrin tərbiyə və təlim proqramı" nın tələbləri və bağçanın illik iş planı əsasında tərtib olunur. Təqvim planı üzrə məşğələləri planlaşdırarkən tərbiyəçi proqramın qarşıya qouduğu vəzifələri nəzərə almalıdır. Məşğələ təlim prosesi üçün aparıcı formadır, buna görə də o bütün yaş qruplarında

təşkil olunur. Kiçik qruplarda səhər və axşam, orta və böyük qruplarda ancaq axşamlar belə məşğələlər aparıla bilər. İki məşğələ keçirilən qrupda təlim səhər fasiləsindən sonra aparılır. Onun uzlaşdırılması üzərində diqqətlə düşünmək lazımdır. Ciddi əqli gərginlik tələb edən məşğələ ( nitq inkişafı və riyaziyyat üzrə) birinci planlaşdırılıb keçirilməli və hərəkət məşğələləri ilə ( bədən tərbiyəsi, musiqi məşğələsi və s.) uzlaşdırılmalıdır.

Plan məşğələnin gedişi zamanı onun strukturunu əks etdirməlidir. Çoxlu məşğələ böyük hazırlıq işi aparmağı tələb edir. Bu da planda öz ifadəsini tapmalıdır. Məşğələnin keçirilməsində hansı üsul və vasitələrdən istifadə ediləcəyi qeyd olunmalı, eləcə də məşğələ üçün hansı əlavə materiallar gətiriləcəyi müəyyənləşdirilir. Mürəkkəb məşğələ üçün icmal tərtib etmək lazımdır.

**4.** Məşğələnin keyfiyyətli və mütəşəkkil keçməsi tərbiyəçinin hazırlığından çox asılıdır. Tərbiyəçi məşğələnin gedişinin bütün təfərrüatını qabaqcadan düşünməli,onun ücün ayrılmışvaxtdan səmərəli istifadə etməlidir.Tərbiyəçinin hazırlığı məzmunca aşağıdakıları əhatə etməlidir. Tərbiyəçinin hazırlığı məzmunca aşağıdakıları əhatə etməlidir: məşğələni planlaşdırmaq,onu əyani vəsaitlə təchiz etmək və uşaqları məşğələyə hazırlamaq.

Böyük qrup uşaqları ilə işin əsas təşkili forması perspektiv planlaşdırmadır. O birinci və ikinci ildə əsası qoyulan fiziki, psixi-fizioloji inkişaf üzərində qurulur. Perspektiv plana tibbi-pedaqoji yığıncaqda baxılır. Belı yığıncaqda həkim, tərbiyəçi, metodist-tərbiyəçi və müdir iştirak edir. Yığıncaqda hər bir uşağın sağlamlığı müzakirə olunur. Bu zaman inkişafı ləngimiş uşaqlara xüsusi fikir verilməlidri. Hər qrup üçün perspektiv plan aşağıdakı bölmələr üzrə işlənilir: 1. fiziki tərbiyə və uşaqların sağlamlığının möhkəmləndirilməsi; 2. uşaqların psixi-fisioloji inkişafının məzmunu; .uşaqların müstəqil fəaliyyətinin ümumi məsələləri üzrə valideynlərlə iş.

Erkən yaş dövründə uşaqlarla işin planlaşdırılmasında əsas diqqət uşaqların sağlamlığının möhkəmləndirilməsi və fiziki tərbiyəyə yönəlir. Bu plana müvafiq olaraq iş aşağıdakı qaydada qurulur: a) uşaq üçün rejimin tərtibi; b) müəyyən edilmiş vaxt üçün uşaqlara gigiyena xidmətinin müəyyən edilməsi; c) möhkəmləndirici masajın qəbul edilməsi; e) hərəkətlərin normal inkişafını təmin etmək. Həyatın birinci

ilində uşağın psixi-fizioloji inkişafını təmin etmək və gümrahlıq yaratmaq üçün təmrinlərin plana daxil edilməsi yüksək əhəmiyyət kəsb edir. Bununla yanaşı, uşaqlara hansı oyuncaqların verilməsi və onların harada yerləşdirilməsi göstərilir. Birinci ilin sonunda döşəmə üstündə fəal oyun hərəkəti üçün şərait yaradılır. Gün ərzində 3-4 qısa məşğələ planlaşdırılır ki, onun hər biri 10 dəqiqədən artıq vaxt aparmamalıdır. Axşam fasiləsində oyun və əyləncəli tədbirlər həyata keçirilir. Uşağa əvvəlcə bir oyuncaq verilir, sonra o başqa oyuncaqla əvəz olunur.

Erkən yaşlı uşaqların ikinci ilində perspektiv plan üzrə aşağıdakı vəzifələr həyata keçirilir: a) fiziki tərbiyə, uşaqların sağlamlığının təmin edilməsi, psixi-fizioloji inkişafın normal həyata keçirilməsi; b) fiziki inkişafı təmin edən hərəkətlərə diqqətin artırılması. bu məqsədlə hərəkətlərin inkişaf etdirilməsinə aid xüsusi məşğələ təşkil olunur, möhkəmləndirici tədbirlər keçirilir və müstəqillik vərdişləri aşılanır.

Uşaqların ümumi psixi-fizioloji inkişafı ilə əlaqədar perspektiv planda nəzərdə tutulan işlərin istiqaməti daha dəqiq formada konkretləşdirilir

a) ətraf mühitlə tanışlıq imkanının genişləndirilməsi və nitqin inkişafı;

b) əşyalarla davranış imkanının genişləndirilməsi;

c) uşağın müstəqil oyun fəaliyyətinin inkişafı;

e) yaşıdları və böyüklərlə ünsiyyətə girmək qabiliyyətinin formalaşdırılması.

Perspektiv plan üzrə tərbiyəçi həftəlik plan təırtib edir, bu zaman uşaqların yaş qrupu nəzərə alınır.

## Mövzu 13. Məktəbəqədər yaş dövründə şəxsiyyətin inkişafı və tərbiyəsi.

**Plan :**

1. İnsan şəxsiyyətinin sosial mahiyyəti haqqında
2. Şəxsiyyətin formalaşmasında irsiyyətin mövqeyi
3. Şəxsiyyətin formalaşmasında mühitin rolu
4. Şəxsiyyətin formalaşmasında tərbiyənin rolu
5. Məktəbəqədər yaş dövründə tərbiyənin vəzifələri

## ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Ə.Seyidov. Pedaqogika tarixi, Bakı, 1968.
4. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
5. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
6. R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

**1**. Şəxsiyyət anlayışı fəlsəfə, sosiologiya, estetika, etika və s. elmlərlə yanaşı pedaqogikanın da tədqiqat obyektinə daxildir. Bu problemi şəxs və fərd anlayışı ilə eyniləşdirmək olmaz. Şəxs bioloji və sosioloji xüsusiyyətlərin birliyidir. Şəxsiyyət isə adamın malik olduğu yalnız sosioloji keyfiyyətlərin məcmusudur. Bu keyfiyyətlər təbii və ictimai amillərin, eləcə də tərbiyəvi təsirlərin sayəsində təşəkkül tapır və inkişaf edir. Buna görə şəxsiyyətdən bəhs edən elmlərin hər biri onun müəyyən cəhətlərini öyrənir.

Adamlar malik olduqları fərdi xüsusiyyətləri və xarakter əlamətlərinə görə bir-birindən fərqlənirlər. Müxtəlif adamların, o cümlədən, uşaqların qabiliyyətlərini, maraq və meyllərini, əxlaqını müqayisə edərkən fərdi fərqlər daha aydın nəzərə çarpır. Bu xarici görünüşdə, daxili əlamətlərdə və dünyagörüşündə özünü daha qabarıq göstərir. Məsələn, uşaqların bəziləri hər hansı məsələnin izahını, söhbətin məzmununu tez başa düşdükləri halda, başqaları bunu bir qədər gec başa düşürlər. Bəzilərində hafizə məktəbəqədər dövrdə iti olur, digərləri öyrəndiklərini tez unudurlar. Bəzi uşaqlar ailədə yaşlılara qayğı ilə yanaşır, yaşıdları ilə mehriban və səmimi davranır, davranış qaydalarını gözləyir, digərləri isə əksinə, şıltaq və ərköyün olurlar.

Uşaqlar fiziki inkişafı və sağlamlığına görə də fərqli xüsusiyyətlərə malik olurlar. Səmərəli yemək, yatmaq, oyaq qalmağın düzgün təşkil olunması, habelə təmiz havadan, sudan, günəşdən istifadə edilməsi bütün ailələrdə eyni səviyyədə olmadığına görə, bəzi uşaqların səhhətində qüsurlar da nəzərə çarpır. Buna görə məktəbəqədər dövrdən uşaqların yeməyi düzgün təşkil olunmalıdır.

Uşaqların fiziki və zehni inkişafında yuxunun da özünəməxsus əhəmiyyəti vardır. Erkən yaşlı uşaqların gec və çətin yatması onların narahatlığına səbəb olur. Bu çox zaman əlverişli olmayan xarici şəraitin və düzgün olmayan tərbiyənin nəticəsində baş verir.

Şəxsiyyətin normal inkişafı üç mühüm faktorun təsiri ilə müəyyənləşdirilir. Bunlar aşağıdakılardır: tərbiyə, sosial mühit və irsi əlamətlər.

2. İrsiyyət nəzəriyyəsi orta əsrlərdə yaranmışdır. Bu dövrdə uşağın inkişafında irsiyyət əsas götürülür və belə hesab edilirdi ki, uşaq hər bir qabiliyyət və xasiyyəti hazır şəkildə ata və anasından irsən götürür. Bu nəzəriyyə orta əsrlərdə hakim olan dini əqidələrlə əsaslandırılırdı. Dini ehkamlara əsaslanaraq sübut etməyə çalışırdılar ki, hər hansı bir insan anadan olarkən taleyi alnına yazılır. Məsələn “Yazılanı pozmaq olmaz”, “Quyuya su tökməklə quyu sulu olmaz” və s. Sonrakı illərdə insan xarakterini irsi əlamətlərlə izah edən alimlər meydana gəldi. ABŞ-da E.Torndayk, C.Dyun və başqaları buna misal ola bilər. Torndayk yazır ki, orqanizmdəki genlər adamın həm fiziki, həm də əqli keyfiyyətlərini təyin edir.C.Dyunin əqidəsinə görə, uşağın inkişafı anadangəlmə instinkt və qabiliyyətlər əsasında mümkün olur.

Kapitalizmin inkişafı ilə əlaqədar irsiyyət nəzəriyyəsinə qarşı etirazlar gücləndi. XVII əsrdə böyük slavyan pedaqoqu Y.A.Komenski uşağın taleyində irsiyyətin rolunu şişirtməyə qarşı çıxır və hamının təhsil almağa qadir olduğunu və bu işdə müəllimin, tərbiyəçinin rolunu yüksək qiymətləndirirdi. XVIII əsrdə isə ingilis pedaqoqu C.Lokk “Ağ lövhə” nəzəriyyəsini irəli sürərək, irsiyyəti tamamilə inkar edir, tərbiyənin vəzifəsini həddindən artıq şişirdirdi. Lokka görə, uşaq doğolarkən onun beyni ağ lövhə kimi tərtəmiz olur. Rus mütəfəkkiri V.Q.Belinski Lokkun nəzəriyyəsinə qarşı çıxaraq qeyd edirdi ki, uşaq doğularkən onun beyni “ağ lövhə” deyil, orada təbii imkanlar mövcud olur. Onu da qeyd etmək lazımdır ki, təbii imkanlar hələ hazır qabiliyyətlər deyil, qabiliyyətlərin əmələ gəlməsi və inkişafı üçün xüsusi qüvvəyə malik olan bir varlıqdır. Məsələn, anadan doğulan uşaq nitq imkanı ilə doğulur. Yəni onun boğazının, dilinin, damağının quruluşu və eləcə də sinir sisteminin inkişaf səviyyəsi, danışmaq və danışılanı başa düşmək imkanına malikdir.

Eləcə də uşaq yazı yazmaq imkanı ilə doğulur. Çünki onun xırda əl əzələlərinin vəziyyəti, ağlının inkişaf səviyyəsi sonralar yazmaq qabiliyyətinin yaranamsı üçün imkan verir. Şübhəsiz, bütün təbii imkanların hamısı irsi olaraq nəsildən-nəslə keçir. Lakin bu o demək deyildir ki, hər şeyi həll edən irsiyyətdir. Uşaqlar doğularkən valideynlərindən zahiri fizioloji əlamətləri və psixoloji imkanları özləri ilə gətirirlər. Lakin bu keyfiyyətlərin şəxsiyyət səviyyəsində formalaşması üçün sosial amillər, ictimai mühit və tərbiyə prosesi xüsusi həlledici qüvvəyə malikdir. Deməli, irsiyyət vasitəsilə uşağa keçən hazır qabiliyyətlər deyil, hər uşağa məxsus olan ümumbəşəri təbii imkanlardır.Uşağın irsən gətirdiyi təbii fizioloji psixoloji imkanların qabiliyyətə çevrilməsi üçün şərait və tərbiyə həlledici əhəmiyyətə malikdir.

3. Şəxsiyyətin inkişafında mühitin də xeyli rolu vardır. Bu məfhum fərdin həyatı və inkişafın əlaqədar olduğu xarici şəraitin hamısını əhatə edir. Uşaq ictimai mühitdə doğulur, burada yaşayır, böyüyüb boya-başa çatır. İctimai mühitdə aparıcı yeri insanlar tutur. İctimai mühit analyışı insanların ictimai həyatını, cəmiyyətdəki ictimai münasibətləri, siyasi və mədəni həyatı və s. əhatə edir. Əlbəttə, uşaq bu mühitin təsirinə məruz qalır. Lakin fərdi xüsusiyyətlərdən asılı olaraq mühitin təsirinə müxtəlif formada məruz qalırlar. Yəni eyni mühit ayrı-ayrı uşaqlara müxtəlif şəkildə təsir göstərir.

Mühitin şəxsiyyətə təsiri haqqında məşhur pedaqoqların fikirlərində müəyyən fərqlər də vardır. Məsələn, fransız pedaqoqu J.J.Russonun fikrinə görə uşaqla uzun-uzadı söhbət aparmağın, onu öyüd-nəsihətlə yormağın mənası yoxdur. İstənilən əxlaqi keyfiyyəti uşaqda görmək üçün onu müvafiq mühitə salmaq lazımdır. Həmin mühit özü istədiyini uşağa aşılayacaqdır. Azərbaycan filosofu Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi sübut edirdi ki, insanın xasiyyəti irsi deyil, həyatda formalaşır. O qeyd edirdi ki, “Atası xristian olan uşağı müsəlman tərbiyə etsə, müsəlman olar”.Bu pedaqoqların üstün cəhəti onda olmuşdur ki, onlar şəxsiyyətin formalaşmasında irsiyyətə, fatalizmə qarşı çıxaraq mühitin təsirinə üstünlük vermişlər.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olaq: madam ki, insan mühitin təsirinə məruz qalır, onda mühit elə qurulmalıdır ki, insan orada həqiqi insanlığını dərk etsin, oradakı nəcib keyfiyyətləri özündə birləşdirə bilsin.

4. Bəşər tarixi praktik olaraq sübut etmişdir ki, şəxsiyyətin inkişafında tərbiyənin rolu əvəzsizdir. Əvvəlcədən düşünülmüş, planlaşdırılmış, məqsədyönlü təşkil edilmiş tərbiyə işi güclü təsir qüvvəsinə malikdir. Y.A.Komenski, K.A.Helvetsi, R.Ouen və bir çox başqaları şəxsiyyətin inkişafında tərbiyəyə üstünlük verdikləri kimi, fransız materalistləri Helvetsi, Didro, Russo tərbiyənin təsirinə daha çox aludə olmuş, hətta onu həddən artıq şişirtmişlər. Helvetsiyə görə, tərbiyədə elə təsir qüvvəsi vardır ki, o hər şeyi yaradır. Didro isə Helvetsiyə nöqsan tutaraq qeyd etmişdir ki, tərbiyə hər şey deyil, çox şeydir.

Məhəmməd Peyğəmbər Əleyhissəlam hədislərinin birində deyir: Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

Müəyyən dövrlərdə şəxsiyyətin inkişafında gah tərbiyə və mühit əsas götürülmüş, irsi əlamətlər inkar edilmiş, gah da irsiyyətə və mühitə üstünlük verilmişdir. Onu da qeyd etmək lazımdır ki, tərbiyə daim eyni tərzdə həyata keçirilmir. Daim məzmunu zənginləşir və mürəkkəbləşir, forması dəyişir, rəngarəng yollarla uşaq şəxsiyyətinə təsir göstərir.

Uşaq şəxsiyyətinin inkişafı müxtəlif mərhələlərdən keçir. Hər bir mərhələ əvvəlki ilə sıx əlaqədə olub, sonrakı nailiyyətlər üçün əsas rolu oynayır. Tərbiyənin varisliyi əvvəlki zəmində tərbiyə keyfiyyətlərinin qazanılması ilə əlaqədardır. Eyni zamanda, tərbiyə heç də uşağın inkişafını süni formada sürətləndirməlidir. Buna görə də məktəbəqədər pedaqogika bu yaşlı uşaqların hərətərəfli inkişafını təmin etmək üçün yaş xüsusiyyətlərini nəzərə alır və onun həyat haqqında anlayışlarını tədricən zənginləşdirir.Uşaq şəxsiyyətinin inkişafında, xarakter xüsusiyyətlərinin formalaşmasında tərbiyə elmi aparıcı mövqeyə malikdir.

5. Tərbiyə bəşəriyyətin yaranma tarixindən mövcud olan bir prosesdir. Hələ bəşəriyyətdə dövlər quruluşu mövcud olmamışdan qabaq tərbiyə anlayışının məqsədyönlü məzmununu tayfaların, qəbilələrin başçıları, müdrik ağsaqqallar tərəfindən müəyyən edilən adət-ənənələr təşkil etmişdir. İctimai-iqtisadi münasibətlər

inkişaf etdikcə dövlət quruluşunun yaranmasına səbəb olur. Dövlətçilik yaranandan sonra uşaqların tərbiyə olunması strateji əhəmiyyətli bir iş kimi dövlətin himayəsinə keçmişdir.

Tərbiyənin məqsədi kimsə tərəfindən uydurulmur. O, xalqın, dövlətin və millətin obyektiv həyat şəraitindən və tələbatından asılıdır. Respublikamızda uşaq bağçalarında və məktəblərdə tərbiyənin məqsədi dövlətimizi qoruya bilən və onun gələcək inkişafını təmin edə biləcək yüksək milli mənəvi intellektə malik olan hərtərfli kamil nəsil yetişdirməkdir. Şübhəsiz şəxsiyyətin hərtərəfli inkişafını yalnız tərbiyənin tərkib hissələrindən ( əqli, fiziki, əxlaq, əmək, estetik, ekoloji) səmərəli istifadə etməklə həyata keçirmək olar.

Əqli tərbiyə insan intellektinin inkişafında ən mühüm əlamətdir.Onun vasitəsilə uşaqlar elmi biliklərə yiyələnir, təbiəti, cəmiyyəti, əməyi, iqtisadiyyatın başlıca qanunlarını, ictimai və siyasi həyatı, bütövlükdə dünyanı dərk edir, yüksək mənəviyyata sahib olur.Əqli tərbiyə prosesində uşaq fantaziyasının inkişaf etdirilməsinə, hafizə və diqqətin formalaşdırılmasına, uşaqların söz ehtiyatının zənginləşməsinə,onların rabitəli,düzgün nitqə yiyələnmələrinə dəqayğıgöstərilməlidir.

Fiziki tərbiyə hərtərəfli və ahəngdar inkişafın mühüm keyfiyyətlərindəndir. Fiziki tərbiyənin vəzifəsi yetişən nəsli əməyə, Vətənin müdafiəsinə hazırlamaq, orqanizmin sağlamlığına, iradi keyfiyyətlərin və əqlin formalaşdırılmasına kömək etməkdir. Məktəbəqədər yaş dövründə uşaqların fiziki sağlamlığına xüsusi diqqət yetirilməlidir.

Uşaqları məktəbəqədər yaş dövründən başlayaraq sadə əxlaqi keyfiyyətlərə yiyələndirməyin çox mühüm əhəmiyyəti var. Uşaq dil açmağa başalayanda ona salam verməyi, əl ilə görüşməyi, nəvazişlə sağ ol deməyi öyrədirlər. Bu cür nəvaziş, şən münasibət uşaqlarda sadə əxlaqi keyfiyyətlərin möhkəmlənməsinə səbəb olur. Uşaqlarda böyüklərə hörmət, nəzakətli münasibət, mədəni davranmaq vərdişləri tədricən tərbiyə edilir, doğruçuluq, sadəlik, mehribançılıq, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətlər inkişaf etdirilir. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini vaxtında başlayıb, pedaqoji yolla düzgün aparmaq lazımdır.

Məktəbəqədər yaş dövründə əmək tərbiyəsi uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaratmaq, əmək məhsullarından qənaətlə istifadə etmək, işgüzarlıq, çətinlikdən qorxmamaq, dözümlülük, qayğıkeşlik, özünə xidmət və faydalı işindən fərəhlənmək kimi nəcib əxlaqi keyfiyyətləri tərbiyə edir. Bu yaşlı uşaqlar sadə əməklə məşğul olmaq vərdişlərinə yiyələnirlər.

Uşaq bağçasında estetik tərbiyənin vəzifəsi uşaqlara cəmiyyətdə, təbiətdə gördüklərini, insanların yaratdıqları maddi nemətləri qiymətləndirməyi, onların başa düşə bildikləri incəsənət əsərlərindəki gözəlliyi duymağı və hiss etməyi öyrətməkdir. Bunun üçün uşaqları təbiətin qoynuna çıxarmaq, bədii əsərlərlə, musiqi və rəsm əsərləri ilə tanış etmək mühüm əhəmiyyət kəsb edir. Estetik tərbiyə həm də uşaqların yaradıcılıq qabiliyyətini inkişaf etdirir, onlarda bədiii estetik zövqün formalaşmasında mühüm rol oynayır.

Ekoloji tərbiyə insanlara təbiətdən istifadə etmək işində məsuliyyət hissi aşılayır. Gəhc nəslin ekoloji tərbiyəsi müasir mərhələdə daha çox əhəmiyyət kəsb edir. Uşaqların ətraf mühiti qoruması, təbiətə qayğı və məhəbbət ruhunda tərbiyə edilməsi işini məktəbəqədər tərbiyə müəssisələrindən başlamaq əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Uşaqlar məktəbəqədər yaş dövründən başlayaraq, anlaq səviyyələrinə və güclərinə müvafiq təbiətin qorunması işlərinə cəlb olunmalıdırlar ki, məktəb illərində bu sahədə daha səmərəli iş görə bilsinlər. Bu məqsədlə məktəbəqədər yaş dövründə uşaqlara təbiət haqqında maraqlı söhbətlər etmək və torpağın, suyun, havanın insan həyatındakı əhəmiyyəti barədə maraqlı məlumatlar vermək lazımdır.

Məktəbəqədər yaş dövründə uşaqların ekoloji tərbiyəsində valideynlərin qüvvəsindən də səmərəli istifadə etmək lazımdır.

## Mövzu:14. Məktəbəqədər tərbiyə müəssələrində oyunlar və onların təşkili.

**PLAN:**

1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyunun əhəmiyyəti
2. Uşaq oyunlarının növləri
3. Uşaq bağçasında oyun uşaqların tərbiyə vasitəsi kimi

4. Uşaq bağçasında bayram şənliklərinin əhəmiyyəti
5. Uşaq bağçasında ictimai-siyasi bayramlar
6. Uşaq bağçasında məişət bayramları
7. Bayram şənliklərinin keçirilməsinin pedaqoji şərtləri

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
4. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.


1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Onlar oyun prosesində həyatı dərk etməyi öyrənirlər. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini, kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvür əldə edirlər. Xüsusən məktəbəqədər dövrdə oyun uşağı daha çox cəlb edir, onun əsas məşğuliyyəti olur.

Oyun zamanı uşaqlarda yaşlıların bir çox keyfiyyətlərinə maraq yaranır, onlara bənzər hərəkət edir, danışır, qavrayır və düşünürlər. Oyun prosesində onların təsəvvürləri, hafizəsi fəal olur, hissləri və iradi keyfiyyətləri sürətlə inkişaf edir. Yaxşı oyun uşaqlarda əqli və fiziki qüvvəni səfərbər edir. Məqsədə müstəqil surətdə nail olma, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq uşaq oyununun başlıca məqsədini təşkil edir.

Oyun məktəbəqədər dövrdə tərbiyənin başlıca vasitəsidir. Birinci növbədə bu, uşaqların əqli tərbiyəsini inkişaf etdirir. Oyun zamanı uşaqlarda ətraf aləm haqqında təsəvvür və anlayışlar inkişaf edir, təkmilləşir, dürüstləşir və bunların əsasında əqli qabiliyyət formalaşır. Uşaqlar istədikləri əşyalarla yaxından tanış olurlar.

Oyun uşaqların nitqinə də güclü təsir göstərir. Oyunun sözlə müşaiyət olunması, hərəkətlərin sözlə ifadə edilməsi, obrazların yaradılması uşaqların lüğət tərkibinin zənginləşməsinə kömək edir. Xüsusilə kollektiv oyun zamanı söz ünsiyyət vasitəsi olur.

Oyun uşaqlarda psixi proseslərin, fərdi-psixoloji xüsusiyyətlərin, xüsusilə iradə və xarakterin, kollektivçilik hissinin inkişafına və formalaşmasına güclü təsir göstərir. Uşaqların estetik, əməksevərlik tərbiyəsində, fiziki inkişafında, xarakterin özülünün qoyulmasında oyun əvəzedilməz vasitə rolunu oynayır. Oyun prosesi uşaqlarda hiqiqi və dolğun hisslər yaradır. Oyun əksər hallarda uşaqlara sevinc, fərəh hissi gətirir. Oyunda sevinc və fərəh hissi olmasa o, öz əhəmiyyətini itirər.Əksər oyunlar kollektiv xarakter daşıdığından belə oyunların keçirilməsi uşaqlarda həmrəylik, yoldaşları ilə hesablaşmaq, çətin anlarda bir-birinə kömək etmək, ədalətli olmaq kimi çox mühüm əxlaqi keyfiyyətlərin yaranmasına kömək edir. Bütün bu keyfiyyətlərin məktəbəqədər yaşlı uşaqlara aşılanmasında tərbiyəçinin pedaqoji və metodiki hazırlığı mühüm əhəmiyyətə malikdir.

2. Uşaq oyunları öz növlərinə, rəngarəngliyinə, məzmununa, təşkilinə, xarakterinə və s. görə fərqləndirilir. Pedaqoqlar məktəbəqədər yaş dövrü üçün oyunları iki böyük qrupa bölürlər: yaradıcı və qaydalı oyunlar.

Yaradıcı oyunlar uşaqların özləri tərəfindən düşünülb düzəldilir və həyata keçirilir. Uşaqlar həyatda gördükləri cisim və hadisələr haqqında təsəvvürlərini, düşüncələrini uyğun oyuna gətirirlər. Belə oyunlarda uşaqların yaradıcı təxəyyülü mühüm rol oynayır. Oyunun mövzusunun seçilməsi və qaydaların müəyyən edilməsində az da olsa, uşaq yaradıcılığı özünü göstərir. Uşaq gördüklərini eyni ilə oyunda əks etdirmir. Bu, onların təqlidi, fantaziyaları ilə birləşir. Oyunu özləri istədiyi kimi keçirən uşaqlar rollarda çıxış etməyə daha çox üstünlük verirlər. Uşaqlar oynadığı rola öz münasibətini göstərir. Bu zaman onlar fikir və hisslərini ifadə edirlər.

Qaydalı oyunlar uşaq həyatına yaşlılar tərəfindən gətirilir. Oyunun məzmununun və qaydaların mürəkkəbliyindən asılı olaraq belə oyunlar müxtəlif yaş dövrü üçün qruplaşdırılır. Qaydalı oyunların yüksək təlim-tərbiyəvi əhəmiyyəti vardır. Bu oyunlar uşaqların hərəkətlərini inkişaf etdirir, onların təbiətlə, ətraf

hadisələrlə yaxınlığını təmin edir. Qaydalı oyunlar da öz növbəsində mütəhərrik və didaktik olmaqla iki yerə bölünür.

Mütəhərrik oyunlarda hərəkilik mühüm yer tutur: topu atmaq-tutmaq, yüyürüb yoldaşa çatmaq,qatarın,avtomaşının hərəkətini təsvir etmək, sürücü kimi çıxış etmək və s.

Didaktik oyunlarda isə oynayanın qarşısında əqli vəzifə qoyulur. Heyvan şəkillərini cinsinə və növünə görə qruplaşdırmaq, deyilmiş tapmacanı tapmaq və s. Didaktik oyunlar uşaqların zehni tərbiyəsində mühüm rol oynayır. Lakin bu iki oyun növünü – mütəhərrik və didaktik oyunları ancaq fiziki və əqli tərbiyə vasitəsi kimi hesab etmək olmaz. Mütəhərrik oyunlarda da nitq və düşüncə inkişaf etdirilir, didaktik oyunlarda hərəkətlər, intizam, iradə və xarakter tərbiyəsi mühüm yer tutur. Deməli, hər iki oyunda ümumi cəhətlər olduğu kimi, fərqli əlamətlər də vardır. Hər iki oyunda qarşıya aydın məqsəd qoyulur ki, bu da oyunun məzmunundan irəli gəlir.Başlıca fərq burasındadır ki, yaradıcı oyunlar uşaqlar tərəfindən, qaydalı oyunlar isə böyüklər tərfindən yaradılır.

3. Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla onun hərtərəfli inkişafına və didaktik məqsədlərə xidmət edir. Buna görə oyun uşaq bağçasında əvəzedilməz tərbiyə vasitəsidir. Uşaqların bağçada həyata keçirdikləri didaktik oyun təlimi müstəqil metod kimi qiymətləndirilir. Uşaq oynaya-oynaya riyazi əməliyyatla məşğul olur, ətraf mühiti, sadə maşın oyuncaqlarının işləmə prinsipini öyrənir. Oyunun dramlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Dramlaşdırma bu və ya digər bədii əsərin məzmununu öyrənməyə, hadisənin daxilinə girməyə kömək edir. Belə halda oyun öyrədici, təlimləşdirici xarakter daşıyır.

Uşaq həyatını əhatə edən oyunlar müxtəlif forma və məzmunda təkrar olunur. Oyun səhər yeməyindən əvvəl və sonra gəzintidə, məşğələdən sonra, axşamüstü evə gedənə kimi davam etdirilir. Səhər çox hərəkət tələb edən oyunların keçirilməsi məsləhət görülmür. Belə oyun fərdi və ya çox da böyük olmayan qrupla keçirilə bilər. Belə oyunun məzmununa didaktik oyuncaqlar, stolüstü çap olunmuş və süjetli-rollu oyunları daxil etmək məqsədəmüvafiqdir.

Gəzinti zamanı hərəki oyunların təşkilinə geniş yer vermək və bu zaman təbiət materiallarından istifadə etmək faydalı sayılır. Bu zaman çox da material tələb etməyən tikinti-quraşdırma, konstruktiv oyunlar da keçirmək olar.

Axşam vaxtı məzmunlu və geniş səviyyəli oyunlar keçirmək, yaradıcı, hərəki və didaktik oyun növlərinə geniş yer vermək olar. Oyun üçün müəyyən edilmiş vaxt rejimi uşaqların müstəqil oyun fəaliyyətinin təşkilində, ondan uşaq həyatının təşkili və tərbiyə vasitəsi kimi istifadə etməkdə mühüm əhəmiyyət kəb edir.

Oyun əməklə də əlaqədardır. Uşaqların əl əməyi bilavasitə oyunla bağlıdır. Uşaqlar öz bilik və düşüncələri əsasında nəinki hazır oyuncaq götürüb oynayırlar, onlar tədricən karton, kağız, ağac və s. təbii materiallardan oyuncaq düzəltmək bacarığına yiyələnirlər.Uşaqların iştirak etdikləri oyunların əksəriyyəti ( "Siçan-pişik", "Evcik-evcik" "Bənövşə" və s.) onların hərtərəfli inkişafına kömək edir.

Uşaqlar üçün oyun o vaxt maraqlı və cəzbedici olur ki, o, pedaqoji cəhətdən düzgün təşkil olunsun, məzmunu zəngin və rəngarəng olsun.

Yaradıcı oyun anlayışı süjetli-rollu, dramlaşdırılmış oyunu və tikinti-quraşdırıcı (konstruktor) oyunu əhatə edir. Süjetli-rollu oyunlar məktəbəqədər yaşlı uşaqlarla yaşlıların əlbir fəaliyyəti nəticəsində təşkil olunur. Bu oyunlar uşaqlarda müstəqillik, fəallıq yaratmaq və yaradıcılıqlarını formalaşdırmaq baxımından çox faydalıdır.

Süjetli-rollu oyunda təqlid güclü olur. Təqlid üzərində qurulan bu oyun uşaqları ətrafdakı həqiqətləri yaxşı öyrənməyə sövq edir. Süjetli-rollu oyunlarda təsəvvürlər də fəal iştirak edir. Oyunun süjeti müxtəlif həyati əlaqələrdən, motivlərdən yaranır. Uşaqlar çox vaxt yaşlıların rolunda çıxış etməyə can atırlar. Rolunu oynadığı yaşlıyaaid müəyyən əşya götürür və oyuna başlayır. Sürücü kimi oyuncaq avtomaşın götürür, tibb bacısı kimi termometri ələ alır. Uşaqlar ana, müəllim, təyyarəçi, həkim rollarında oynamağı çox sevirlər. Onlar oyunlarında ətrafda gördüklərinin olduğu kimi əks etdirməyə çalışırlar. Yuxarı qrup uşaqları bağçada tərbiyəçinin, tibb bacısının, həkimin, aşpazın rolunu böyük "ustalıqla" yaradırlar. Rolda onların danışıq tərzi olduğu kimi əks etdirilir.

Süjetli oyun əqli tərbiyənin mühüm vasitəsi kimi özünü göstərir və belə oyunlar kollektiv xarakter daşıyır. Uşaq ətrafda baş verən hadisələri oyunda əks etdirərkən onun məzmununu daha yaxşı dərk edir, mühakimə yürütmək kimi qabiliyyətə sahib olur. Bu və ya digər fikri, təklifi müzakirə edir və nəticədə birgə qərara gəlirlər.

Kiçik məktəbəqədər yaşlı uşaqlara nisbətən böyük qrup uşaqlarında oyunun məzmunu get-gedə zənginləşir. Böyük qrup uşaqları balacalar kimi rolun təyinindən deyil, mövzunun seçilməsindən başlayırlar. "Nə oynayacağıq?", "Gəlin əsgər-əsgər oynayaq" – deyə müstəqil olaraq oyun seçirlər.

Oyun zamanı qurma və əmək işlərinə geniş yer verilməlidir. Tərbiyəçi qabaqca uşaqlara qurma vərdişləri aşılayır. Uşaqlar kuklalar üçün ev tikmək, maşını təmir etmək, təkərləri yerinə qoymaq və s. vərdişlərə yiyələnirlər. Tikinti-quraşdırma işlərinə aid uşaqların oyunları yaşlar üzrə sadədən mürəkkəbə doğru çətinləşdirilir. Tərbiyəçi uşaqlara rolları bölməkdə, rollar arasında əlaqə yaratmaqda kömək edir. Bu zaman uşaqlarda dialoqlu nitq, qarşılıqlı münasibət, hafizə daha yaxşı inkişaf edir.

Qaydalı mütəhərrik oyunlar hər xalqa mənsub olan milli koloritli oyunlardır. Onlar əsrlər boyu xalq tərəfindən və bəzən də uşaqların özü tərəfindən yaradılır. Nəsildən-nəslə keçən belə oyunlar əsasən folklordan qidalanır.

Qaydalı mütəhərrik oyunlar hazır məzmuna malik olur və ciddi ardıcıllıqla oynanılır. Bu oyunlarda uşaqların qarşısına müəyyən hərəkətlər – topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkəti təkrar etmək və s. vəzifə qoyulur. Mütəhərrik oyunların adı da elə buradan irəli gəlir. Oyunlar fiziki, əqli və mənəvi tərbiyədə yüksək əhəmiyyət kəsb edir. Bu oyunlarda düşüncə və hərəkət üzvi surətdə bir-birilə bağlanır. Oyunlarda hərəkət və münasibət müəyyən qaydalarla tənzim olunur.

Mütəhərrik oyunlar məzmunca 2 qrupa bölünür: süjetli oyunlar və idman oyunlarına yaxın olan süjetli oyunlar. Süjetli oyunlar uşaqlara yaxın və maraqlıdır. Bu oyunların məzmunu müxtəlif olur: bəzilərində həyatdan götürülmüş hadisələr və adamlar (əsgərlər, təyyarəçilər, dənizçilər) göstərilir, digərlərində isə nağıllardan götürülmüş epizodlar oynanılır. Hər bir uşaq oyunun məzmununu və rolunu bilməlidir. Bəzi oyunlarda uşaq maneələri aradan qaldırmalı olur. Məsələn, meşədə

ayıya yaxınlaşan uşaqlar onunla oynamaq istəyir, ayı onları tutur ("Ayı haqqında nağıl") . Süjetli oyunlar çeviklik, sürət, düşüncəlik və bacarıq tələb edən tapşırığın yerinə yetirilməsi üzərində qurulur. Məs., "Qaçdı-tutdu", "Gizlənpaç" və s.

Süjetli oyunlarda musiqi uşaqlara obrazı düzgün dərk etməkdə, bu obraza müvafiq hərəkət etməkdə kömək edir. Süjetli oyunlarda musiqi həmçinin uşaqların hərəkətlərini istiqamətləndirir, təşkil edir, siqnal vəzifəsini daşıyır. Mütəhərrik oyunlar uşağı öz davranışlarını idarə etməyə, hərəkətlərini nəzərdə tutulmuş məqsədə tabe etməyə, həyəcan və arzusunu gizlətməyə alışdırır.

Orta qrupda mütəhərrik oyunların məzmunu daha mürəkkəb olur. Növbəyə riayət etmək, hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırmaq və s. belə oyunların məzmununu təşkil edir. Böyük qrupda mütəhərrik oyun qaydaları uşaqların nisbətən dərin şüurluluğuna, müstəqilliyinə, məsuliyyətinə əsaslanır. Tərbiyəçi keçirilən hər bir oyunun məzmununu, süjetin mahiyyətini uşaqlara başa düşəcəkləri tərzdə çatdırmalıdır.

Didaktik oyunlar yüksək tərbiyəvi və öyrədici xüsusiyyətlərə malik olur. Didaktik oyun uşaqların zehnini inkişaf etdirən üsullardan biridir. Didaktik oyunun baçlıca xüsusiyyəti qaydadar. Qaydanın həyata keçirilməsi oyunun məzmununun həyata keçirilməsidir. Didaktik oyunun əhəmiyyəti aşağıdakılardan ibarətdir:

1.Didaktik oyunlarda ətrafdakılar haqqında təsəvvürlər dəqiqləşdirilir, möhkəmləndirilir və genişləndirilir. Uşaq əşyaların rəngi haqqında təsəvvürə yiyələnir. Oyun zamanı eyni rəngdə olan əşyaları bir yerə toplamaq və rənglərin fərqli xüsusiyyətlərini tapmaq lazımdır. Bu zaman onların rəng haqqında təsəvvürləri genişlənir.

2. Hər bir didaktik oyunda təfəkkür, nitq inkişaf edir və əqli fəaliyyət formalaşır. Didaktik oyun uşaqdan fikri mərkəzləşdirməyi, öz diqqətini, qavrayışını, hafizəsini işə salmağı, müqayisə aparmağı, müəyyən əqli nəticəyə gəlməyi, fikir yürütməyi, biliyini sözlə ifadə etməyi tələb edir.

3. Didaktik oyunlar əxlaq tərbiyəsi vasitəsidir. Bu oyun uşaqlarda dözümlülük, intizam, qaydalara ciddi riayət etmək, düzlük, doğruçuluq, Vətənə dərin məhəbbət, Yoldaşlıq, səmimiyyət və s. kimi əxlaqi keyfiyyətlər formalaşdırır.

Tərbiyəçi didaktik oyun zamanı uşaqların əqli və əxlaqi cəhətdən formalaşması üçün faydalı təmrinlər verməli, oyunda didaktikliyi əyləncəliklə birləşdirməlidir.

Xarakterinə görə didaktik oyunlar üç qrupa bölünür: 1) oyuncaqlarla oyun; 2) stolüstü çap oyunları; 3) şifahi oyunlar. Birinci növ oyunlar uşaqların oynadığı əşyaların qavranılması ilə bilavasitə əlaqədardır.

Stolüstü oyunlar əyanilik prinsipinə əsaslanır. Bu oyunların məzmunu müxtəlif olur: Bəzi lotolar və cüt şəkillər uşaqları ayrı-ayrı əşyalarla, onların keyfiyyət və xüsusiyyətləri ilə tanış edir. Məs., "İlin fəsilləri" oyunu uşaqları fəsillərin xarakteri ilə tanış edir.

Şifahi oyunlar isə daha mürəkkəb olur. Belə oyunlar əsasən böyük qruplarda keçirilir. Bu oyunlar diqqətlə dinləməyi, verilən suallara sürətlə cavab tapmağı, fikirlərini aydın ifadə etməyi tələb edir. Ən çox yayılmış şifahi oyun tapmacalardır. Didaktik oyunların vəzifələri uşaqlarda oyun zamanı oxşarlığı və fərqi müəyyənləşdirmək, müqayisə etmək, seçmək, əşyaları bir və bir neçə əlamətinə görə müəyyənləşdirmək, şüurlu sürətdə yadda saxlamaq və yada salmaq bacarığını formalaşdırmaqdır.

Oyuncaqlar uşaqların tərbiyəsində mühüm rol oynayır. O, uşağın əlində oyuncaq, tərbiyəçi üçün isə mühüm tərbiyə vasitələrindən biridir. Uşaq oyuncaqla müxtəlif təcrübələr əldə edə bilir. Məsələn, o, maşını döşəmə üzərində sürür, müxtəlif əşyalarla yükləyir. Qucağında gəlincik uyumuş bir qız özünü əsl "ana" hesab edir. Uşaq oyuncaq vasitəsilə əşyaların xassələri ilə yaxından tanış olur. Hər bir oyuncaq real həyatdakı əşyaları, insan və heyvanları əks etdirir. Oyuncaqların köməyi ilə valideynlər və tərbiyəçilər uşaqların görüş dairəsini genişləndirir, onların təfəkkür və təxəyyülünü inkişaf etdirirlər. Oyuncaqlar vasitəsilə tərbiyəçilər uşaqlarda texnikaya maraq yaradır, yaradıcılığa həvəs oyadır. Obrazlı və didaktik əhəmiyyət kəsb edən oyuncaqlar isə uşaqların nitqini inkişaf etdirir, lüğət fondunu zənginləşdirir.

Müxtəlif materiallardan düzəldilən oyuncaqlar tərbiyəvi əhəmiyyətinə görə müxtəlif növlər üzrə ( mütəhərrikli. sensor, quraşdırma) fərqlənirlər. Müasir pedaqoji ədəbiyyatda oyuncaqlar istifadə müxtəliliyinə görə təsnif olunur: a) süjetli-obrazlı oyuncaqlar adamları, heyvanları, müxtəlif əşyaları əks etdirir; b) oyun üçün tikinti

materialı, idman və müxtəlif hərəkətlər üçün oyuncaqlar; c) dekorativ kölgə və kukla teatrı üçün personajlar, dramlaşdırma üçün kostyumlar, yolka oyuncaqları; ç) əyləncə üçün oyuncaqlar; d) musiqi səsləndirən oyuncaqlar; e) kompüter oyuncaqları.

Oyuncaqlardan qədim tarixə malik olan gəlincik tərbiyə prosesində xüsusi əhəmiyyət kəsb edir. Gəlincik insan obrazıdır. Gəlincik vasitəsilə uşaq insanların həyat və əmək tərzinə daxil olur, məişət münasibətlərini öyrənir. Tikinti materiallarına aid əşyalar quraşdırma oyununda özünəməxsus əhəmiyət kəsb edir. Bütün bu oyuncaqlar uşaqların təsəvvürlərini genişləndirir, təxəyyülünü inkişaf etdirir.Yumşaq materialdan düzəldilmiş heyvan oyuncaqları heyvanlara maraq və məhəbbət yaratmaq üçün çox faydalıdır.

Didaktik oyuncaqlar uşaqları rəng, forma, böyüklük və s. anlayışlarla tanış edir. Didaktik oyuncaqların növləri bunlardır: 1) hissələri ayrılan oyuncaqlar; 2) qurma üçün oyuncaqlar; 3) stolüstü çap oyunları üçün oyuncaqlar.

4. Bayram şənlikləri uşaqlarda məşğulluq, sevinc, fərəh və iftixar hissi yaratmaq məqsədilə həyata keçirilən təntənəli tədbirlərdir. Belə tədbirlər uşaqlarda ictimai fəallıq hissi yaradır. Uşaqlar bayram tədbirlərində iştirak etdikcə, onların şüuru, dünyagörüşü sürətlə inkişaf edərək müvafiq bilik, bacarıq və vərdişlərlə zənginləşir. Tarixi günlərin bayram edilməsi uşaqların yaş və anlaq səviyyəsinə uyğun olmalı, onlarda həmin hadisələr və milli adət-ənənələr haqqında müvafiq anlayışlar yaratmalıdır. Belə tədbirlərə hazırlaşarkən folklordan götürülmüş bayatılar, nəğmə və şən mahnılar milli-mənəvi dəyərlərimizə, Vətənə sonsuz məhəbbət hissi yaradır. Uşaqlar bədii mətnlər, mahnılar, hikmətli sözlər vasitəsilə öz doğma respublikası haqqında yeni-yeni məlumatlar alır, xalqımızın yüksək dəyanətliliyi, mərdliyi, əməksevərliyi, qonaqpərvərliyi və digər mənəvi keyfiyyətləri ilə fəxr edirlər. Bu məqsədlə də uşaq bağçalarında qeyd edilən bayram şənlikləri və tədbirlər məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir.

Məktəbəqədər tərbiyə müəssisələrində keçirilən tədbirlər xalqımızın əsrlər boyu yaratdığı folklor nümunələrindən geniş istifadə olunur. Qədim zamanlardan başlamış el şənlikləri, mərasimlər, onların yerli-yataqlı icrası xalqımız üçün həmişə əziz və müqəddəs olmuşdur. Adqoydu, toy, yaş və digər müqəddəs tarixi günlər həmişə

böyük təntənə ilə qeyd olunmuşdur. Keçirilən hər bir şənlik, hər bir tarixi hadisə öz məzmunu ilə uşaqları böyük amal uğrunda tərbiyə edir. Başqalarının səadəti naminə, Vətənin, xalqın və ümumən bəşəriyyət naminə çalışmağın içində insanın özü, onun mənafeyi durur.

Uşaq bağçasında keçirilən bayram tədbirlərini məzmununa görə üç qrupa bölmək olar:

1. İctimai-siyasi bayramlar;
2. Məişət bayramları;
3. Mövsümi bayramlar.

5. İctimai-siyasi bayramlar dövlət tərəfindən təntənəli səviyyədə həyata keçirilən şənliklərdir. Belə bayramlara 8 Mart Beynəlxalq qadınlar günü, 9 May faşizm üzərində qələbə günü, 15 May Milli qurtuluş günü, 28 May Respublika günü, 18 oktyabr Dövlət Müstəqilliyi günü, 31 dekabr Dünya azərbaycanlılarının həmrəyliyi günü, Beynəlxalq uşaqlar günü aiddir. Bütün bu bayram şənliklərini qeyd etməklə uşaqlar bu tarixi hadisələrin mahiyyəti ilə yaxından tanış olur və onların məzmununa aid şerlər, mahnılar öyrənir, şən rəqslər, əyləncəli proqramlar hazırlayırlar.

İctimai-siyasi bayram şənlikləri ilə yanaşı uşaq bağçalarında siyasi xarakterli tədbirlərin, tarixi hadisələrin xüsusi qeyd olunması yüksək əhəmiyyət kəsb edir.

Məsələn, 31 Mart milli soyqırım günü, 20 yanvar faciəsi və Xocalı soyqırımı günlərinin qeyd olunması tariximizin qanlı səhifələri haqqında uşaqlara yaşlarına müvafiq məlumatlar verir, onları düşmənə nifrət ruhunda tərbiyə edir. Hər il 20 yanvar faciəsini matəm kimi qeyd etmək, şəhidlərimizin əziz xatirəsini yad etmək uşaqlarda düşmənə nifrət hissi aşılayır. Uşaqlarda Xocalı soyqırımı haqqında geniş anlayış yaratmaq məqsədilə bu barədə onlara ətraflı məlumat vermək lazımdır. Şəhidlərimizin xatirəsini əziz tutmaqla uşaqları mərdlik, mübarizlik, qəhrəmanlıq ruhunda tərbiyə etmək zəruridir. Çünki indi müstəqil Azərbaycan Respublikasının həyati gerçəkliyi uşaqlarda yüksək mənəvi dəyərlərin, o cümlədən, bilik, həmrəylik, qeyrətlilik, Vətənə, xalqa, doğma torpağa bağlılıq, Milli Orduya məhəbbət, düşmənə nifrət və s. keyfiyyətlərin daha yüksək səviyyədə tərbiyə olunmasını tələb edir.

Xüsusən xalqımızın milli istiqlaliyyət uğrunda apardığı mübarizə, erməni faşizminin alçaq cinayətkarlığı məktəbəqədər dövrdən uşaqlara aydın başa salınmalıdır. Milli qəhrəmanlara, şəhid oğul və qızlarımızın döyüş şücaətinə, Dağlıq Qarabağa, Şuşaya, dair yazılmış əsərlərdən uşaq bağçalarında keçirilən tədbirlərdə yerli-yerində istifadə edilməlidir.

Uşaq bağçasında çalışan tərbiyəçilər tarixi tədbirlər hazırlayan zaman tarixi və ictimai hadisələrdən, bu və ya digər qəhrəmanın müxtəlif həyat səhnələrindən, ayrı-ayrı səciyyələrindən, adət və məişət qaydalarından, hər birinin yaşamış olduğu iztirab və sevinc zamanlarından canlı və təravətli söhbətlər etməlidir. Belə olduqda hər bir söhbət pedaqojiləşərək öz vəzifəsini daha yaxşı yerinə yetirmiş olur.

6. Məişət bayramlarını ictimai-siyasi bayramlardan fərqli olaraq birinci növbədə hər ailədə milli ənənə kimi yüksək səviyyədə qeyd edirlər. Belə bayramlara "Novruz" bayramı, "Qurban" bayramı, "Ramazan" bayramı və s. aiddir. Bu bayramların hər birinin özünəməxsus qeydetmə xüsusiyyətləri var. Uşaq bağçalarında qeyd olunan hər bir bayram şənliyinin məqsədi birinci növbədə uşaqlarda sevinc, fərəh, iftixar və s. nikbin hissləri formalaşdırmaq və bu bayramlar haqqında onlarda müvafiq bilik, anlayış yaratmaqla milli adət-ənənələri yaşatmaq ruhunda tərbiyə etməkdir. Bu məqsədlə uşaq bağçalarında qeyd olunan hər bir bayram şənliyi məzmun etibarilə maraqlı və dolğun olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlara yüksək sevinc və fərəh gətirən bayramlardan biri "Yeni il" bayramıdır. Uşaqlar al-əlvan oyuncaqlarla bəzədilmiş yolkanı və Şaxta babanı çox sevirlər. Yolka ağacı ətrafında dövrə vurub oynamağı və mahnı oxumağı uşaqlar çox xoşlayırlar. Bu məqsədlə uşaqlara tapşırılan hər bir mahnını, şeri onlar böyük həvəslə öyrənməyə çalışırlar. Ona görə də tərbiyəçi uşaqların bu istəyindən səmərəli istifadə edərək, onlara çoxlu mahnı və şerlər öyrətməlidir. "Yeni il" bayramına hazırlıq ərəfəsində uşaqlara M.Seyidzadənin "Yolkamız", "Qış baba", Ə.Cəmilin "Şaxta baba xoş gəlib", M.Dilbazinin "Yolka bayramı" və s. şerlərini öyrətmək çox faydalıdır.

Milli məişətimizdə ən geniş qeyd olunan bayram "Novruz" bayramıdır. "Novruz" bayramı çox qədim tarixə malikdir, çünki bu bayramı bizim ulu

babalarımız öz adət-ənənələri üzrə çox təntənə ilə qeyd etmişlər. Qabaqcıl uşaq bağçalarında “Novruz” bayramı daha maraqlı keçirilir. Bayrama iki həftə qalmış, yəni su çərşənbəsi günündən başlayaraq bayrama xüsusi hazırlıq işləri görülür. Uşaqlara “Novruz” bayramı haqqında maraqlı söhbətlər edir, mahnılar, şerlər öyrədir, ssenari əsasında müxtəlif bayram tamaşaları hazırlayırlar. Tamaşa zamanı mahnı oxuya-oxuya “Səməni xonçası”, “Sünbül xonçası, gəzdirir, “Kosa-kosa”, “Qodu-qodu” oyunları göstərir, Bahar qız haqqında şerlər oxuyur, şən rəqslər edirlər.

Mövsümi şənliklər isə ilin fəsilləri ilə bağlıdır. Misal üçün, baharın gəlişi, yay istirahət düşərgəsinin açılması, qışın gəlişi ilə bağlı keçirilən şənliklər uşaqlar üçün çox faydalıdır.

7. Uşaq bağçalarında keçirilən hər bir tədbir, hər bir bayram şənliyi uşaqları təbiətlə, adət-ənənələrimizlə, tariximizlə yaxından tanış edir, onların dünyagörüşünü formalaşdırır, yüksək milli-mənəvi dəyərlərlə tərbiyə olunmasına güclü təsir göstərir.

Yüksək tərbiyəvi əhəmiyyət kəsb edən bayram şənliklərinə məqsədyönlü hazırlaşmaqda və səmərəli həyata keçirilməsində mühüm pedaqoji şərtlərə əməl olunması çox vacibdir:

1. Bayram şənliklərinin məzmunu ideyalılıq baxımından dolğun olmalı və bədii cəhətdən təsirliliyi düzgün müəyyən olunmalıdır;
2. Bayram şənlikləri uşaqlarda marağın artmasına və şüurlu fəaliyyətin inkişafına xidmət etməlidir;
3. Bayram şənlikləri incəsənətin müxtəlif sahələri üzrə uşaqlarda müvafiq bilik, bacarıq və vərdişlərinin formalaşmasına xidmət etməlidir;
4. Bayram şənlikləri uşaqlarda milli-mənəvi dəyərlərin formalaşmasına zəmin yaratmalıdır;
5. Bayram şənliklərinin məzmun və məqsdi uşaqların anlaq səviyyəsinə uyğun olmalı və tam aydın olmalıdır.

## Mövzu 15. Uşaq şəxsiyyətinin formalaşmasında kollektivin rolu

Plan:

1. Kollektivçilik tərbiyəsinin əhəmiyyəti
2. Kollektiv qarşısında borc və məsuliyyət hissi.
3. Uşaqlarda kollektivçilik hisslərinin inkişaf etdirilməsində tərbiyəçinin rolu
4. Kollektivə adaptasiyada empatiyanın rolu

Ədəbiyyat

1. Çələbiyev N. Z., Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı,2005
2. Əfəndiyeva Ü.A., Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı 2007
3. Əlizadə Ə. Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi, Bakı 1969
4. Kazımova G.S. Kiçik yaşlı şagirdlərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu. psix.elm.nam. ..disser. Bakı, 2014

Məktəbəqədər uşaqların kollektiv münasibətlərinin öyrənilməsi uzun illər uzunu pedaqogika və psixologiya elmində hər zaman aktual problem olaraq qalmışdır.

Kollektivçilik tərbiyəsi - əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi idi. Kollektivçilik – kollektivin, cəmiyyətin, xalqın mənafeyini şəxsi mənafedən üstün tutmaq bacarığıdır. Kollektivçilik – yoldaşlıq, həmrəylik, məqsəd və hərəkət birliyidir. İnsan dünyaya fərd kimi gəlir, social mühitdə, kollektivdə şəxsiyyət kimi formalaşır. Uşaq dünyaya göz açandan insanların əhatəsində olur. Uşağın ilk kollektivi onun ailə mühitidir. Çoxuşaqlı ailələrdə böyüyən uşaq sonrakı dövrdə düşdüyü kollektivə tez alışır.

5-6 yaşlı uşaq yoldaşsız darıxır. Başqa uşaqlar qarşısında olan məsuliyyət hissi yaranır: öz yoldaşlarına qarşı xoşagəlməz hərəkət etdiyini başa salanda, uşaq özünü narahat hiss edir. Tədricən tərbiyənin təsiri ilə başqa uşaqlarla oynamağın tək oynamaqdan daha şən keçdiyini, birlikdə daha tez və daha çox iş görmək mümkün dərk etmək qabiliyyətləri inkişaf edir, onlarda güzəştə getmək, razılaşmaq, kollektivə lazım olan müəyyən iş görmək, özünü saxlaya bilmək adətləri möhkəmlənir.

5-6 yaşına yaxın uşaq özünün bəzi hərəkətlərinin mənasını başa düşməyə qabil olur və öz yoldaşlarına qarşı münasibətini müəyyənləşdirir: “Başqalarından zorla almaq olmaz”, “Oyuncaqları bölüşdürmək lazımdır” və s.

Bu yaşda uşaqlar arasında daha sıx dostluq münasibətləri də müşahidə edilir ki, həmin münasibətlər uşaqların mehribanlığı, qar.ılıqlı meylləri əsasında yaranır. Dostluq uşağın mənəvi simasına müsbət təsir göstərir: dosta qayğı göstərmək, onun

yaxşı hərəkətləri ilə fəxr etmək və çətinliklərdə ona kömək etmək arzusu əmələ gəlir, dostlar bir-birinə oyuncaqlar, şirniyyatlar verirlər.

Böyük məktəəbəqədər yaşda tərbiyənin təsiri ilə kollektivçilik və dostluq hissinin sonrakı inkişafı sürətlənir. Uşaqlar həssaslıq göstərir. bir-birinə kömək edir, balacalara qayğı göstərir, zəif və xəstə yoldaşlarına diqqətlə yanaşır, aralarında baş verən narazılığı çox vaxt müstəqil həll edə bilirlər.

Əgər kiçik məktəbəqədər yaşlı uşaq bəzi birgə fəaliyyətə qabildirsə, böyük məktəbəqədər yaşlı uşaq razılaşmağı, rolları və vəzifələri bölüşdürməyi tələb edən məqsədyönlü kollektiv oyunlarda və əmək fəaliyyətində iştirak edir.

Kollektivin təşkil olunmasının əvvəlində kollektiv əlaqələrin davamsızlığı, təşkiletmə bacarığının çatışmamazlığı ilə xarakterizə olunur. Uşaqlar oyunda rolları, işdə vəzifələri müstəqil bölüşdürə bilmirlər. Bu bacarıqları tərbiyə etmək uzun müddət tələb edilir. Tərbiyəçi ümumi işdə, oyunda, eləcə də gündəlik həyatlarında uşaqların özünü göstərmələrini izləyir, xatırlamaqla, xəbərdarlıqla, məsləhətlə onların davranışına istiqamət verir.

Uşaqların birləşməsi əsasən oyunda baş verir. Tərbiyəçi tərəfindən istiqamətləndirilən maraqlı, məzmunlu oyun uşaqları ümumi məqsəddə birləşdirir və kollektivçilik tərbiyəsi üçün ən yaxşı şərait yaradır. Uşaqları məqsəd birliyi, birgə hisslər yaxınlaşdırır.

Uşaq kollektivi əmək prosesində, uşaqlar tərəfindən onların gücü çatan tapşırığın və vzifənin yerinə yetirilməsində tərbiyə edilir. Kollektiv qarşısında borc və məsuliyyət hisslərinin ilk rüşeymləri əməkdə yaranır.

Uşaqların kollektivçilik hisslərini və bigə yaşayış adətlərinin inkişaf etdirilməsində aparıcı rol tərbiyəçiyə məxsusdur, o, öz nümunəsi və düşünülmüş metod və üsullar sistemi ilə uşaqları kollektivdə yaşamağa öyrədir, onların hisslərini zənginləşdirir və inkişaf etdirir. Tərbiyə sayəsində məktəbəqədər yaşın axırına yaxın uşaqlar məktəb kollektivində oyuna, əməyə və məşğələlərlə hazırlıqlı olurlar.

Uşaqların kollektivlə ilk əlaqələrinin təşkili onda kollektivə marağın, yoldaşlarına rəğbətin yaranması və kollektivçilik tərbiyəsi üçün böyük əhəmiyyətə malikdir. Buna uşağın uşaq müssisələrində olduğu birinci günlərin düzgün təşkili

nəticəsində nail olmaq mümkündür. Uşaq bağçasına gəliş kollektivdəki həyat, adət etdiyi şəraitin dəyişilməsi hər bir uşaq üçün müəyyən çətinlik yaradır. Bəzi uşaqlar isə, xüsusilə erkən yaşda, ailə həyatı şəraitində yaranmış, adət etdikləri mühitlə əlaqələr, münasibətlər sisteminin pozulması nəticəsində, bunu hətta xəstəlik kimi keçirirlər.

Kollektivçilik tərbiyəsi uçünməşğələlərdə də çoxlu imkanlar vardır. 5-6 yaşlı uşaqlara yoldaşlarının verdiyi cavabları tamamlamağı və düzəltməyi, yoldaşının edə bildiyini onun əvəzində etmək yox, məsləhətlə, göstərməklə kömək etməyi, bir-birinin işində müsbət cəhətləri görməyi öyrənirlər. Uşaqların nöqsanları görməyə meylli olduqlarını nəzərə alaraq, tərbiyəço öz qiymətləri ilə onlarda nəzarət hissi, bir-birinə münasibətdə ədalətli olmağı tərbiyə edir.

Uşaqlarda kollektivçilik, dostluq və yoldaşlıq əlamətlərinin tərbiyə edilməsi üçün ümumi fəaliyyət çox mühümdür. Bu işdə uşaqların ümumi mənafə uğrunda, birgə hisslərdə birləşdirilməsinə nail olunur.

Uşaqlar qarşısında kiçik, lakin cəlbedici ümumi məqsədlər: maraqlı ekskursiyalar, məşğələlər keçirilməsi, otağın yğışdırılması, bayrama hazırlıq, kukla paltarlarının yuyulması və bu işin uşaqlar tərəfindən həyata keçirilməsi kimi vaxt tələb edən daha mürəkkəb və daha uzaq məqsədlərin yerinə yetirilməsi əlverişlidir.

Uşaqlar tədricən belə fikrə alışırlar ki, onlar böyüklərə kömək etməli, kollektiv üçün xeyirli bir iş görməlidirlər, onların işi mühüm və vacibdir. Tərbiyəçi böyük qrupun uçaqlarını elə hazırlayır ki, onlara müstəqil, daha mürəkkəb iş tapşırmaq mümkün olsun. Onlarda tədricən bunun üçün zəruri olan bacarıqlar, səliqəlilik, öz vəzifələrinə maraq, işin yaxşı yerinə yetirilməsindən doğan sevinc və razılıq hissi tərbiyə edilir. Belə tərbiyə zamanı uşaqlarda şəxsi marağıkollektivin marağına tabe etmək adəti əmələ gəlir. Uşaqların yaşadıqları və tərbiyə olunduqları mühit – adamların qarşılıqlı münasibətində olan məhəbbət, dostluq, qayğı və diqqət, həssaslıq mühiti, uşaqların kollektivçilik ruhunda tərbiyəsinin zəruri şərtini təşkil edir.

Pedaqoqlardan yoldaşlarına çətinliklə yaxınlaşan uşaqlara xüsusi diqqət göstərmək tələb olunur. Bu, müxtəlif səbəblərə görə baş verir. Xudbin, ərköyün uşaq öz həmyaşıdlarının mənafeyi ilə hesablaşmağı bacarmır, o, böyüklərin xüsusi

diqqətini istəyir, daim yoldaşlarından küsür, tez-tez şıltaqlıq edir, başqa uşaqların arzuları ilə hesablaşmayaraq, yalnız öz istəyinin təmin olunmasına inadla çalışır. Tərbiyəçi belə uşağa başqa uşaqların hüquqlarını göstərir, başqa uşaqlarla oyuncaqları bölüşdürməyi öyrədir, yoldaşlarının xoşuna gələn bir iş gördüyü zaman onu tərifləyir.

Utancaq uşaqlar kollektivin ümumi həyatına çətinliklə daxil olurlar. Utancaqlığın səbəbləri müxtəlifdir: səhhətin zəifliyi,fiziki çatışmazlıq, pis nitq, böyüklərin qayğısının həddindən çox olması və ya uşaqlarla həddindən artıq sərt rəftar edilməsi. Utancaq uşaq dinməz olur, öz gücünə inanmır, buna görə də tapşırığı , məsələni yerinə yetirməkdən tez-tez imtina edir. Belə uşaqlarla fərdi tərbiyə işi aparmaq lazımdır.Onların mahiyyətini qiymətləndirmək lazımdır. Beləliklə onlar tədricən uşaqlarınümumi həyatına daxil olurlar.

Kollektivçilik tərbiyəsində uşaq ədəbiyyatı böyük rol oynayır. Müşahidə, bədii oxu, oxunan və baxılan haqqında söhbətlr, uşaqların hərəkətlərinin qiymətləndirilməsi kollektiv hissinin, hissələrinin formalaşmasına və bu hisslərin uşaqlarındavranışında şüurlu surətdə təzahür etməsin imkan yaradır.

Uşaqlarda kollektivçilik hissinin tərbiyəsinə musiqini dinləmək, xorla oxumaq və estetik tərbiyənindigər növləri faydalı təsir göstərir. Onlar uşaqların emosiyalarını, ümumi həyacanlarını zənginləşdirir və dərinləşdirir, kollektivçilik hisslərini tərbiyə edir. Gəzinti zamanı yaşlıların əməyini müşahidə edərkən tərbiyəçi, uşaqların diqqətini ətradakı həyatın elə faktlarına, elə tərəfinə cəlb edilməlidir ki, uşaqlar böyüklərin birlikdə işləməsini, ətrafdakılara xeyir vermək üçünçalışdıqlarını başa düşsünlər.

Uşaqlar tədricən başa düşürlər ki, bağçanın işçi kollektivinin birgə işi uşaq bağçasında səliqə, onlar üçün yaxşı həyat şəraitini yaradır. Orta və böyük qruplarda uşaqları müntəzəm olaraq ətrafdakıların, kollektivin əməyi və qarşılıqlı münasibəti ilə tanış edirlər. Uşaqların diqqətini dostluq, həssaslıq və xeyirxahlıq, xəstələrə, uşaqlara, qocalara qayğı göstərmək faktlarına cəlb edirlər. Məktəblilərin həyatından müsbət nümunələr uşaqlar üçün xüsusi ilə anlaşıqdır.

Uşaqların kollektiv hisslərinin inkişaf etdirilməsində əsas rol tərbiyəçiyə məxsusdur; o, öz nümunəsi və ətraflı düşünülmüş metod və üsullar sistemi ilə uşaqlara birgə və səmimi oynamağı, ümumi tapşırıqları yerinə yetirməyi öyrədir, onların kollektivçilik hisslərini zənginləşdirmək və inkişaf etdirməklə, kollektivdə fəaliyyət göstərmə vərdişi tərbiyə edir.

I sinifə qəbul olunduqdan sonra şagirdlər bir-birlərilə ünsiyyətə girir, qarşı tərəfdən dərk etməyə çalışırlar. Görkəmli psixoloq S.L. Rubinşteynin dediyi kimi, davranışın xarici görnüşünə əsasən, biz həmsöhbətimizi qavrayıb, sanki qarşı tərəfi "oxumağa" çalışırıq. Bu zaman yaranan təəssürat ünsiyyət prosesində tənzimləyici rol oynayır. Birinci ona görə ki qarşı tərəfi dərk etməklə insanın özünündərki formalaşır. İkincisi, birgə, razılaşdırılmış fəaliyyətin təşkili və səmərələliyi tərəflərin bir-birlərini hansı səviyyədə "oxuya" bilmələrindən çox asılıdır"(1,s. 134). Qarşı tərəfin dərk olunmasının ən sadə üsulu özü ilə onun arasında oxşarlığın axtarılmasıdır. Real vəziyyətdən asılı olaraq tərəflər özlərini qarşı tərəfin yerinə qoymağa çalışır.

Müəyyənləşdirilmişdir ki, identifikasiya ilə empatiya arasında birbaşa asılılıq mövcuddur. Empatiya da insanın başqalarını qavraması üsullarından biridir. Empatiya qarşı tərəfin dərk olunmasının emosianal tərəfidir. Empatiyanın emosianal tərəfi əks tərəfin düşdüyü vəziyyətin dərk olunmasından daha çox ona emosianal münasibət bəsləməklə bağlıdır. Psixoloji ədəbiyyatda empatiya emosianal münasibət bildirmək baxımından iki yerə ayrılır: obyektə, əşyalara və subyektə,  insanlara münasibət. Bunlara uyğun olaraq empatiyanın birlikdə həyəcanlanma və başqasının hisslərini anlamaq, dərk etmək kimi fərqli tərəflərini göstərmək olar. Birlikdə həyəcanlanmağa misal olaraq imtahan verən şagirdin yoldaşının onunla bərabər həyəcan keçirməsini göstərmək olar. Eləcə də uşaq yaşlı adama hörmətlə yanaşa, onu başa düşməyə çalışar, lakin bu hissləri özünə aid etməz.

Hesab etmək olar ki, birgə həyəcanlanma zamanı subyekt başqasının emosianal vəziyyətini, hisslərini başa düşür, çünki özü də bu hissləri yaşayıb.

Təbii ki, birgə həyəcanlanma ilə başqasını anlamaq arasında kəskin fərq qoymaq mümkün deyil, lakin adətən bununla belə bu iki növ empatiyadan biri dominantlıq təşkil edir.

Kiçik məktəblilər münaqişə vəziyyətində özlərinin hadisələrə münasibətlərini bildirərkən qarşı tərəfin hisslərini, vəziyyətini adekvat qiymətləndirməyi bacarırlar. Onlar özləri də hadisəyə emosianal reaksiya verir, münasibət bildirir, özlərini hekayətin qəhramanının yerində təsəvvür edir, onu dərk etməyə çalışırlar. Bu baxımından kiçik məktəblilərdə davamlı empatiyanın təzahür etdiyi özünü göstərir. Bu isə onların yoldaşlarını qavraması, anlaması baxımından əhəmiyyətlidir. Əgər motivlərin iyerarxiyası baxımından altrustik davranış üstünlük təşkil edirsə müəllim bu keyfiyyəti nəzərə almaqla kollektivin formalaşdırılmasında bu xüsusiyyətlərə istinad etməlidir. Hələ özünü başqasının yerinə qoymağı, onun vəziyyətini anlamağı bacarmayan şagirdlər varsa, təbii ki, müəllim onlarla fərdi qaydada işləməklə, onları kollektivin həyatına qoşmaqla kollektivə adaptasiyalarını asanlaşdıra bilər.

Şagirdlərin qarşılıqlı münasibətləri, kollektivə adaptasiyaları baxımından şagirdlərin psixoloji hazırlığı əsasən yetərli olur. Lakin burada əsas vəzifə müəllimin üzərinə düşür. Çünki kiçik məktəb yaş dövründə istər təlim, istərsə də şagirdlərin mənəvi tərbiyyəsi baxımından müəllimin rolu əvəzsizdir. Bu baxımından pedoqoji kadrların hazırlanmasında bu keyfiyyətlərin nəzərə alınması vacibdir. Əgər pedoqoji prosesdə müəllmin öz şagirdlərinə empatiyası özünü göstərmirsə, onun şəxsiyyət formalaşdıra biləcəyi şübhə doğurur. Güclü empatiyaya malik olmayan müəllim şagirdlərinə yanaşmaqda, onları başa düşməkdə çətinlik çəkir, tez-tez əsassız olaraq cəzalandırma üsuluna əl atır. Onlar özlərini şagirdlərin yerinə qoya bilmir, onların həyəcanını başa düşmür, onların psixoloji xüsusiyyətlərini anlaya bilmirlər.

Bəzən elə olur ki, yoldaşlarının mənfi münasibəti şagirdlərdə heç bir həyəcan yaratmır, onu narahat etmir. Belə şagirlərin kolletivdə real vəziyyəti ilə onların öz vəziyyətlərini qiymətləndirmələri arasnda uyğunsuzluq, yəni bununla barışmaları, laqeydlikləri şəxsiyyətin gələcək inkişafına mənfi təsir göstərir.

Müşahidələr göstərir ki, kiçik məktəblilərin ünsiyyət çətinliyi bir tərəfdən onlar üçün yoldaşları ilə ünsiyyətin aparıcı şərt olması, eləcə də fəaliyyət motivi ilə əlaqədar özünü göstərir. Bu vəziyyətə daha çox aqressiv, əsəbi şagirdlərin davranışında rast gəlmək mümkündür. Digər şagirdlər isə qapalı, qaraqabaq olduqlarından kollektivə uyuşmur. Tədqiqat nəticəsində müəyyənləşdirildi ki,

şagirdlərin aqressivliyinin, eləcə də qapalılığının bir çox səbəbi ola bilər. Lakin bunların içərsində başlıca yeri yoldaşları ilə qarşılıqlı münasibəti qura bilməmək tutur. Bu şagirdlər yoldaşarı ilə ünsiyyətə girməyə çalışır, lakin yoldaşları onlarla ünsiyyətə girmək istəmirlər. Bu şagirdlərdə bir sıra müsbət keyfiyyətlər olsa da onlar birgə fəaliyyət göstərə bilmir, kollektiv işi pozurlar.

Şagirdin kollektivdəki mövqeyinə, yoldaşları ilə qarşılıqlı münasibətlərinin formalaşmasına müəllim əsaslı təsir göstərə bilər. Yaşıdlarının mənfi münasibəti şagirdin emosional vəziyyətini daha da pisləşdirə bilər. Eləcə də onun yoldaşlarına mənfi münasibət bəsləməsinə gətirib çıxarar. Bununla yanaşı müəllimin vaxtında müdaxiləsi vəziyyəti yaxşılaşdıra, hətta konfliktin tamamilə aradan qaldırılmasını mümkün edər.

Şagirdin ünsiyyət çətinliyinin, qarşılıqlı münasibət qura bilməməsinin səbəblərindən biri də onun marağının daha çox hansısa bir fəaliyyət sahəsinə yönəlməsi ilə bağlı ola bilər. Belədə, əgər şagird müsbət keyfiyyətlərə malik olarsa, yoldaşları onunla münasibət qurmağa çalışırlar.

Qarşılıqlı münasibətlər sistemində çətinlik avtoritat davranış və ünsiyyət üslublu şagirdlərlə də baş verir. Bu şagirdlər yalnız yaxşı oxuduqda, müəllim tərəfindən təriflədikdə yoldaşları tərəfindəndə qəbul edilir. Lakin nəzərə almaq lazımdır ki, bu vəziyyət şagirdin özünü yaşıdlarından üstün tutması, onlara yuxarıdan aşağı baxması ilə nəticələnə bilər.

Avtoritar şagirdlərin özlərini yoldaşlarından üstün tutması bir çox hallarda onların ünsiyyət qura bilməməsi ilə deyil, şüurlu şəkildə bu vəziyyəti seçmələri ilə bağlıdır.

Bir çox hallarda isə yaşıdları ilə qarşılıqlı münasibətlərində heç bir problemi olmayan şagirdlər də kollektivdən uzaqlaşmağa üstünlük verirlər. Bunun səbəbi onların fikri xüsusiyyətləri ilə baglıdır. Onlar öz tələbatlarını fərdi qaydada ödəməyə çalışırlar. Yaşıdlarına qarşı belə laqeyidlilik tədricən belə şagirdlə kollektiv arasında konfliktin yaranmasına səbəb olur. Belə şagirdlərin sosiometrik göstəriciləri aşağı olur. Hətta onlar kollektivdə yüksək mövqe tutsalar da yoldaşlarının simpatiyasını qazana bilmirlər.

Kollektivdə yoldaşları ilə qarşılıqlı münasibətlərini qura bilməyən şagird ya özü kollektivdən uzaqlaşır, ya da yoldaşları ondan imtina edilər. Nəticədə şagirddə istər istəməz mənfi keyfiyyətlər formalaşır. Yuxarıda qeyd edildiyi kimi şagirdlərin qarşılıqlı münasibətlərinin qurulmasında, kollektivə adaptasiyasında başlıca rolu müəllim oynayır. Müəllim ilk növbədə  şagirdlərdə emosional empatiyanı inkişaf etdirməlidir ki, tədricən kollektivi formalaşdıra bilsin. Əks halda həm təlim müvəffəqiyyəti aşağı düşür,  həm də şagirdlərin tərbiyəsində, xüsusilə mənəvi tərbiyədə boşluq yarnır.